ORXAN ZAKİROĞLU (BAHARLI)

# QARAQOYUNLULAR

I KİTAB



ORXAN ZAKİROĞLU (BAHARLI)

# QARAQOYUNLULAR

I KİTAB

- 17206 -
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

BAKI –2015

## QARAQOYUNLULARIN ETİMOLOGİYASI

Azərbaycanın qədim türk tayfalarından biri də Baharlı soyundan olan qaraqoyunlulardır. Qaraqoyunlular tarixin müxtəlif dövrlərində görkəmli şəxsiyyətlər yetirmiş, Azərbaycan, ümumiyyətlə, Şərq tarixində dərin iz qoymuşlar. Qaraqoyunlular dövlət, elm və mədəniyyət xadimləri ilə tanınır.

Görkəmli alim, şair, maarifpərvər ziyalı Abbasqulu Ağa Bakıxanovun "Gülüstani-İrəm" (tərcümə edəni: M.Əsgərli, Bakı, 1951) əsəri Azərbaycan tarixşünaslığında ilk və qiymətli tədqiqat əsəri hesab olunur. M.Şəriflinin qeyd etdiyi kimi Bakıxanova qədər Azərbaycan tarixinə aid zəngin və qiymətli materiallara parakəndə halda tarixi və coğrafi əsərlərdə, səyahətnamələrdə, salnamələrdə, fərman və başqa yazılı sənədlərdə təsadüf olunurdu. A.Bakıxanov ilk dəfə olaraq, bu parakəndə materialları toplamış və yüzdən yuxarı mənbələr əsasında 1841-ci ildə "Gülüstani-İrəm" əsərini yazmışdır.

Azərbaycan və Dağıstan tarixinin qədim zamanlardan 1813-cü ilədək dövrünü əhatə edən bu tədqiqat əsərində Qaraqoyunlu dövləti, bu dövlətin qurucusu Qara Yusif, hökmdarları haqqında qiymətli araşdırmalar aparılmışdır.

Görkəmli Azərbaycan alimi Məhəmmədəli Tərbiyət (1875-1940) "Danişməndani – Azərbaycan" (Tərcümə edənlər: İsmayıl Şəms, Qafar Kəndli, Azərnəşr, 1987) adlı ensilopedik tədqiqat əsərində Qaraqoyunlu tarixi şəxsiyyətləri haqqında maraqlı araşdırmalar aparmışdır.

C.Zeynaloğlu "Müxtəsər Azərbaycan Tarixi (elmi-publisistik və tarixi kitab)" (transliterasiya edən: Maarif Teymur, Bakı, 1992), Cəfər İbrahimovun "Qaraqoyunlu dövləti" (Bakı, 1948), "Azərbaycanın XV əsr tarixinə dair oçerklər" (Bakı, 1958), Şahin Fərzəliyevin "Azərbaycan XV-XVI əsrlərdə (Həsən bəy Rumlunun "Əhsənüt-təvarix" əsəri üzrə)" (Elm, 1983), "XV əsr Azərbaycan dövlətlərinin quruluşu" (Bakı, 2003), Süleyman Məmmədovun "Azərbaycan XV-XVIII əsrin birinci yarısı qaynaqlarında" (rus dilində) (Bakı, 1993) adlı monoqrafiyalarında Qaraqoyunlu dövləti-



nin ictimai-siyasi, iqtisadi tarixi tədqiq edilmişdir. Tofiq Nəcəfli Qaraqoyunlulara aid qiymətli tədqiqat əsərlərinin müəllifidir. O, 1994-cü ildə "Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında" mövzusunda dissertasiya müdafiə edərək, tarix elmləri namizədi alimlik dərəcəsi almışdır. Tofiq Nəcəfli "Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında" (Bakı, 2000) adlı monoqrafiyanın müəllifidir.

Tarix elmləri doktoru, professor Cəfər İbraimov (1904-1977) Azərbaycanda Qaraqoyunlu dövləti tarixinin ilk azərbaycanlı və əvəzolunmaz tədqiqatçısıdır.

Tarix elmləri doktoru, professor İlya Pavloviç Petruşevski (1898-1977) 40-cı illərdə Qaraqoyunlu dövlətinin tədqiqi ilə bağlı araşdırmalar aparmış, bu gün də öz dəyərini saxlayan qiymətli elmi əsərlərin müəllifidir.

Görkəmli rus şərqşünas alimi, İngiltərədə mühacir həyatı yaşamış Vladimir Feodoroviç Minorski (1877-1966) Azərbaycanın orta əsrlər tarixi, mədəniyyəti, ədəbiyyatı haqqında elmi əsərlərin müəllifidir. Qaraqoyunlu dövlətini tədqiq etmiş, Cahanşahın bir neçə şeirini dərc etdirmiş və divanı haqqında məlumat vermişdir.

Cahanşahın divanının iki əlyazması məlumdur. Bu əlyazmalardan biri Londonda Britaniya kitabxanasında, digəri isə İrəvan Əlyazmaları İnstitutunda (Matenadaran) saxlanılır. Britaniya nüsxəsi haqqında ilk dəfə görkəmli şərqşünas V.F.Minorski, Matenadaran nüsxəsi barəsində isə Lətif Hüseynzadə məlumat vermişlər.

Türkiyədə Qaraqoyunlu dövlətinin tədqiqi və təbliği ilə bağlı müxtəlif illərdə tanınmış alimlər tədqiqat işləri aparılmış, elmi əsərlər yazmışlar. İ.H.Uzunçarşılının "Anadolu beylikleri ve Akkoyunlu, Karakoyunlu devletleri" (Ankara, 1969), Z.V. Toğanın "Umumi Türk Tarihine giriş" (c. I, İstanbul, 1970), Fuad Köprülünün "Osmanlı devletinin kuruluşu" (Ankara, 1991), Faruk Sümerin "Kara-Koyunlular (Başlangıcdan Cihan-Şaha kadar)" (c. I,. Ankara, 1984), "Oğuzlar (Türkmenler)" (İstanbul, 1999), A.Cayın "Anadolu türk damğası" (Ankara, 1984), Kamuran Gürünün "Türkler ve türk devletleri tarihi". (c. I, Ankara, 1984), İsmail Akanın "Timurun ölümünden sonra Doğu-Anadolu, Azerbaycan ve İrakı Acemde haki-

miyet mücadeleleri". (Türk Kültürü Araştırmaları, yıl XXII 1-2 (1984)), "Şahruhun Kara-Koyunlular üzerine seferleri", Mehmet Ali Çakmakın "Akkoyunlu-Karakoyunlu mücadeleleri". (GÜ.Gazi Egitim Fakültesi Dergisi, cilt 25, sayı 3 (2005)), Dr. Hasan Geyikoğlunun "Kara-Koyunluların Van gölü çevresindeki faaliyetleri ve günümüze ulaşabilen kültürel mirasları" (A.Ü.Türkiyat Araştırmaları Enstitüsü Dergisi. Sayı 38, Erzurum, 2008) və bağqa tədqiqatçıların monoqrafiyaları, elmi məqalələri çap olunmuşdur.

Qaraqoyunluların soyu və mənşəyi haqqında müxtəlif fikirlər söylənilmiş, tədqiqat işləri aparılmışdır. Qaraqoyunluların tarixdə rol oynamış şəxsiyyətləri hər zaman tədqiqatçıların diqqət mərkəzində olmuş, onlar haqqında dəyərli əsərlər yazılmışdır. Qaraqoyunlular, bu tayfanın Şərqin ictimai-siyasi, iqtisadi-mədəni həyatında öz sözlərini demiş şəxsiyyətlərinin fəaliyyətləri müxtəlif zamanlarda tədqiqatçıların diqqətini cəlb etmişdir.

Bəzi tədqiqatçıların qənaətinə görə, qaraqoyunlular Qayı adlanan xüsusi türk boyuna mənsubdurlar. Fəzlullah Rəşidəddinin "Oğuznamə"sində Qayı Oğuzun böyük oğlu Gün xanın övladı hesab edilmişdir.

Baharlı tayfasının layiqli nümayəndəsi, görkəmli ensiklopedik alim Məhəmmədhəsən bəy Vəliyevə (Baharlı) görə, Baharlı soyundan olan qarqoyunlular əvvəllər Qərbi Türküstanda yaşayan ağ hunların nəslinə mənsub Qayı adlanan xüsusi türk tayfasıdır.

Məhəmmədhəsən bəy Vəliyevin (Baharlı) yaradıcılığının şah əsəri sayılan "Azərbaycan" kitabında hunlar ən qədim türk xalqı hesab edilmişdir: "Qədim Azərbaycana xəzərlərin gəlişindən təxminən 500 il sonra hunlar gəlmişlər. Onlar hələ eramızdan iyirmi əsr əvvəl (hicridən əvvəl XXVII yüzillik) əvvəlcə to-kio, sonra isə hi-yun-yu, hiyunq-yu, hunq-nu, hun-nu, hun, yaxud hin adı ilə çinlilərə məlum idi və Monqolustandan, Türküstandan və Qırğızıstandan Ural dağlarına kimi bütün ərazini tuturdular. Sonralar hunlar ağ, yaxud cənub, qərb və şimal hunlarına parçalanmışdılar. Ağ hunlar ti-le adı ilə Amu-Dəryaya və Qafqaz və İran Azərbaycanı da daxil olmaqla, Azərbaycanın hər yerinə yayılmışdılar. Daha sonralar



isə bir sıra tayfalara – xəzərlərə, massagetlərə, sabir hunlarına, quşanlara, yaxud qara hunlara və s. ayrılmışlar.

Hunlar ən qədim türk xalqıdır. Avropalılara isə onlar eramızın III əsrindən (hicridən əvvəl IV yüzillikdən) başqa türk xalqları tərəfindən sıxışdırılıb Avropaya hərəkət edən zaman məlum olmuşlar. Bu da Avropa həyatında böyük siyasi əhəmiyyət kəsb edirdi, çünki onların Avropaya soxulması ilə "Xalqların böyük köçü" adlanan kampaniya başlandı. Tarixdə hunların III yüzillikdən ayrica bir xalq kimi göstərilməsinə baxmayaraq, Strabon (bizim eradan əvvəl II yüzillik) sarmat tayfaları arasında hun tayfasının adını çəkmişdir ki, bunu da həmin hunların əjdadları kimi qəbul etmək olar.

İndiki Azərbaycana hunlar, hun-quşanlar, yaxud qara hunlar və sabir, yaxud da hun-sabirlər adı ilə gəlmişlər" [43, 34].

A.Bakıxanovun tədqiqatlarına istinadən Qaraqoyunlular Hülakü xanı Arqun xanın hakimiyyəti dövründə Azərbaycan ətrafında, Ərzrum və Sivasda məskunlaşmışlar [8, 86].

Məhəmmədhəsən bəy Vəliyev (Baharlı) tədqiqat əsərində maraqlı tarixi faktlarları qələmə almışdır: "Moğollar Azərbaycana gəlməmişdən, Türküstandan Xəzər dənizinin cənub sahililə və şimal tərəfdən Azərbaycana türkmanlar gəlməyə başlamışdılar. Onlar Səlcuq və qayılar ilə bahəm, ağ hun türklərinə mənsub idilər. Türkman adını bu qəbilə rəisləri Salur xandan almışdılar (o da Oğuz xanın oğlu Dağ xanın nəslindəndir). Bu xan 962-ci (350-ci ildə) ildə İslam dinini qəbul edib, öz qəbiləsini bu dinə döndərdikdən sonra özünü Qara xan və ya Çanağ, qəbiləsini də bütpərəst türkmənlərdən ayırıb, "türkmən", yəni "türk imanlı" adlandırırdı.

Türkmanlar və ya türkanlar bu adla rus müvərrixlərinə də məlum olmuşdular. 985-ci ildən başlayaraq, onlar uzun müddət rus knyazlarını narahat edirdilər. 1161-ci ildə rus knyazlarından Vladimir tərəfindən pərişan edilib Rusiyadan qovulmuşdular. O zaman türklərin bir qismi Azərbaycana keçdilər.

Cənub tərəfdən Azərbaycana gəlmiş olan türkmanlar Qaraqoyunlu və Ağqoyunlu adlarıyla məruf idilər. Bunlar müxtəlif vaxtlarda Azərbaycana daxil olmuşdular. Buraxdıqları nişanələr bunlardır:

Göyçay qəzasında – Türkmən
Cavanşir qəzasında – Türkmən.

Ağqoyunlu və yaxud Qaraqoyunlu türkmanları birinci dəfə olaraq, Türküstandan İrana Hülakülərdən Arqun xanın zamanında, 1284-1291-ci illərdə... köçmüşlər... Qaraqoyunlular əvvəl İran Azərbaycanında oturdular, sonra Ərzurum, Ərzincan və Sivas tərəflərinə köçdülər" [42, 52].

Abbasqulu Ağa Bakıxanovun, Məhəmmədhəsən bəy Vəliyevin (Baharlı) mövqeyindən çıxış etmiş C.Zeynaloğlu "Müxtəsər Azərbaycan Tarixi", İ.H.Uzunçarşılı "Anadolu beylikleri ve Akkoyunlu, Karakoyunlu devletleri", F.Köprülü "Osmanlı devletinin kuruluşu", Z.V.Toğan "Ümumi Türk tarihine giriş" kitablarında Qaraqoyunluların Azərbayacana və Şərqi Anadoluya Arqun xanın hakimiyyəti illərində gəldiklərini yazmışlar.

Cahangir Zeynaloğlu Qaraqoyunluların Türkistandan gəldiyini bildirmişdir: "Türkmən qəbilələri lap qədim zamandan bəri Kiçik Asiya və Dəclə-Fərat çaylarının şimal cəhətlərində yerləşmişlərdi. Və Kiçik Asiyada Zülqədriyyə və Bani-Rəmazan və sairə türkmən qövmlərinə mənsub hökumətlər idi. Nəhayət, Elxan Arğun zamanında Türkistandan hicrət edən iki böyük Türkmən qəbiləsi dəxi Fərat və Dəclə çaylarının şimal cəhətlərində məskən saldılar... Qaraqoyunlular Ərzincan-Sivas, Ağqoyunlular da Mosul-Aməd şəhərlərinin ətrafında yerləşdilər" [53, 45].

Fuad Köprülü Ağqoyunlu və Qaraqoyunlu Türkmənlərinin sıx bir kütlə halında Elxan Arqun zamanında (1284-1291) Orta Asiyadan şərqi Anadolu və Azərbaycana köçürüldüyünü yazmışdır [61, 43].

Qaraqoyunluların Baharlı tayfasına mənsub olub olmaması haqqında orta əsrlərə aid mənbələrdə müxtəlif fikirlər yazıldığı üçün tədqiqatçılar arasında fərqli mülahizələr vardır. Qaraqoyunluları bir çox tarixi mənbələrə istinadən Baharlı tayfasına aid hesab edən tarixçilərlə yanaşı, Baranlı tayfasına mənsub edən tədqiqatçılar da vardır.



Zahirəddin Məhəmməd Baburun "Baburnamə"sində də Qaraqoyunlular Baranlı tayfasına aid hesab edilmiş, Baharlı oymağı haqqında ayrıca, qısa da olsa məlumat verilmişdir [56, 165].

Zahirəddin Məhəmməd Baburun qızı Gülbedenin "Humayunnamə"sində verilmiş nəsil şəcərəsində Qaraqoyunlular Baharlılara aid hesab edilmişdir.

XVI əsrə aid naməlum müəllif tərəfindən yazılmış mənbəyə əsasən Qaraqoyunlular Türkman tayfası adlandırılmışdır. Onlara "Barani" də deyilir yazan müəllif Qaraqoyunlu tayfalarının Van gölünün şimalında yerləşən Ərcişdə məskunlaşdığını bildirmişdir. Bu kitabda Qaraqoyunlu hökmdar ailəsi ilə yanaşı, Qaraqoyunlu tayfaları kimi, on tayfa haqqında da məlumat verilmişdir [25, 18].

Bu tarixi mənbədə Qaraqoyunluların Baharlı tayfasına aid olub olmaması haqqında konkret fikir söylənilməmişdir.

Azərbaycan tədqiqatçılarından görkəmli ensiklopedik alim Məhəmmədhəsən bəy Vəliyev (Baharlı), tarix elmləri doktoru, professor Cəfər İbrahimov, tarix elmləri doktoru, professor Süleyman Məmmədov tədqiqat əsərlərində Qaraqoyunlu dövlətinin hökmdarlarını Baharlı tayfasının nümayəndələri saymışlar.

XX əsrin əvvəllərində Məhəmmədhəsən bəy Vəliyev (Baharlı) bir sıra tarixi faktları əsas gətirərək Qaraqoyunlu hökmdarlarının baharlıların nümayəndələri olması qənaətinə gəlmişdir: "Baharlı tayfası da əvvəlcə Xorasanda yaşamış, ordan da öz başçıları İlbaşı Bayram xanın başçılığı ilə İran Azərbaycanına keçmiş və Marağa yaxınlığında yurd salmışlar. Elə burda da Bayramxanlı kəndinin əsasını qoymuşlar. Sonralar Qafqaz Azərbaycanının hüdudlarına keçmiş və burda aşağıdakı kəndləri salmışlar:

Şuşa qəzasında – Baharlı (2)
Zəngəzur qəzasında – Baharlı (2)" [43, 46].

Məhəmmədhəsən bəy Vəliyev (Baharlı) Qaraqoyunlu tayfa ittifaqının başçısı Bayram Xocanı Baharlı tayfasının nümayəndəsi hesab etmişdir.

Vladimir Feodoroviç Minorski tədqiqat əsərlərində baharlıları Qaraqoyunlu dövlətinin və Qütbşahlar dövlətinin qurucuları hesab etmişdir.

Qaraqoyunlu dövlətinin yaradıcılarının baharlıların nümayəndələri olub-olmaması barədə türk tarixçiləri tərəfindən araşdırmalar aparılmış, müxtəlif fikirlər söylənilmişdir. Professor İsmayıl Haqqı Uzunçarşılı Qaraqoyunlu hökmdarlarını Baharlı tayfasının nümayəndələri hesab etmişdir: "Qaraqoyunlular və ya Baranilər Oğuz boyundandırlar. Bu boylardan bir qismi Monqol istilası ərəfəsində Mavəraünnəhr və Xorasan tərəflərindən qərbə köçürüldüyü zaman bunların arasından Ağqoyunlu və Qaraqoyunlu tayfaları, qərb moğolları (Elxanilər) zamanında və Arqun xan dövründə (1284-1292) Türkistandan köcüb Firat və Dəclə çaylarının yuxarı vadilərində məskunlaşmışlar. Köçəri bir Türkmən tayfası olmuş qaraqoyunlular yazı Aladağ yaylalarında və qışı Diyarbəkir və Firat ətrafında keçirirdilər.

On dördüncü əsrin sonlarında meydana gələn Qaraqoyunlu bəyliyinin əsasını qoyan Qaraqoyunlu tayfasının ən böyük və nüfuzlu qollarından olan Baharlı qolunun rəisi Bayram Xoca oğlu və ya qardaşının oğlu Qara Məhəmməddir" [68, 180].

Kamuran Gürün də İ.H.Uzunçarşılının Qaraqoyunlu hökmdarlarının Baharlı tayfasından olması fikrini müdafiə etmişdir: "Qaraqoyunlu bəyliyinin qurucusu olaraq tanınan Bayram Xocanın Baharlı oymağının başı olduğu anlaşılmaqdadır" [60, 485].

Professor Əhməd Zəki Vəlidi Toqan bəzi orta əsrlərə aid mənbələrə istinadən qaraqoyunluları Baranlı boyundan olması fikrini irəli sürmüşdür. Professor M.Əbdülxaliq Çay da qaraqoyunluları Baranlı qəbiləsinə aid olduğunu bildirmişdir.

Professor Faruq Sümər baharlıları Qaraqoyunlu dövlətinin qurucuları deyil, bu dövlətin ən böyük əmirləri olan əsas dayağı hesab etmişdir: "Baharlı bəyləri qız alıb verməklə Qaraqoyunlu xanədanı ilə qohum olaraq, bu dövlətin ən böyük əmirlərindən olmuşlar. Münəccim Başı Qaraqoyunlu bəylərinin bu oymağa mənsub olduğunu yazsa da bu onun Baharlı ilə Baranlı adlarının bir-biri ilə qarışdırılmasından irəli gəlir" [63, 23]. Faruq Sümərin fikrincə, Baranlı tayfası idarəçi rol oynadığı üçün özünün qəbiləvi mahiyyətini itirmişdir. Müəllif daha sonra qeyd etmişdir: "Qaraqoyunlu xanədanı ilə bağlı mühim bir məsələ "Barani" və ya "Baranlu" adı ilə tanınmasıdır" [63, 234].



Bəzi tarixçilər öz tədqiqat əsərlərində baharlıların, qaraqoyunluların Yıva boyundan olmalarını göstərmişlər. Fəzlullah Rəşidəddinin Yıva boyunu Oğuz xanın oğlu Dəniz xanın övladı adlandırmışdır. Burada Yıva yüksək atları olan və hünərli mənasında işlədilmişdir [63, 234].

Faruq Sümər Yıva boyu haqqında bildirmişdir: "Yıvalar Oğuz boyları arasında ictimai mövqelərinə görə iyirmi üçüncü yerdədir. Lakin səlcuqların meydana gəlməsi Kınık boyu kimi bu qəbilənin də taleyini təmamilə dəyişdirmişdir. Səlcuqlu imperatorluğunun yaranışından etibarən başlayan tariximizdə Yıva boyu böyük rollar oynamış və bu qayda ilə adı tarixi qaynaqlarda və arxiv sənədlərində qeyd olunmuşdur. Lakin Yıvalara indiyə qədər elm aləmində verilən əhəmiyyət onlara, Rəşidəddinin verdiyi qiymətdən fərqli olmamışdır" [65, 151].

XI əsrdə yaşamış Mahmud Qaşqarlının yaradıcılığına istinad etmiş Faruq Sümər yazmışdır: "Kaşğari bu boyun adının iva, yava, yıva, yafa və avva kimi beş deyiliş şəklini təsbit etmişdir. XII əsrdə onlardan əl-ivaiyyə və ya iva şəklində bəhs edilir. Təhrir dəftərlərində isə iva və yıva yazılışları özünü göstərir" [64, 349].

V.F.Minorski Qaraqoyunlu sikkələrində olan damğaların Oğuz damğalarından daha çox Yıva damğasına aid hesab etdiyi üçün Qaraqoyunluları Yıva boyundan olduğunu göstərmişdir.

M.Əbdülxaliq Cay Minorskinin qaraqoyunların Yıva boyundan olması fikri ilə razılaşmışdır. Müəllif fikrini belə əsaslandırır: "Burada diqqət edilməsi məsələ Yıva boyunun damğasıdır. Rəşidəddinin Oğuz boylarına aid siyahısında Yıva boyu damğası, qoç başı rəsminin piktoqramı şəklindədir. Bu xüsusiyyəti Faruq Sümərin bir naxış olduğunu söyləməsinə baxmayaraq, Qaraqoyunlu pullarında da görmək mümkündür" [58, 127].

Faruq Sümərə görə, bu işarə bir damğadan çox bir naxışdır. Bəzi Qaraqoyunlu pullarında görülən işarələri isə damğa kimi də qəbul etmək olar. Ancaq bu Kaşğarlıdakı Çepni boyuna aid işarəni

bir az xatırladır. Lakin çepnilər ilə qaraqoyunlular arasında qəbiləvi münasibətə təsadüf edilən məlumat yoxdur.

Bununla bərabər Faruq Sümər Yıva boyu ilə qaraqoyunlular arasında qohumluq əlaqələrinin ola biləcəyi barədə yazmışdır: "Yiva boyu ilə Qaraqoyunlular arasında qəbiləvi qohumluğa aid faktlar vardır. Monqol istilasından əvvəl Berçem adlı bir boy bəyi ailəsinin idarəsi altında olan Yıva qəbiləsinin yaşadığı Həmədan bölgəsində, Qaraqoyunlu dövlətinin başlıca dayaqlarından birini təşkil edən və hökmdar ailəsi ilə qohumluq əlaqələrinin olduğu söylənilən Baharlı oymağı yurd salmışdı" [63, 14].

M.Əbdülxaliq Çay da bu fikri təkrarlayaraq yazır: "Qaraqoyunluların bir dövlət olaraq meydana gəlməsindən öncə Şərqi və Cənubi-şərqi Anadolu, Şimali İraq və Azərbaycan bölgəsinin etnik quruluşuna baxdığımızda Qaraqoyunlu ittifaqına təməl olacaq üç böyük Türkmən birliyinin olduğunu görürük. Bunlardan Həmədan bölgəsi Yıvaları, başlarında Berçem adlı bir bəyin rəhbərliyi altında monqollardan çox əvvəl bölgəyə gəlmişlər və Həmədan bölgəsində yurd salmışlar. Qaraqoyunluların dayağı olan iki böyük boydan birisi olan Baharlı Türkmənləri də Həmədan bölgəsində tarix səhnəsinə çıxmışlar. Baharlı-Yıva münasibəti qaraqoyunluların dayağı olan boyun Oğuzların Yıva boyu olduğunu göstərir" [58, 203].

Faruq Sümərin, M.Əbdülxaliq Cayın fikirlərindən çıxış edən Azərbaycan tarixçisi, tarix elmləri namizədi Tofiq Nəcəfli yazır: "Monqol istilasından əvvəl Bərçəni adlı bir bəyin rəhbərliyi altında olan Yıvələrin yaşadığı Həmədan ətrafında Qaraqoyunlu dövlətinin dayağı olan və hökmdar ailəsi ilə qohumlaşmış Baharlı tayfası yurd salmışdı".

Faruq Sümər qeyd edirdi ki, Yıva boyunun başına Berçem bəydən sonra oğlu Mahmud, Fəxrəddin İbrahim keçmişlər. XIII əsrin əvvəllərində Yıva boyunun əmiri Şihabəddin Süleyman şah olmuşdur. Bahar qalası Şihabəddin Süleyman şahın paytaxtı idi. Şihabəddin Süleyman şah Yıva boyunun ən böyük əmiri sayılmışdır [64, 350].

Yıvalar Berçem bəy və onun varisləri zamanında da Bağdad xilafətinin tərəfində olmuşlar. Hələ 1258-ci ildə Hülakü Bağdadı



mühasirəyə aldığı zaman Şihabəddin Süleyman şah monqolların asılılığını qəbul etməyib, xəlifə ilə bir yerdə Bağdad şəhərinin müdafiəsində şəhid olmuşlar [64, 350].

Qaraqoyunlu dövlətinin qurucularının baharlılar olub olmaması barədə fikir ayrılığı olsa da, Azərbaycanın, Türkiyənin, Rusiyanın görkəmli tarixçilərinin bəziləri öz tədqiqat əsərlərində bu dövləti baharlılara aid hesab etmişlər.

## QARAQOYUNLU DÖVLƏTİ

Qaraqoyunlu hökmdarları sülaləsinin banisi Bayram Xocadır. Cəlairi hökmdarı Sultan Üveysin hakimiyyəti dövründə Qaraqoyunlu tayfasının başçısı idi. Bir neçə dəfə Cəlairi hökmdarı Sultan Üveysə qarşı döyüşdü. Məğlub oldu. Hakimiyyəti altında olan Mosul və Mardin işğal edildi. Zeynəddin bin Həmdullah Qəzvini bu barədə yazırdı: "Sultan Dəclə çayından keçdi, atasının evlərində düşdü və 11 ay Bağdadda sakin oldu. 767-ci ilin baharın əvvəlində (1366) Süleymanşah Xazani Bağdad hakimliyinə qoydu və Diyarbəkrə yollandı. Həsən Yolteymurun malik olduğu Təkrit qalasını sülhlə istila etdi. Oradan Mosula getdi. Bayram xacə Türkmənin qardaşı Mosulda hakim idi, onu tutdu və Mosuldan Mardinə getdi. Ramazan ayında (12.V.-10.VI.1366) orada qaldı. Oradan Bəşəriyəyə gəldi və bir neçə gün gözlədi. Səbəb o idi ki, Bayram xacə Türkmən çox dar olan Muş dəhnəsinin ağzını kəsmişdi. Sultan Əshab-i Kehf mağarası yanından Çəpəqcur yolu ilə getdi və iki dəfə Fərat çayından keçdi, Muş səhrasına gəldi və Bayram xacə Türkmən ilə vuruşdu. Bayram xacə məğlub olub getdi. Onun bütün ulusunu, elini, evlərini qarət etdilər. Bir həftə orada sakin oldu..." [24, 36].

Sultan Üveysin vəfatından sonra 1374-cü ildə Təbrizdə Cəlairi taxtına vəliəhd oğlu Sultan Hüseyn çıxdı. Bayram Xoca Cəlairilərə tabe olmaq şərtilə Mosulu, Erçişi, Sincarı tutmuşdur. Bayram Xoca 1380-cı ildə vəfat etdikdən sonra yerinə qardaşı oğlu Qara Məhəmməd keçmişdir.

Qara Məhəmməd Van gölünün şimalında yerləşən Ərçış qalasında möhkəmləndi. Qala ətrafında düşərgə salmış Sultan Hüseyni qiymətli hədiyyələrlə qarşıladı [24, 40].

Sultan Hüseyn səkkiz illik hakimiyyəti dövründə ona qarşı taxt-tac iddiasında olan Cəlairi şahzadələri ilə döyüşdə Qara Məhəmmədə arxalanmağa çalışdı. O, 1382-ci ildə qardaşı Sultan Əhməd tərəfindən məğlub olub qətlə yetirildikdən sonra Təbrizdə taxta qardaşı çıxdı.



Qaraqoyunlu dövləti tarixinin əvəzolunmaz tədqiqatçısı professor Cəfər İbrahimovun 40-cı illərdə apardığı araşdırmalarına istinadən Bayram Xocanın vəfatından sonra Qaraqoyunlu tayfasına başçı seçilmiş Qara Məhəmməd doqquz il hakimiyyətdə olmuşdur. O, hökmranlığı dövründə Qaraqoyunlu tayfalarını öz hakimiyyəti altında birləşdirməyə çalışmışdır. Qara Məhəmməd hakimiyyətinin ilk dövründə Əmir Teymurla müttəfiq olmaq istəsə də, onun hökmranlıq iddiası buna mane olmuşdur. Qara Məhəmməd geniş ərazilərə sahib olmaq üçün hərbi əməliyyatlar aparmış, Vanı tutmaqla şəhəri özünə paytaxt elan etmiş, adına pul kəsdirmişdir.

Qara Məhəmməd Cəlairilərlə münasibətləri normal hala salmaq üçün öz qızını Sultan Əhmədə ərə vermişdir. O, Cəlairi hökmdarının hakimiyyətini qorumaq üçün Bağdad hakimi Cəlairi şahzadəsi Şeyx Əli ilə döyüşməli olmuşdur. Qara Məhəmməd beş minlik ordu ilə Şeyx Əlinin on beş-iyirmi minlik ordusunu məğlub etmiş, Cəlairi şahzadəsi döyüşü yarımçıq qoyub qaçmışdır [63, 46].

Qara Məhəmməd Cəlairilərin mərkəzi şəhəri Təbrizi bir neçə dəfə tuta bilmişdir. Suriya və Mardin hakimlərini məğlub etmiş, teymurilər və ağqoyunlulara qarşı döyüşlərdə iştirak etmişdir. Onun Teymurla apardığı ən uğurlu qələbəsi Çapaqcur döyüşüdür. O, Naxçıvandan qaraqoyunlular üzərinə hücum etmiş Əmir Teymurun qoşunlarını Çapaqcur dairəsində məğlub etmişdir.

Professor İsmayıl Haqqı Uzunçarşılının tədqiqatlarına görə, Qaraqoyunluların Məmlük dövləti, Ağqoyunlular və başqa sünni məzhəbinə mənsub dövlətlərlə düşmən olmasına səbəb onların şiə məzhəbindən olmaları idi. Qara Məhəmməd və onun xələflərinin ağqoyunlularla döyüşmələrinə səbəb məzhəb fərqliliyi olmuşdur.

Orta əsrlərə aid mənbələrə istinadən Qara Məhəmməd və oğlu Bayram bəy 1389-cu ildə Pir Həsən bəy adlı Qaraqoyunlu əmiri tərəfindən öldürülmüşdür.

Qara Məhəmmədin Bayram bəy, Misir Xoca, Yarəli bəy, Qara Yusif adlı dörd oğlu olmuşdur. Onun Gövhərşad bəyim adlı qızı Əmir Teymurun oğlu Şahrux Mirzə ilə ailə həyatı qurmuşdur. Qara Məhəmmədin istəyi ilə baş tutmuş bu evliliyin başlıca səbəbi Əmir Teymurla münasibətləri qaydaya salmaq idi. Qara Məhəm-

mədin bu övladı sələflərinin layiqli davamçısı kimi tarixdə özünə məxsus rol oynadığı üçün onun haqqında ayrıca yazmaq yerinə düşər.

Əmir Teymurdan sonra taxt-taca sahib olmuş Şahrux Mirzənin hakimiyyəti dövründə Gövhərşad bəyim dövlətin ictimai-siyasi, mədəni həyatında yaxından iştirak etmiş, alimlərə, şairlərə, sənətkarlara qayğı ilə yanaşmışdır. Gövhərşad bəyim ölkədə quruculuq, abadlıq işləri aparmış, memarlıq abidələrinin tikintisinə xüsusi fikir vermişdir. Onun Teymurilər dövlətinin siyasi həyatına güclü təsiri olmuş, qonşu ölkələrlə diplomatik münasibətlərdə fəal rol oynamışdır. Gövhərşad bəyimin ölkədəki siyasi nüfuzu sayəsində qardaşı Qara Yusifin oğlu Cahanşah rəqiblərinə qalib gələrək Qaraqoyunlu hökmdarı olmuşdur.

Gövhərşad bəyimin Şahrux Mirzə ilə evlilik həyatından Uluq bəy, Baysunqur Mirzə və Məhəmməd Cuki adlı üç oğlu dünyaya gəlmişdir.

Gövhərşad bəyimin oğlanları Uluq bəyin Əbdüllətif, Əbdüləziz, Baysunqur Mirzənin Mirzə Əlaüddövlə, Sultan Məhəmməd, Əbülqasım Babur, Məhəmməd Cukinin Əbubəkr, Məhəmməd Qasım adlı övladları olmuşdur.

Görkəmli dövlət xadimi, şair, astronom, riyaziyyatçı Uluq bəy (1394-1449) Gövhərşad bəyimlə Şahrux Mirzənin böyük övladıdır. O, ana tərəfdən Qara Məhəmmədin nəvəsidir.

Orta əsrlərə aid mənbələrdə ailənin ortancıl oğlu Baysunqur Mirzə dövlət işlərindən uzaq, gününü eyş-işrətdə keçirmiş şəxs kimi xatırlanır. Baysunqur Mirzə qısa ömür yaşamışdır.

Baysunqur Mirzə dünyasını dəyişəndə üç oğlu həyatda idi. Həyatı boyu Teymurilər dövlətinin siyasi həyatına təsir göstərmiş Gövhərşad bəyimin istəyi ilə nəvəsi Mirzə Əlaüddövlə Şahrux Mirzənin vəliəhdi seçilmiş, hökmdarın divanında ona əmir rütbəsi verilmişdir. Şahrux Mirzənin hökm və fərmanlarına möhür vurmaq onun səlahiyyətində idi. Hələ kiçik yaşlarında ikən Mirzə Əlaüddövlənin təlim-tərbiyəsi ilə nənəsi Gövhərşad bəyim məşğul olmuşdur. Gövhərşad bəyimin övladları arasında Mirzə Əlaüddövləni vəliəhd seçməsinin əsas səbəbi nəvəsinə etibarı, inamı idi. O, Mirzə



-17206-

Əlaüddövləyə inandığı üçün onu Şahrux Mirzənin taxt-tacına layiq bilmişdir. Gövhərşad bəyim övladları içərisində daha çox Sultan Məhəmməddən ehtiyat etdiyi üçün Şahrux Mirzənin fərmanı ilə nəvəsini paytaxtdan uzaqlaşdıraraq Fars vilayətinin idarəsini ona həvalə etmişdir. Gövhərşad bəyim nəvəsinə bu münasibətində yanılmamışdır. Sultan Məhəmməd babasının hakimiyyətinin son illərində ona qarşı qiyam qaldırmışdır. Lakin Şahrux Mirzə hərbi əməliyyata başladığı ərəfədə gözlənilmədən Reydə vəfat etmişdir.

Şahrux Mirzənin 1447-ci ildə vəfatından sonra ölkədə sabitlik pozulmuş Teymuri şahzadələri arasında taxt-tac uğrunda mübarizə başlamışdır. Gövhərşad bəyimin övladları da hakimiyyət iddiası ilə bir-birləri ilə döyüşmüşdülər.

Gövhərşad bəyimin Teymurilər dövlətində nüfuzu olmasına baxmayaraq ərinin ölümündən sonra əvvəlki kimi ölkənin siyasi həyatına təsir edə bilməmişdir. Lakin onun qonşu ölkələrdə nüfuzu qalmaqda idi. Gövhərşad bəyimin siyasi nüfuzu sayəsində Teymurilər dövlətinin paytaxtı Herat şəhərini tutmuş Cahanşah onunla saziş bağlayaraq ölkə ərazisini tərk etmişdir.

Hakimiyyət uğrunda gedən mübarizədə Teymuri taxt-tacına əvvəlcə Gövhərşad bəyimin böyük oğlu Uluq bəy sahib olmuşdur. O, oğlu Əbdüllətifin sui-qəsdi nəticəsində öldürüldükdən sonra Gövhərşad bəyimin qatil nəvəsi də hakimiyyətdə çox qala bilməmiş, qətlə yetirilmişdir.

Teymuri şahzadəsi Sultan Əbu Səid rəqiblərinə qalib gələrək hökmdar olduqdan sonra Gövhərşad bəyimin nüfuzundan ehtiyat etdiyi üçün onu 1457-ci ildə xəyanət nəticəsində öldürmüşdür. Sultan Əbu Səid Şahrux Mirzənin qardaşı Miranşahin nəvəsi idi. O, bu əməlinə görə on iki ildən sonra Gövhərşad bəyimin nəticəsi Yadigar Məhəmməd tərəfindən edam edilmişdir. Yadigar Məhəmməd onun nəvəsi Sultan Məhəmmədin oğlu idi.

Faruq Sümərin qənaətinə görə, Pir Həsən bəyin atası Hüseyn bəy Qara Məhəmmədin əmisi oğludur. Hər ikisinin ataları Bayram Xocanın qardaşlarıdır.

Pir Həsən bəy özünü Qaraqoyunlu başçısı elan etsə də əmirlərin əksəriyyəti Qara Məhəmmədin oğlu Misir Xocanın ətrafında

...rbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

birləşmişdilər. Lakin çox keçməmişdir ki, Misir Xocanı qardaşı Qara Yusif əvəz etmişdir. Qara Yusiflə Pir Həsən bəy arasında uzun müddət vuruşmalar olmuşdur. Hər iki tərəf bu vuruşmalardan böyük itki vermişdir.

Əbubəkr Tehrani Qara Yusifin Pir Həsən bəyə qalib gəlməsi üçün Ağqoyunlu bəyi Qara Yuluk Osman bəydən kömək istəməsini, oğlu İbrahim bəyin başçılığı altında Ağqoyunlu ordusunun onun köməyinə getməsini, Pir Həsən bəyi məğlub etməsini, əsir götürüb Əmir Teymura göndərməsini yazmışdır [38, 51,52].

Qara Yusif 1355-ci ildə anadan olmuşdur. O, atasının öldürülməsindən sonra Qaraqoyunlu tayfasının başçısı seçilmişdir. Qara Yusif hakimiyyəti dövründə atasının layiqli xələfi kimi onun siyasətinə uyğun hərəkət etmiş, qüdrətli dövlət yaratmaq üçün hərbi əməliyyatlar aparmışdır. O, öz məqsədinə çatmaq üçün uzun illər ona maneə olmuş teymurilər və ağqoyunlularla döyüşməli olmuşdur. Əmir Teymurun və Ağqoyunlu başçısı Qara Yuluk Osmanın ordularını dəfələrlə məğlub etmişdir. Qara Yusifin qələbələri ilə yanaşı uğursuz döyüşləri də çox olmuşdur.

Görkəmli macar alimi, professor, səyyah German Vamberi (1832-1913) Qara Yusifin Əmir Teymurun himayəsini qəbul etməyən yeganə tayfa başçısı olmasını yazmışdır [41, 32].

Teymurilər Qaraqoyunluların mərkəzi şəhəri Vanı tutub, qarət etdikdən sonra Qara Yusif onun köməyinə sığınmış Cəlairi hökmdarı Sultan Əhmədlə müttəfiq olmuş, lakin ciddi uğur əldə edə bilməmişdir [20, 40].

Orta əsrlərə aid tarixi salnamələrə istinadən Qara Yusif teymurilərə qarşı Sultan Əhmədlə müttəfiq olsa da, bəzən onun xəyanəti ilə qarşılaşmışdır. Həmin illərdə Təbriz şəhəri Cəlairilər dövlətinin paytaxtı idi. Sultan Əhmədin zəifliyi üzündən Təbriz şəhəri dəfələrlə hakimiyyət iddiasında olmuş əmirlərin əlinə keçmişdir. Qara Yusif Sultan Əhmədin müttəfiqi kimi Təbrizi bir neçə dəfə tutsa da, şəhərdə möhkəmlənə bilməmişdir.

Qara Yusif Təbrizi tutan Mahmud Xalxalini, Cəlairi şahzadələrini bir neçə dəfə məğlub edib qələbə çaldı [24, 58-59].



...rbaycan Respublikası Prezidentinin İşlər İdarəsi PREZİDENT KİTABXANASI

Qara Yusif Sultan Əhmədlə müttəfiq olduğu illərdə teymurilərlə həlledici döyüşlərdə iştirak etmişdir. Teymurilərlə döyüşlərdə geri çəkilməli olduğu zamanlarda Misir sultanının, Osmanlı sultanının yardımlarından istifadə etmək istəmişdir.

Qara Yusif bir müddət Qahirədə yaşamaq üçün Misir sultanı Fərəcdən icazə istəməsinə baxmayaraq, müəyyən maneələrlə üzləşmişdir. Qara Yusif Osmanlı sultanı İldırım Bəyazidin köməyindən istifadə etməli olmuşdur. O, İldırım Bəyazidin yanına pənah aparanda Sultan Əhməd də onunla idi. Lakin yolda onlar arasında narazılıq yarandığı üçün ayrı-ayrılıqda Osmanlı sultanının yanına çatmışdılar, Qara Yusif səkkiz-doqquz ay İldırım Bəyazidin qonağı olmuşdur [63, 61].

Əmir Teymur Qara Yusifin İldırım Bəyazidin qonağı olması xəbərini eşidəndə Qarabağda idi. O, İldırım Bəyaziddən Qara Yusifin ona verilməsini, yaxud özü öldürməsini tələb etdikdə rədd cavabı almışdır. İldırım Bəyazidin cavabı Əmir Teymurun Osmanlı dövlətinə hücum etməsi üçün bir bəhanə olmuşdur. Bu da məşhur Ankara döyüşünün baş verməsinə gətirib çıxartmışdır [38, 56].

Osmanlı sultanı İldırım Bəyazidin 400 minlik atlı və piyada ordusu olmasına baxmayaraq, Əmir Teymura məğlub olub ailəsi ilə əsir düşmüşdür [16, 44,45; 38, 57; 41, 39].

Əmir Teymur Kiçik Asiyanın bütün torpaqlarını tutub İzmirə qədər irəlilədi. Əgər Ağ dəniz onun yolunu kəsməsəydi bütün Avropanı tutacaqdı [41, 39].

Qara Yusif İldırım Bəyazidin məğlubiyyətindən sonra bir müddət ona sadiq Qaraqoyunlu əmirləri ilə Bağdadda yaşamışdır. Teymurilərin Bağdada hücumunu eşidib Şama getmişdir. Onun məqsədi vəziyyət düzələnə qədər Misir sultanı Fərəcin yanında sığınacaq tapmaq idi. Sultan Əhməd də onun ardınca Şama çatmışdır. Hadisələrin canlı şahidi Nizaməddin Şaminin salnaməsinə istinadən Əmir Teymur Misir sultanı Fərəcin yanına elçi göndərərək Qara Yusifin edam edilməsini, Sultan Əhmədin onun yanına göndərməsini əmr etmişdir. Salnaməçi Həsən bəy Rumlu da Əmir Teymurun Qara Yusif haqqında çıxartdığı ölüm hökmü barədə yazmışdır: "Əgər sultan bizim sevgimizə layiq isə, Qara Yusufi öldür-

sün və sultan Əhmədi də bağlayıb dünyanın sığındığı yer olan dərgahımıza göndərsin". Əmir Teymurun özü də xatirələrində Qara Yusifin adını dəfələrlə çəkmiş, onu Sultan Fərəcdən istəməsini, lakin rədd cavabı aldığını yazmışdır [16, 44-45].

XIV-XV əsrlərdə yaşamış milliyyətcə erməni Foma Metsopski Əmir Teymur tərəfindən "vəhşi heyvan kimi dağlarda ovlanan" ermənilərin Qara Yusifin qoçaqlığı, cəsarəti sayəsində xilas olmaqlarını etiraf etmişdir. Qohumu Hovhannesin "cüyür" kimi qaçaraq Qara Yusifdən kömək istəməsini, Baharlı tayfasının bu qüdrətli sərkərdəsinin erməniləri Əmir Teymurun qəzəbindən qoruyaraq onların qız-qadınlarının, uşaqlarının əsir düşmək təhlükəsindən xilas etməsini orta əsrlərdə yaşamış adı çəkilən erməni etiraf etmişdir.

Qara Yusif Azərbaycanın dövlətçilik tarixində öz sözünü demiş tarixi şəxsiyyətlərdən biridir. Tarixi salnamələrdə "güclü və əzəmətli əmr" adlandırılmış Qara Yusif görkəmcə hündürboy, sağlam, qüvvətli şəxs kimi təsvir edilmişdir. Qara Yusif təbiət etibarı ilə mərd, ürəkli, verdiyi sözə sadiq hökmdar kimi xatırlanmışdır. O, orta əsrlərə aid mənbələrdə düşmən ordusunun zəif cəhətlərini öyrəndikdən sonra hərbi əməliyyatlar aparmış təcrübəli, ağıllı sərkərdə kimi göstərilmişdir. Qara Yusif öz dövlətini qurduqdan sonra güclü ordu yaratmış, ölkədə quruculuq, abadlıq işləri aparmışdır. Tarixi qaynaqlara istinadən belə qənaətə gəlmək mümkündür ki, Qara Yusif Əmir Teymurun qorxduğu, ehtiyat etdiyi ağıllı dövlət adamı, təcrübəli sərkərdə idi. Qüdrətli hökmdar Qara Yusifin nə vaxtsa onun yaratdığı dövlətə problemlər yaradacağından qorxduğu üçün rəqibinin ölümünü istəmişdir. Onun İldırım Bəyaziddən, Sultan Fərəcdən Sultan Əhmədin onun yanına göndərməsini, Qara Yusifin edamını tələb etməsi təsadüfi deyildir. Əmir Teymur Sultan Əhmədin onun dövlətinə təhlükə olmadığını bildiyi üçün Cəlairi hökmdarını sağ-salamat istəmişdir. Hakimiyyəti boyu Sultan Əhmədi özünə rəqib hesab etməmiş hökmdar Qara Yusif haqqında belə düşünməmişdir. O, Qara Yusifin yolda igidliyi, qoçaqlığı sayəsində qaça biləcəyindən ehtiyat etdiyi üçün türk sultanlarından onun edamını tələb etmişdir. Ağıllı Əmir Teymur Qaraqoyunlu



dövlətinin qurucusu haqqında düşüncəsində yanılmamışdır. Qara Yusifi türk tarixində diqqəti çəkən şəxsiyyətlərdən biri hesab etmiş Faruq Sümər onun təcrübəli hərbçi olmasını yazmışdır. Müəllifin gəldiyi qənaətə görə, onun cəsarətinə, igidliyinə təkcə əsgərləri deyil, Cağataylar başda olmaqla bütün düşmənləri heyran idi.

Salnaməçi Həsən bəy Rumlu Qara Yusifin şəxsiyyətinə ehtiramla yanaşmış, onun hökmdarlıq fəaliyyətinə yüksək qiymət vermişdir. O, Qara Yusifin dövrü haqqında yazmışdır ki, Qara Yusif müharibə meydanında qan içən bir aslan, əyləncə məclisində isə cövhər saçan bir bulud idi. Ədalətli, mərhəmətli olması ilə tanınmış, əxlaqı ilə seçilmişdir. Zalımların düşməni olmuş, məzlumların rifahına çalışmışdır. Ölkəsində sabitliyi, əmin-amanlığı qorumuş, kənd təsərrüfatının inkişafına fikir vermişdir. Əsgərlərin maaş və ərzaqlarını vaxtlı-vaxtında vermişdir.

Münəccimbaşı Qara Yusifin comərd olduğunu və hətta ifrat dərəcədə comərdliyi üzündən xəzinəsində pul və mal toplanmadığını söyləmişdir [63, 115].

Misir sultanı Fərəc Əmir Teymurun tələbindən ehtiyat etdiyi üçün Şam naibinə Qara Yusiflə Sultan Əhmədin həbs edilməsi tapşırığını vermişdir. Qara Yusif bir neçə il Şamda həbsxana həyatı yaşamalı olmuşdur. Əbubəkr Tehraninin , Həsən bəy Rumlunun tarixi salnamələrinə istinadən Qara Yusif Şamda həbsxana həyatı yaşadığı zaman onun etibarlı adamlarından olmuş Pir Ömər bəy adlı birisi su satmaqla qazandığı pulu dolanmaq üçün Qara Yusif və onun ailəsinə xərcləmişdir. Qara Yusifin icazəsi ilə Şam naibinin yanında xidmət etmiş Pir Ömər bəy hökmdarını qaçırtmaq üçün onun arvadı ilə plan hazırlamışdır. Əbubəkr Tehrani Qara Yusifin arvadını qoçaq, qeyrətli, ərinə sədaqətli qadın kimi təsvir etmiş və onunla bağlı maraqlı bir hadisəni qələmə almışdır. Şam naibi Qara Yusifdə qiymətli ləlin olmasını eşitdiyi üçün həmin ləli ondan istəmişdir. Lakin ləl Qara Yusifin arvadında idi. Qara Yusifin arvadı ləli Şam naibinə vermək istəmədiyi üçün saçlarının arasında gizlətmişdir. O, ləlin yerini etibar etdiyi yaxın adamına demişdir. Qadın bildirmişdir ki, ləli almaqdan ötrü ona işgəncə verə bilərlər. Başına bir iş gəlsə ləli Qara Yusifə çatdırsın. Həyat yolda-

şının bu fədakarlığını qiymətləndirmiş Qara Yusif onun incidilməsinə razı olmamış, ləli Şam naibinə verməsini tapşırmışdır. O arvadına demişdir: "Rəva deyil ki, bir maldan ötrü belə əzaba düçar olaq. Gərək o, ləli onlara verək. Əgər mən salamat qalsam, intiqamımı alaram".

Qara Yusif Şamda yaşadığı dövrdə Sultan Əhməd də onun yanında idi. O, Əmir Teymurun ölüm xəbərini Şamda yaşadığı zaman eşitmişdir. Əmir Teymurun ölümündən sonra hökmranlıq iddiasında olan varisləri arasında baş vermiş daxili çəkişmələr qüdrətli Teymurilər dövlətini zəiflətmişdir. Teymurilərin zəifləməsindən istifadə etmiş Qara Yusif bir neçə döyüşdə onlara qələbə çalmışdır. Əsas həlledici döyüş 1408-ci ildə Təbriz yaxınlığında Səridurud adlanan ərazidə baş vermiş, Əmir Teymurun oğlu Miranşah öldürülmüşdür.

Qara Yusif Şamda yaşadığı illərdə Pirbudaq adlı oğlu dünyaya gəlmişdir. Əbubəkr Tehraninin, Həsən bəy Rumlunun tarixi salnamələrinə istinadən Pirbudaq Qara Yusifin Şamda həbsxana həyatı yaşadığı illərdə kitabın əvvəlində söhbət açdığımız fədakar, sədaqətli qadınından olan oğludur. Qara Yusiflə anlaşma bağlamış Sultan Əhməd Pirbudağı mənəvi övladlığa götürüb onu özünün qanuni varisi kimi tanımışdır. Həmin anlaşmaya görə, Qara Yusifin oğlu Pirbudaq Azərbaycanı, Sultan Əhməd İraqı idarə etməli idi. Lakin Əmir Teymurun ölümündən sonra verdiyi sözün üstündə durmayan Sultan Əhməd Qara Yusifə xəyanət etmiş, Şirvanşah I İbrahimin təhrikiylə Təbrizi tutmuşdur. Təbriz işğal olunan vaxt Qara Yusif Ərzincanda idi. O, geri qayıdaraq Sultan Əhmədi, onun köməyinə gəlmiş Şirvanşahın ordusunu məğlub etmişdir. Sultan Əhməd əsir düşmüşdür.

Qara Yusif təşkil etdiyi bir məclisdə Sultan Əhməddən hakimiyyətdən imtina etməsi barədə rəsmi iltizam almışdır. Sultan Əhmədin imzaladığı bu sənəd Cəlailər dövlətinin süqutu idi. Həmin sənədə görə, Sultan Əhmədin mənəvi oğlu kimi Pirbudaq Qaraqoyunlu hökmdarı olmuşdur. Bağdadın idarəsi Qara Yusifin böyük oğlu Şahməhəmməd bəyin ixtiyarına verilmişdir. Bu sənədi imzaladıqdan sonra Sultan Əhməd edam edilmişdir [20, 48].



Əmir Teymurun ölümündən sonra Qara Yusifin öz dövlətini qurmaq üçün ona maneə olacaq güclü rəqibi yox idi. Qara Yusifin 1410-cu ildə yaratdığı mərkəzi Təbriz şəhəri olmuş Qaraqoyunlu dövləti 58 il öz varlığını qoruyub saxlaya bilmişdir. Onun qurduğu dövlət Kür çayından Cənubi Azərbaycandan başqa Ərməniyyə, Qərbi İran, İraq, Kürdüstan, Gürcüstanın bir hissəsi və s. əraziləri də əhatə etdiyi üçün böyük imperiya sayıla bilər.

Kitabın əvvəlində deyildiyi kimi o, hakimiyyətin qanuni varisi kimi azyaşlı oğlu Pirbudağı Qaraqoyunlu hökmdarı elan etmişdir. Pirbudağın adına pul kəsdirmiş Qara Yusif hər yerdə xütbəni özünün deyil, oğlunun adına oxutmuşdur.

Qara Yusifin daha bir qələbəsi 1412-ci ildə Kür çayı sahilində baş vermişdir. O, Şirvanşah I İbrahimin, Kaxetiya çarı II Konstantinin birləşmiş qüvvələrini məğlub etmişdir. Qara Yusif Şirvan camaatının xahişi ilə əsir düşmüş I İbrahimi, onun oğlanlarını can vergisi ödəmək müqabilində bağışlamışdır. Lakin sonrakı illərdə I İbrahimin yerinə keçmiş oğlu I Xəlilullah hakimiyyəti dövründə Teymurilərin himayəsinə sığınaraq Qara Yusifə qarşı çıxmışdır.

Orta əsrlərə aid tarixi salnamələrə istinadən Teymuri hökmdarı Şahrux Mirzə hakimiyyəti boyu günü-gündən möhkəmlənmiş Qaraqoyunlu dövlətinin nüfuzunun artması ilə razılaşa bilməmiş, 1418-ci ildə iki minlik ordu ilə Azərbaycana ilk hücumunu etmişdir. Qələbə qazana bilməmiş Şahrux Mirzənin Azərbayacana ikinci yürüşü 1420-ci ildə baş vermişdir. Şahrux Mirzəni bu yürüşdə övladları Baysunqur Mirzə, Cuki Mirzə və əmirləri müşayət etmişdilər [38, 48].

Qara Yusif Teymuri hökmdarı Şahrux Mirzə ilə müharibə apardığı zaman Qara Yusif ağır xəstə idi. O, Təbriz yaxınlığında Ucan adlanan yerdə 13 noyabr 1420-ci ildə vəfat etmişdir [25, 19].

Qara Yusif altmış beş il yaşamışdır. Həsən bəy Rumlunun qələmə aldığı salnaməyə istinadən o, altmış beş illik ömründə on dörd il hakimiyyətdə olmuşdur. Salnaməçi Qara Yusifin hökmdarlıq tarixini 1406-cı ildən götürdüyü üçün onun hakimiyyət müddə-

tini on dörd il yazmışdır. Bu tarixdə Qara Yusif teymurilərlə ilk həlledici döyüşdə qələbə çalmışdır.

Qara Yusif hökmranlığı dövründə altı döyüşə başçılıq etmişdir. O, Təbriz yaxınlığında Şənbi-Qazan adlı yerdə Mirzə Əbubəkrlə, Təbriz yaxınlığında Səridurud adlı yerdə Mirzə Miranşah və Mirzə Əbubəkr ilə, Muş düzündə Ağqoyunlu Qara Yuluk Osmanla, Şənbi Qazanda Cəlairi Sultan Əhmədlə, Ərgan qalası yaxınlığında Qara Yuluk Osmanla, Şirvanşah I İbrahim və Kaxetiya çarı II Konstantinlə döyüşlər aparmışdır.

Qara Yusif vəfat edəndə Əmir Cəfər Hace və Ahi Əmir Şeyx onun vəzirləri idilər.

Qara Yusif dünyasını dəyişəndə beş övladı həyatda idi. Onun Pirbudaq adlı oğlu atasının sağlığında ikən 1418-ci ildə dünyasını dəyişmişdir. Qara Yusifin əmirəlüməratsı Əmir Qaraman hökmdarın sevimli qadınlarından Qədəm Paşa ilə birlikdə beş övladdan birini taxta çıxartmaq istəsələr də həmin vaxt onlar atalarının yanında olmamışdılar. Qara Yusifin qəfil ölüm xəbəri övladlarına çatanda Şahməhəmməd bəy Bağdadda, Qara İsgəndər Kərkütdə, İsfahan bəy Adilcevazda, Cahanşah bəy Sultaniyyədə, Əbusəid bəy Ərzincanda idilər. Qara Yusifin vəfatı xəbəri Qaraqoyunlu dövlətinin müstəqilliyini təhlükə qarşısında qoymuş, yerli əmirlərin şahzadələrə qarşı qiyamları baş vermişdir. Tahartenin nəvəsi Yarəli Ərzincanda yerli əhalinin köməyi ilə Əbusəid bəyi şəhərdən qovmuşdur. Sultaniyyənin hakimi Cahanşah bəy atasının ölüm xəbərini eşidib Bağdada qardaşı Şahməhəmməd bəyin yanına pənah aparmışdır. Lakin Cahanşah bəy qardaşından mehriban münasibət görmədiyi üçün hakimiyyət iddiasında olmuş digər qardaşı Qara İsgəndərin tərəfinə keçmişdir.

Qara Yusifin qohumu Əmir Nəsrinin oğlu Qazan Qaraqoyunlu xəzinəsini qarət edib Avnik qalasına qaçmışdır. Qaraqoyunlu hökmdarının qardaşı Yarəli bəyin oğlu Zeynal bəy qohumları ilə Ərbilə getməyə məcbur olmuşdur.

Qara Yusif dünyasını dəyişəndə ölkənin ayrı-ayrı vilayətlərinə başçılıq etmiş varisləri arasında hakimiyyət uğrunda mübarizə başlamışdır. Bu da sonrakı illərdə Qaraqoyunlu dövlətinin zəiflə-



məsinə gətirib çıxartmış, dövlətin siyasi nüfuzuna təsir etmişdir. Ölkə ərazisində aparılan müharibələr təsərrüfata ciddi ziyan vurmuş, paytaxt Təbriz dəfələrlə əldən ələ keçmişdir.

Qara Yusifin Pirbudaq bəy, Şahməhəmməd bəy, İsfahan bəy, Əbusəid bəy, Qara İsgəndər bəy, Cahanşah bəy adlı altı oğlu olmuşdur.

Qütbşahlar dövlətinin qurucusu Sultan Qulu Qütbşah (1512-1543), hökmdarları Cəmşid Qulu Qütbşah (1543-1550), İbrahim Qulu Qütbşah (1550-1580), I Məhəmməd Qulu Qütbşah (1580-1612), Sultan II Məhəmməd Qütbşah (1612-1625), Abdulla Qulu Qütbşah (1625-1672), ictimai-siyasi xadim Həyat Baxşı Bəyim (1585-1666), şairə Arayiş bəyim (XV əsr), şairə Şahsaray bəyim (XV əsr), Şiraz, Bağdad hakimi şair Pirbudaq bəy (XV əsr), şair, xəttat, musiqişünas Həsən bəy Şəkəroğlu (XVI əsr), şair Salim Təbrizi, Babur imperatorluğunun xanlar xanı, şair Bayram xan Baharlı (1504-1561), xanlar xanı, şair Mirzə Əbdürrəhim xan (1556-1627), Qurana şərh yazan, şairə Canan bəyim (...–1659), şair Mirzə Əbdülbaqi Təbrizi Nişa (...-1745), Qarabağ xanlığının vəziri, şair Mirzə Vəli bəy Baharlı (1725-1795), Mirzə Haşım bəy Baharlı (XVIII əsr), İbrahim bəy Baharlı (1763-1836), çar ordusunun zabiti, bir çox xalq qəhrəmanlarını, günahsız insanları azğınlaşmış rus və erməni xainlərinin əlindən xilas etmiş Mirzə İsmayıl bəy Vəliyev (Baharlı) (1798-1863), ictimai xadim, tərcüməçi Mirzə Məhəmmədhəsən bəy Vəliyev (1822-1882/83), tacir Məşədi Əsədulla bəy Vəliyev (1807-...), şair, tərcüməçi, publisist Məhəmmədəli bəy Vəlizadə (Məxfi) (1831-1891), şair Abdulla bəy Vəlizadə (1841-1912), Qarabağın ictimai-mədəni həyatında yaxından iştirak etmiş, tacir Mirzə Abbas bəy Vəliyev (1843-1927/28), İsmayıl bəy Vəlibəyov (1862-1917), şair, tərcüməçi, həvəskar aktyor Nəcəfqulu bəy Vəliyev (Şeyda) (1858-1937), aktyor, rejissor Əbülfət bəy Vəli (1874-1918), 1937-ci ildə qətlə yetirilmiş görkəmli dövlət xadimi, ensiklopedik alim Məhəmmədhəsən bəy Vəliyev (Baharlı) (1896-1937), Ağdamın I Baharlı kəndində yeni tipli məktəbin əsasını qoymuş, 1937-ci il repressiya qurbanı Cabbar bəy Vəlibəyov (Baharlı) (1893-1941), Sovet hökumətinə qarşı

döyüşdüyü üçün uzun illər sürgün həyatı yaşamış Əliş bəy Vəliyev (1876-1963), respublikanın əməkdar müəllim Vəli Vəlizadə (1911-1983), milli fəlsəfi irsimizin əvəzolunmaz tədqiqatçısı, AMEA-nın müxbir üzvü, fəlsəfə elmləri doktoru, professor Zakir Məmmədov (Baharlı) (1936-2003), coğrafiya elmləri doktoru, professor Xostan Vəliyev (1932-2008) və başqaları Qara Yusifin layiqli xələflərindəndirlər. Qara Yusifin nəslindən olan tanınmış yazıçı-jurnalist Məhəmməd Baharlı, coğrafiya elmləri doktoru, professor Zahid Məmmədov, iqtisad elmləri namizədi Çingiz Vəlizadə hazırda Azərbaycanın sayılan ziyalılarındandır.

Pirbudaq Qara Yusifin böyük oğludur. O, 1403-cü ildə Şamda dünyaya gəlmişdir. Cəlairi hökmdarı Sultan Əhməd Pirbudağı oğulluğa götürdüyü üçün Qara Yusif onu Qaraqoyunlu hökmdarı elan etmişdir. Faktiki olaraq Qaraqoyunlu dövlətinin ilk hökmdarı Pirbudaq sayılır. Pirbudaq atasının sağlığında, 1418-ci ildə vəfat etmişdir.

Şahməhəmməd bəy Qara Yusifin ikinci oğludur. O, Qara Yusifin əmri ilə 1411-ci ildə İraqın, Bağdadın hakimi olmuşdur. Teymuri hökmdarı Şahrux Mirzənin Azərbaycana hücumu zamanı Şahməhəmməd bəy atasına köməkdən imtina etmiş, ona qarşı çıxmışdır. Şahməhəmməd bəy iyirmi iki il Bağdadda hakimlik etmişdir. O, İsfahan bəyə məğlub olmuş, 1433-cü ildə Bağdad hakimliyi qardaşının əlinə keçmişdir. Şahməhəmməd bəy 1433-cü ilin avqust ayının 5-də Həmədan hakimi Baba Hacı Hüseyn tərəfindən Şeykanda öldürülmüşdür.

Şahməhəmməd bəyin Şahəli bəy adlı oğlu olmuşdur.

İsfahan bəy Qara Yusifin üçüncü oğludur. O, atasının sağlığında Adilcəvazda hakimlik etmişdir. İsfahan bəy atasının vəfatından sonra Sədlu tayfasının köməyi ilə Bəyazid qalasını və orada saxlanılan xəzinəni ələ keçirmiş, hakimiyyətə sahib olmaq istəmişdir. O, Bağdadı qardaşı Şahməhəmməd bəydən aldıqdan sonra on iki il İraqa hökmranlıq etmişdir. İsfahan bəyin hakimiyyəti dövründə 1436-cı ildə Bağdadda şiə və sünni məzhəblərinə mənsub alimlərin diskusiyası keçirilmişdir. Diskusiya şiə məzhəbinə mənsub alimlərin qələbəsi ilə başa çatdığı üçün İsfahan bəy Bağdad və



ətraf ərazilərdə on iki imamın şərəfinə xütbə oxutdurmuşdur. İsfahan bəy 1445-ci ilin mart ayının 8-də vəfat etmişdir.

Onun Fulad bəy və Kor Məzid bəy adlı iki oğlu olmuşdur. Kor Məzid bəy atasının vəfatından sonra (1445-1447) Bağdada hakimlik etmişdir.

Əbusəid Qara Yusifin dördüncü oğludur. O, atasının sağlığında Ərzincan hakimi idi. Tarixi mənbələrdə Əbusəid zəif iradəli, əqli cəhətdən sağlam olmayan şəxs kimi xatırlanır. Şahrux Mirzə Azərbaycanı işğal etdikdən sonra o, Teymurilərin vassalı kimi 1429-1431 illərdə Qaraqoyunlu hökmdarı olmuşdur.

Əbusəid 1431-ci ildə qardaşı Qara İsgəndər tərəfindən öldürülmüşdür.

Qara İsgəndər Qara Yusifin beşinci oğludur. Qara Yusifin hakimiyyət iddiasında olmuş övladları sırasında Qara İsgəndər də var idi. Orta əsrlərə aid mənbələrdə Qara İsgəndər "şücaətli, cəsur igid" adlandırılır. Qara İsgəndər atasının ölüm xəbərini eşidəndə Mardində idi. Mardində saxlanılan Qaraqoyunlu xəzinəsinə sahib olduqdan sonra o, hakimiyyətə gəlmək istəmişdir. Qara İsgəndər Teymuri hökmdarı Şahrux Mirzənin Təbrizə hücumunun qarşısını almaq üçün Qaraqoyunlu əmirlərini öz hakimiyyəti altında birləşdirməyə çalışmışdır.

Qara İsgəndərin güclü rəqiblərindən biri də Ağqoyunlu Qara Yuluk Osman idi. Qara İsgəndərin Şahrux Mirzə ilə döyüşündən əvvəl Qara Yuluk Osmanla döyüşü olmuşdur. Qara İsgəndərin əmisi Yarəli bəyin oğlu Zeynal bəy Mosuldan, Qara Yusifin qardaşı oğlu Mirzə Əli bəy Erbildən, Cenklu Hasan Kərkükdən, Əmir Şəmsəddin üç min döyüşçü ilə Cizrədən onun köməyinə gəlmişdilər [62, 134].

Qaraqoyunlularla ağqoyunlular arasında iyirmi gün davam etmiş döyüşdə hər iki tərəf böyük itki vermişdir. Döyüş zamanı Qara İsgəndər Qara Yuluk Osmanı yəhərin üstündən yerə salmış, yaralanmış Ağqoyunlu başçısını ata mindirmək istəyənlərə mane olmuşdur. Lakin oğlu Əli bəy atasının köməyinə gələrək onu döyüş meydanından çıxara bilmişdir. Qara Yuluk Osmanın adamlarından

İnək Xəlilin oğlu Məmməd, Yaxşı Bəy oğlu, Xızır bəy, Qara Məmməd, Həsən Əlaəddin əsir düşmüşdülər [62, 135].

Qara İsgəndər Qara Yuluk Osmana qalib gəldikdən sonra teymurilərlə döyüşmüşdür.

Tarixi qaynaqlara istinadən Qara İsgəndərin Şahrux Mirzə ilə ilk döyüşü 1421-ci ilin yayında Təbriz yaxınlığında Aləşkərt çölündə baş vermişdir. Teymuri ordusunun sayca üstünlük təşkil etdiyi bu döyüşdə saysız-hesabsız fillərdən istifadə olunmuşdur. Onun qardaşları İsfahan bəyin, Cahanşah bəyin iştirak etdiyi döyüş iki gün davam etmişdir. Qara Yusifin övladlarının qəhrəmanlıqlar göstərməsinə baxmayaraq qüvvələr qeyri-bərabər olduğu üçün qaraqoyunlular məğlub edilmişdilər. Tarixi salnamələrə görə, Qara Yusifin zamanında Osmanlı sultanı II Muradla Qaraqoyunlu dövlətinin dostluq münasibəti var idi. Qara İsgəndər atası kimi Osmanlıları özünə dost bildiyi üçün şəraitə uyğun olaraq Anadoluya getmişdir.

Bu dostluğa görə, Qara İsgəndər çıxış yolu kimi Anadoluya getməyə məcbur olmuşdur.

Professor Cəfər İbrahimovun fikrincə, Şahrux Mirzənin Azərbaycanda yeritdiyi siyasət atası Teymurun siyasətindən fərqli idi. O, qaraqoyunluları, ağqoyunluları, şirvanşahları özündən uzaqlaşdırmaq istəmədiyi, Azərbaycanda qoşun saxlamağa imkanı olmadığı üçün siyasəti yalnız yerli hakimləri itaətdə saxlamaq idi. Buna görə də Azərbaycanı öz ölkəsinin tərkibinə qatmaq istəməmişdir.

Salnaməçi Əbubəkr Tehraninin tarixi salnaməsinə görə, Şahrux Mirzə Azərbaycanda müəyyən üstünlük qazandıqdan sonra ölkənin idarəsini Ağqoyunlu Əli bəyə həvalə edib Herata getmişdir. Təbriz əhalisi Qaraqoyunlulara rəğbət bəslədiyi üçün Əli bəy Təbrizdə bir neçə gündən artıq qala bilməmiş, hakimiyyətə Qara İsgəndərin qardaşı İsfahan bəy keçmişdir.

İsfahan bəy Təbrizdə taxt-taca sahib olanda Qara İsgəndər Tauk və Kərkükdə idi. Hakimiyyətin İsfahan bəyin əlinə keçdiyini eşitmiş Qara İsgəndər Təbrizə hərəkət etmişdir. İsfahan bəy qardaşının Təbrizə yaxınlaşmasını eşitdikdən sonra Ərzurumun 48 km.-də yerləşmiş Avnik qalasına qaçmışdır [62, 145-146].










İsfahan bəy paytaxt Təbrizdən qaçdıqdan sonra Qaraqoyunlu taxtına Qara İsgəndər sahib olmuşdur. Qara İsgəndər dağınıq Qaraqoyunlu qüvvələrini öz hakimiyyəti altında birləşdirmiş, Təbrizdə möhkəmlənmişdir. Orta əsrlərə aid tarixi qaynaqlara əsasən Şahrux Mirzənin Azərbaycana ikinci hücumu 1429-cu ildə baş vermişdir. Bu yürüşə səbəb Qara İsgəndərin Qaraqoyunlu dövlətinin əvvəlki qüdrətini bərpa etmək üçün hərbi əməliyyatlara başlaması idi.

Qara İsgəndərlə Şahrux Mirzə arasında 17 sentyabr 1429-cu ildə Səlmas yaxınlığında Zahir kəndində döyüş olmuşdur. İki gün davam etmiş döyüş Qara İsgəndərin məğlubiyyəti ilə nəticələnmiş, o, yenidən Anadoluya getməyə məcbur olmuşdur.

Azərbaycanı işğal etmiş Şahrux Mirzə onun yerinə qardaşı Əbu Səidi taxta çıxartmışdır.

Şahrux Mirzənin köməyi ilə 1429-cu ildə taxta çıxmış Əbu Səid onun vassalı kimi Azərbaycanın cənubunda, Qarabağda, Ərməniyyədə hökmranlıq etməli idi. Şahrux Mirzə 1430-cu ilin mayında Azərbaycanı tərk edib, həmin ilin sentyabrında Xorasandan Herata qayıtmışdır. Xalq kütləsinin Əbu Səidə qarşı olmasından istifadə etmiş Qara İsgəndər Qaraqoyunlu əmirlərinin köməyi ilə 1431-ci ildə öz hakimiyyətini ikinci dəfə bərpa edə bilmişdir. Əbu Səid qətlə yetirilmişdir.

Qara İsgəndər hakimiyyəti dövründə Qara Yusifin siyasətini davam etdirməyə çalışmış, lakin atası kimi qüdrətli hökmdar ola bilməmişdir. Onun hökmranlığı illərində teymurilərin davamlı hücumları, feodal çəkişmələri nəticəsində mərkəzi hakimiyyət möhkəm olmamışdır. Qara İsgəndərin möhkəm dövlət yarada bilməməsinin başlıca səbəbi qardaşlar arasında hakimiyyət iddiaları, bir-birilərinə inamsızlıq idi. Qaraqoyunlu şahzadələri arasında birlik olmadığından dövlətin ərazisi müharibə meydanına çevrilmiş, hakimiyyət əldən-ələ keçmişdir. Lakin Qara İsgəndər hakimiyyətinin müəyyən dövründə müstəqilliyi təhlükəsi qarşısında qalmış Qaraqoyunlu dövlətini parçalanmaqdan xilas edə bilmişdir. O, qardaşlarından fərqli olaraq teymurilərin vassallığını qəbul etmədən hökmranlıq etmək istəmişdir. Qaraqoyunluların müstəqilliyini qə-

bul etməyən teymurilər bu üzdən Qara Yusifin siyasətinin davam etdirən Qara İsgəndərin hökmranlığına qarşı çıxmışdılar. Orta əsrlərə aid salnamələrdə Qara İsgəndərin şəxsiyyətinə hörmətlə yanaşılır, cəsarətli, iradəli hökmdar kimi xatırlanır. O, tarixi qaynaqlarda atasından fərqli olaraq siyasi şəraiti əksər vəziyyətdə düzgün qiymətləndirməyi bacarmayan hökmdar kimi təqdim edilir. Professor Cəfər İbrahimovun tədqiqatlarına istinadən Qara İsgəndərin hökmranlığı üçün xarakterik cəhət mühüm tədbirlər üzərində ciddi fikirləşmədən qərar çıxartması idi.

Müharibələr, feodal çəkişmələri təsərrüfat həyatını məhv etmiş, ölkəni iflic vəziyyətinə gətirmişdir. Ölkənin hər bir əyalətində mərkəzi hakimiyyətə qarşı narazılıqlar yarandığı üçün tez-tez xalq kütlələrinin üsyanları baş vermişdir. Van əyalətində 1428-ci ildə baş vermiş kəndli hərəkatına Qara İsgəndərin oğlu Yarəli bəy başçılıq etmişdir. Qara İsgəndər üsyanı yatırtdıqdan sonra Yarəli bəy iki min atlı dəstəsi ilə Şirvana qaçmışdır. Şirvanşah I Xəlilullah Yarəli bəyin üsyankarlığından ehtiyat edərək onu Herata Şahrux Mirzənin yanına yola salmışdır. Şahrux Mirzə Yarəli bəyi hörmətlə qarşılamış, bir müddət yanında sarayda saxlamışdır. Lakin Teymuri hökmdarı onun xalq arasında geniş nüfuza malik olmasından qorxub Yarəli bəyi Heratdan Səmərqəndə göndərmişdir [62, 203].

Orta əsrlərə aid tarixi qaynaqlara istinadən deyə bilərik ki, Şahrux Mirzə Yarəli bəyə münasibətdə yanılmamışdır. Yarəli bəy sonralar Şahrux Mirzənin oğlu Uluq bəyin (1447-1449) hakimiyyəti illərində Xorasana qayıdıb baş vermiş hərakata rəhbərlik etmişdir. O, 1448-ci ildə Teymuri Babur Mirzə tərəfindən qətlə yetirilmişdir [62, 279]. Bəzi tarixi mənbələrdə Yarəli bəyin şəxsiyyətinə hörmətlə yanaşılmış, xalqa heç bir zərəri toxunmayan insan kimi xatırlanmışdır.

Qaraqoyunlu hökmdarı oğlu Yarəli bəyi istəmək bəhanəsi ilə Şirvana hücum etmiş, Dərbəndədək Şirvanın şəhər və kəndlərini tutmuşdur. Siyasi hadisələrin canlı şahidi Əbubəkr Tehraninin tarixi salnaməsinə görə, Qara İsgəndərin hücumu qarşısında aciz qalmış Şirvanşah I Xəlilullah kömək üçün Şahrux Mirzəyə, Ağqoyunlu Qara Yuluk Osmana müraciət etmişdir. Şirvanşah I Xəlilullaha



köməyə gəlmiş Şahrux Mirzənin ordusu 1435-ci ildə Təbriz yaxınlığında Qara İsgəndəri məğlub etmiş, o, yenidən Anadoluya getməyə məcbur olmuşdur.

Tarixi salnamələrə əsasən, Şahrux Mirzə Təbrizi tutduqdan sonra Qara İsgəndərin kiçik qardaşı Cahanşahı Qaraqoyunlu hökmdarı kimi tanımışdır [25, 20].

Şahrux Mirzə Azərbaycanı tərk etdikdən sonra hakimiyyətinin itirilməsi ilə razılaşmayan Qara İsgəndər Anadoludan qayıdıb Təbrizi tutmuş, Cahanşaha qarşı hərbi əməliyyata hazırlaşmışdır. Lakin Qaraqoyunlu əmirləri Qara İsgəndərə xəyanət edərək ondan üz döndərmiş, Cahanşahın tərəfinə keçmişdilər. Piri bəy Qaramanlı artıq Cahanşahın tərəfində idi [38, 78]. Mərənd yaxınlığında Sufiyan adlanan ərazidə iki qardaş arasında baş vermiş döyüşdə Qara İsgəndər məğlub edilmiş, Əlincə qalasına sığınmağa məcbur olmuşdur. Onun xəzinəsi, ailəsinin bəzi üzvləri Əlincə qalasında idi. Cahanşah Əlincə qalasını mühasirəyə almışdır [25, 20; 38,78]. O, Əlincə qalasını mühasirədə saxladığı ərəfədə Qara İsgəndər gözlənilməz bir şəkildə 20 aprel 1438-ci ildə gecə yatdığı yerdə qətlə yetirilmişdir. Onun qatili oğlu Şahqubad bəy idi [25, 20]. Şahqubad bəy atasını öldürdükdən sonra onun ölüm xəbərini əmisi Cahanşaha çatdırmışdır. Cahanşah Qara İsgəndərin ölümünə inanmadığı üçün hökmdarın yaxın əmiri Həlavərin başını kəsib ona göndərməsini qardaşı oğlundan tələb etmişdir. Şahqubad bəy əmisinin bu əmrini yerinə yetirmiş Həlavəri öldürmüş, başını Cahanşaha göndərmişdir. Cahanşah bundan sonra Şahqubad bəyə inanmış, qardaşı oğlu ilə bağladığı şərtə uyğun olaraq xəzinənin yarısını, Avnik qalasını və Pasin vilayətini ona bağışlamışdır [38, 94].

Cahanşah qardaşı ilə düşmən olmasına baxmayaraq o, Qara İsgəndəri təntənə ilə Təbriz yaxınlığında Vəlyankuhda yerləşən Əxi Sədəddin qülləsində dəfn etmişdir. Lakin bir müddətdən sonra Cahanşah Şahqubad bəyi cəzalandırmışdır [25, 20].

Qara İsgəndərin Əlvənd bəy, Yarəli bəy, Şahqubad bəy, Həmzə bəy, Hüseynəli bəy adlı oğlanları, Arayiş bəyim, Şahsaray bəyim, Şahpəri bəyim adlı qızları olmuşdur.

Cahanşah Qara Yusifin altıncı oğludur. O, 1405-ci ildə Mardində dünyaya gəlmişdir. O, savadlı olması ilə atasından və qardaşlarından seçilmişdir. Qara Yusifin sağlığında ikən Sultaniyyə hakimi olmuş, atasının vəfatından sonra qardaşı Qara İsgəndərin müttəfiqi kimi Teymurilərə qarşı bir neçə döyüşdə iştirak etmişdir. Qara İsgəndərlə münasibətləri pozulmuş Cahanşah Şahrux Mirzənin köməyi ilə 1437-ci ildə Teymurilərin vassalı kimi Təbrizdə Qaraqoyunlu hökmdarı elan edilmişdir. Qaraqoyunlu dövlətinin tarixində ən uzunömürlü hakimiyyət Cahanşahın adı ilə bağlıdır. O, 29 il Qaraqoyunlu dövlətinə hökmranlıq etmişdir.

Cahanşah hakimiyyəti illərində mərkəzi hakimiyyətə tabe olmaq istəməyən köçəri-hərbi əyanlara qarşı uzun müddət mübarizə aparmış, Qaraqoyunlu dövlətinin möhkəmlənməsinə nail ola bilmişdir.

Şahrux Mirzənin 1447-ci ildə ölümündən sonra o, Teymurilərin asılılığından imtina etmiş, hakimiyyətinin möhkəmlənməsində oturaq feodallara və iri tacirlərə arxalanmışdır. Cahanşah Şirvanşahlar dövləti ilə münasibətləri qaydaya sala bilmişdir. Lakin onun qərbdə başlıca rəqibi Ağqoyunlular idi.

Cahanşah ölkəsinin ərazisini genişləndirmək məqsədilə hərbi yürüşlər etmiş, islahatlar aparmış, orduda nizam-intizam yaratmışdır. Şahrux Mirzənin vassalı olduğu dövrdə o, 1440-cı ildə Gürcüstana hücum etmiş, Şamsvild qalasını tutmuşdur. Bu yürüşdə Səfəvilər sülaləsindən olmuş Ərdəbil hakimi Şeyxşah da iştirak etmişdir.

Cahanşahın qardaşı İsfahan bəy 1445-ci ildə vəfat etdikdən sonra yerinə oğlu Kor Məzid keçmişdir. O, Bağdadda olan Qaraqoyunlu əmirlərinin köməyi ilə şəhəri tutmuş, Kor Məzid qaçmağa məcbur olmuşdur. Cahanşah azyaşlı oğlu Məhəmmədi Mirzəni Bağdada hakim təyin etdikdən sonra şəhərin idarəsini onun qəyyumu Kibr Abdullaya tapşırmışdır. Qara İsgəndərin oğlu Əlvənd bəyi isə Mosula hakim təyin etmişdir [38,107].

1447-ci ildə Cahanşaha qarşı qiyam qaldırmış Əlvənd bəy Ərbili tutmuşdur. Qaraqoyunlu hökmdarının əmri ilə Əmir Rüstəm Tərxanın başçılığı altında qoşun Əlvənd bəyi məğlub etmiş, o,



Ağqoyunlu Cahangir Mirzənin yanına qaçmışdır. Cahanşah qardaşı oğlunu tələb etdikdə Cahangir Mirzənin cavabı belə olmuşdur: "O, bizə pənah gətirib, onu sizə vermək insafsızlıq olar" [38, 108].

Əlvənd bəy sonrakı illərdə Cahanşahın oğlu Pirbudaq bəylə döyüşdə qətlə yetirilmişdir.

Cahanşahın əmirlərindən olmuş Əlişəkər bəy Baharlı 1447-ci ildə Şahrux Mirzənin sarayına hədiyyə apararkən Sultaniyyə şəhərində Teymuri hökmdarının ölüm xəbərini eşitmiş, vəziyyətə uyğun olaraq Sultaniyyənin şəhər hakimini qovub şəhərdə möhkəmlənmişdir [38, 158; 62, 273].

Cahanşah Şahrux Mirzənin ölümündən sonra Teymuri şahzadələri arasında hakimiyyət uğrunda gedən mübarizədə müstəqil siyasət yürüdərək öz ölkəsinin ərazisini genişləndirmək üçün hərbi səfərlərə başlamışdır. Hakimiyyəti boyu siyası şəraiti düzgün qiymətləndirməyi bacarmış Cahanşah Həmədan, Qəzvin və Dərgəzin Qum vilayətinə qədər olan ərazini tutmuş, Qumu mühasirəyə almışdır. Şahrux Mirzənin nəvəsi Məhəmməd Mirzə özünün sayılıb-seçilən əmirlərini, o cümlədən Əmir İmaməddin Vərzəni şəhər hakimi Məlikşah Qaziyə köməyə göndərmişdir. Lakin məsələnin dinc yolla həll edilməsinin tərəfdarı olmuş Məhəmməd Mirzənin nənəsi Gövhərşad bəyim nəvəsinin divan əmirlərindən olmuş Mövlana Yaqubu məktubla Cahanşahın yanına göndərib ona sülh təklifi etmişdir. Gövhərşad bəyim Şahrux Mirzənin zamanında Cahanşaha "oğlum" deyə müraciət edərmiş. Cahanşah onun köməyi ilə Qaraqoyunlu hökmdarı ola bilmişdir [38, 158-159].

Kitabın əvvəlində qeyd olunduğu kimi, Gövhərşad bəyim Qara Məhəmmədin qızı, Qara Yusifin bacısı, Cahanşahın bibisidir. Qara Məhəmməd Teymurla dostluq münasibətləri yaratmaq məqsədilə qızı Gövhərşad bəyimi onun oğlu Şahrux Mirzəyə ərə vermişdir. Gövhərşad bəyim Şahrux Mirzənin hakimiyyəti illərində Teymurilər dövlətinin ictimai-siyasi, mədəni həyatında əhəmiyyətli rol oynamışdır.

Cahanşah bibisinin sülh təklifindən boyun qaçıra bilməmişdir. Cərbaderan yaxınlığındakı Kəmrə əyalətində sülh bağlanmışdır. Sultaniyyə, Qəzvin və Həmədan Cahanşahın hakimiyyəti altına

keçmişdir. O, Əlişəkər bəy Baharlını Həmədan, Əmir Şahsuvar Bayramini Sultaniyyə, Qılıc Aslan bəyi Qəzvin hakimi təyin etmişdir [38, 159; 62, 276].

Qaraqoyunlularla Teymurilər arasında müharibələr davam etməkdə idi. Cahanşah əvvəlcə Qərbi İranı, bir qədər sonra isə Şərqi İranın bir hissəsini tuta bilmişdir. Bütün Xorasan torpaqlarına sahib olmuş Cahanşah 1458-ci ildə Teymurilər dövlətinin paytaxtı Herat şəhərini tutmuşdur. Hakimiyyətə gəlməyə çalışmış Şahrux Mirzənin oğlu İbrahim Mirzəni 1457-ci ildə məğlub etmiş, Cürcana və Xorasana sahib olmuşdur. Bu zaman Teymuri şahzadələrinə qalib gələrək hakimiyyətə keçmiş Miranşahın nəvəsi Əbu Səid Cahanşahın yanına elçisini göndərərək onu danışığa dəvət etmişdir. Cahanşah ölkəsində baş vermiş vəziyyətlə əlaqədar Əbu Səidin bu təklifini qəbul etməyə məcbur olmuşdur. Heratın Zağan bağında (Qarğalar bağında) Cahanşahla Əbu Səid arasında saziş imzalanmışdır. Bu sazişə əsasən Qaraqoyunlu qüvvələri İranın şərq torpaqlarından – Xorasandan çəkilmişdir. Cahanşah Heratda səkkiz ay qaldıqdan sonra müəyyən təzminatla Azərbaycana qayıtmışdır [21, 62].

Cahanşahın ordusunun əsas hissəsi hərbi səfərdə olduğu zaman Həsənəli bəy və Pirbudaq bəy adlı övladları atalarına qarşı qiyam qaldırmışdır.

Cahanşah Heratda olarkən Həsənəli bəy yerli əyanların xəyanəti nəticəsində Təbrizdə hakimiyyəti ələ keçirmiş, sarayın xəzinəsini dağıtmışdır. Cahanşah sülh bağladıqdan sonra tələsik geri qayıtmış və gəlib Reyə çatmışdır. O, ağqoyunlularla döyüşdə əsir düşmüş Əlişəkər bəy Baharlının oğlu Pirəli bəyi azad etmişdir. Qaraqoyunlu hökmdarına xəyanət etmiş Əmir Qılıc Aslan, Əmir Ərəbşah, Mahmud bəy adlı əmirlər Cahanşahın geri qayıtmasından qorxduqları üçün Həsənəli bəydən üz döndərmişdilər. Həsənəli bəy Qaraqoyunlu ordusunun Təbrizə yaxınlaşmasını, Qılıc Aslanın, Əmir Ərəbşahın ondan üz döndərməsini eşitdikdən sonra paytaxtdan qaçmışdır. Qaraqoyunlu ordusu Təbrizi tutmuşdur. Həsənəli bəy Cahanşahın Azərbaycanda olmadığına əmin olduqdan sonra Həsunoğlunun başçılığı altında bir dəstəni Təbrizə göndərmişdir.



Qaraqoyunlu əmirləri Təbriz yaxınlığında Acıçay sahilində qiyamçıları məğlub etmiş, Həsunoğlu öldürülmüşdür. Həsənəli bəy ordusunun məğlub olmasını eşitdikdən sonra Maku qalasında gizlənmişdir [38, 191-192; 62, 388].

Təbrizə qayıtdıqdan sonra Cahanşah yenidən Əmir Ərəbşahı divan əmiri təyin etmişdir. Həmin vaxt Əmir Bistam vəfat etdiyinə görə yerinə qardaşı Əmir Əbülfət keçmişdir. Əmir Pirzad Buxari və Solan bəy də divan əmiri idilər [38, 191-192; 62, 288].

Cahanşah ona xəyanət etmiş Qaraqoyunlu əmirlərini edam etdikdən sonra Həsənəli bəydən vəziri Xacə Şəmsəddin Hüseynin və xəyanətkarların qətlə yetirməsini, başlarını ona göndərməsini istəmişdir. O, əmrinin yerinə yetiriləcəyi təqdirdə Həsənəli bəyi bağışlayacağına söz vermişdir. Həsənəli bəy atasının qəzəbindən qurtulmaq üçün vəzirini və əmirlərini edam etmiş, başlarını atasına göndərmişdir [38, 192]. Cahanşah Həsənəli bəyi bağışlayacağına söz versə də məqsədi onu Təbrizə gətirib qətlə yetirmək idi [25, 21]. Həsənəli bəy atasının qəzəbindən ehtiyat etdiyi üçün bacısının müşayəti ilə onun yanına gəlmək istəmişdir. Cahanşahın tapşırığına görə bacılarından birinin müşayəti ilə Həsənəli bəyi Səhənd yaylağında Qaraqoyunlu əmirləri qarşılamışdır. O, boynunda kəndir atasının hüzuruna gəlmiş, qarşısında diz çökərək bağışlanmasını xahiş etmişdir. Cahanşah Həsənəli bəyə onu bağışladığını desə də, ertəsi gün təşkil etdiyi ovda oğlunun dəstəsini mühasirəyə almış, tutulmasını əmr etmişdir. Əmir Əbülfət bəyin, Pir Məhəmməd Təvaçinin, Pirzad bəyin və başqa əmirlərin hərəkətlərindən şübhələnmiş Həsənəli bəy ata minib hökmdarın yanına çapmışdır. Pir Məhəmməd Təvaçinin atdığı ox onu yaralamışdır. Həsənəli bəy ölümdən xilas olmaq üçün atasının hərəmxanasına qaçmış, Cahanşahın arvadı Bəyimdən kömək istəmişdir [38, 192]. Bəyimin sayəsində Həsənəli bəy sağ qalmış, lakin ölkədən qovulmuşdur [25, 21].

Cahanşahın arvadı Bəyim ərinin hökmranlığı illərində Qaraqoyunlu dövlətinin ictimai-siyasi, mədəni həyatında aparıcı rol oynamışdır. Xeyriyyəçi kimi tanınmış Bəyim ölkənin quruculuq həyatında iştirak etmiş, tikinti işlərinə xüsusi fikir vermişdir. Müzəffəriyyə məscidinin tikintisi onun adı ilə bağlıdır.






Cahanşaha qarşı qiyam qaldırmış övladlarından biri də Pirbudaq bəy idi [25, 21]. Pirbudaq bəy Şirazda atasına üsyan qaldıranda Cahanşah İsfahanda idi. Qışı İsfahanda keçirmiş Cahanşah yazda Şiraza hərəkət etmişdir. Cahanşah İzədxast qalasını mühasirəyə alanda Pirbudaq bəyin darğası ona müqavimət göstərmişdir. Lakin üç gündən sonra qiyamçılar təslim olmağa məcbur olmuş, bağışlanmalarını hökmdardan xahiş etmişdilər [38, 193].

Lakin Pirbudaq bəy atasının təslim olmaq əmrinə rədd cavabı vermiş, Əlişəkər bəyin oğlu Məhəmməd bəyi, Rüstəm Tərxanın oğlu Tərxanı, Şadi bəyi təqribən min beş yüz nəfər döyüşçü ilə onun üzərinə göndərmişdir. Ucanda düşərgə salmış Cahanşah Əlişəkər bəy Baharlı, Əmir Şahəli, Əmir Əbülfət Bistami, Qasım Pərvanəçi adlı Qaraqoyunlu əmirlərinin başçılığı altında beş min nəfərlik ordunu onların qarşısına çıxartmışdır. Cahanşahın oğlu Məhəmmədi Mirzə də bu döyüşdə iştirak etmişdir. Baş vermiş döyüş Pirbudaq bəyin ordusunun məğlubiyyəti ilə nəticələnmişdir. Tərxan döyüşü yarımçıq qoyub qaçmış, Məhəmməd bəy, Şadi bəy üç yüz nəfər döyüşçü ilə əsir düşmüşdür. Məhəmməd bəy və Şadi bəy Əlişəkər bəyin sayəsində sağ qala bilsələr də üç yüz nəfər döyüşçünün boynu axşam çağı Pir Məhəmməd bəy Təvaçi tərəfindən vurulmuşdur. Məhəmməd bəy və Şadi bəy Pirbudaq bəyin yanına göndərilmişdir [38, 195].

Orta əsrlərə aid mənbələrdən aydın olur ki, Cahanşahla Pirbudaq bəy arasında baş vermiş döyüşdə ata oğlu ilə, qardaş qardaşla, əmi oğlu əmisi oğlu ilə, bir sözlə qohum qohumla döyüşmüş, qan su yerinə axmışdır.

Pirbudaq bəyin ordusunda döyüşmüş Şadi bəyin oğlu İbrahimşah bəy döyüşlərdən bezdiyi üçün şəhərin müdafiəsini başsız qoyaraq Cahanşahın düşərgəsinə qaçmışdır. İbrahimşah bəyin Pirbudaq bəyin yanından ayrılması Cahanşahın Şirazı tutmasını sürətləndirmişdir. Pirbudaq bəy qələbə çala bilməyəcəyinə əmin olduqdan sonra anasını atasının yanına göndərərək bağışlanmasını xahiş etmişdir [38, 195]. Cahanşahın əmri ilə Pirbudaq bəy 1461-ci ildə ilə Bağdada göndərilmişdir [25, 21].

Cahanşah qiyamı yatırtdıqdan sonra, oğlanları Əbuyusif Mirzəni Şiraza, Əbülqasım bəyi Kirmana hakimi təyin etmişdir [38, 196].

Əbuyusif Mirzə Şiraza hakim təyin olunduqdan sonra onun üçün beş min tümən gəlir müəyyən edilmişdir [38, 196]. Tarixi qaynaqlarda ədalətli şəxs kimi xatırlanmış Əbuyusif Mirzə hakimliyi dövründə əhali ilə yaxşı rəftar etmiş, onlara qayğı ilə yanaşmışdır.

Orta əsrlərə aid tarixi salnamələrə istinadən Əbülqasım bəy Kirmanın hakimi olduğu illərdə vaxtının çoxunu ovda, eyş-işrətdə keçirmişdir.

Cahanşahın əmri ilə İsfahanın idarəsi Məhəmmədi Mirzəyə tapşırılmış, şəhərə on dörd il hakimlik etmişdir. Onun hakimliyi dövründə özbaşınalıq, hərc-mərcilik baş alıb getmiş, əhalidən alınan vergilərin sayı artmışdır [38, 213].

Cahanşah qışı Qumda keçirdikdən sonra yazın əvvəllərində Duxarlu tayfasının idarəsi altında olmuş Bayburt qalasını tutmaq üçün hərbi yürüş etmişdir. Bu yürüşün başlıca səbəbi qala əhlinin Cahanşaha xəyanət edib Uzun Həsənin tərəfinə keçməsi idi. Lakin Cahanşah müəyyən səbəblər üzündən yürüşü dayandırmışdır [38, 197]. Cahanşah Həsənəli bəyi ölkədən qovduqdan sonra o, Diyarbəkrə Uzun Həsənin yanına gəlmiş, Ağqoyunlu başçısı tərəfindən hörmətlə qarşılanmışdır. Həsənəli bəy bir neçə dəfə atasının yanına qayıtmaq istəsə də qorxusundan bu fikrindən əl çəkmişdir. Həyatı boyu yaxınlarına, ona kömək etmiş şəxslərə xəyanət etmiş Həsənəli bəy Uzun Həsən tərəfindən Diyarbəkrdən qovulduqdan sonra Bağdadda olan qardaşı Pirbudaq bəyin yanına qaçmışdır [25, 21]. Pirbudaq bəy Həsənəli bəyə sığınacaq vermişdir.

Cahanşah Həsənəli bəyin Bağdadda Pirbudaq bəyin yanında olmasını eşidəndə qışı Savədə keçirmişdir. O, övladlarının ona qarşı yenidən xəyanət edəcəklərindən ehtiyat etdiyi üçün Məhəmmədi Mirzəni İsfahandan, Qaraqoyunlu əmirlərini, tiyul sahiblərini vilayətlərdən çağırtdırmış, hərbi əməliyyata hazırlaşmışdır. Onun göstərişi ilə Məhəmmədi Mirzə Bağdadı iki il mühasirədə saxlamışdır. Şəhər mühasirədə olduğu illərdə Pirbudaq bəy ən yaxın adamlarının xəyanətindən şübhələnərək onları qətlə yetirmişdir. Qaraqoyunlu şahzadəsi atası ilə apardığı uğursuz döyüşlərinə görə əhali arasında inamını itirmişdir [38, 198].



Pirbudaq bəy çıxılmaz vəziyyətə düşdüyü üçün Əmir Əbdürrəhman Buxarini atasının hüzuruna göndərmiş, bağışlanmasını xahiş etmişdir. Cahanşah şəhəri təslim edəcəyi təqdirdə onu bağışlayacağına söz versə də Pirbudaq bəy Məhəmmədi Mirzə və Pir Məhəmməd bəy Təvaçinin qılıncları ilə öldürülmüşdür [38, 199]. Tarixi salnaməyə istinadən Pirbudaq bəy 16 iyun 1466-cı ildə qətlə yetirilmişdir [25, 21]. Cahanşah Bağdadı tutarkən təsadüf nəticəsində Pirbudaq bəyin işlərini idarə etmiş onun təvaçisi Əlişəkər bəyin oğlu Məhəmməd bəy həlak olmuşdur [38, 199].

Cahanşah Bağdadı tutduqdan sonra Təbrizə qayıtmış, qışı paytaxtda keçirtmişdir. O, qışı Təbrizdə keçirtdikdən sonra Şirvanı özündən asılı etmək üçün Fərrux Yasarın yanına elçini göndərmişdir. Lakin Şirvanı tutmaq fikrindən əl çəkmiş Cahanşah 1467-ci ildə Təbrizi tərk edərək Diyarbəkrə hərəkət etmişdir [38, 200].

Orta əsrlərə aid tarixi qaynaqlara istinadən Cahanşahın hakimiyyəti dövründə də Qaraqoyunlularla Ağqoyunlular arasında düşmən münasibətləri davam etməkdə idi. Ölkənin qərb sərhədlərində Ağqoyunlularla tez-tez hərbi toqquşmalar olmuşdur. Cahanşahın hakimiyyətinin son illərində Ağqoyunlu Uzun Həsən Ərməniyyəni və Gürcüstanın Qaraqoyunlu dövlətinə tabe olan şərq hissəsini tutmuşdur.

Ağqoyunluların bu hucumlarına birdəfəlik son qoymaq məqsədilə Cahanşah Diyarbəkrə – Uzun Həsənə qarşı hərbi yürüşə başlamış, lakin qış sərt keçdiyindən Muş düzündən geri qayıtmışdır. Cahanşah ordunun əsas hissəsini geri göndərmiş, az qüvvə ilə düşərgə salmışdır. Uzun Həsən Cahanşahın az qüvvə ilə ona yaxın ərazidə düşərgə saldığını eşitdikdən sonra qəflətən min nəfər döyüşçü ilə hücum etmiş, qaraqoyunlular məğlub olmuşdur.

Cahanşah Uzun Həsənin əsgərlərindən biri tərəfindən qılıncla ağır yaralanmışdır. O, ölməmişdən əvvəl qatilə onu öldürməyib Uzun Həsənin yanına aparmasını xahiş etsə də yarası ağır olduğundan dünyasını dəyişmişdir. Qatil Uzun Həsənin qorxusundan

Cahanşahın ölüm xəbərini gizli saxlamışdır. Qələbə çalmış Uzun Həsənin əmri ilə Cahanşahın axtarışına başlanılmış, onun ölüsünü, dirisini tapanı mükafatlandıracağına söz vermişdir. Uzun Həsənin vəd etdiyi mükafatı almaq üçün qatil Cahanşahın yerini ona göstərmişdir. Həmin cəsədin Cahanşaha məxsus olması müəyyən olunduqdan sonra Uzun Həsən tarixdə bəzi hökmdarların etdiyi vəhşiliyi təkrarlayaraq qüdrətli Qaraqoyunlu hökmdarının başını Teymuri hökmdarı Sultan Əbu Səidə göndərmişdir. Cahanşah isə Ərcişdə atası Qara Yusifin yanında torpağa tapşırılmışdır [38, 227; 62, 441].

Qaraqoyunlu dövlətinin qüdrətli hökmdarı Cahanşah otuz il hakimiyyətdə olmuşdur. O, 12 noyabr 1467-ci ildə 64 yaşında öldürülmüşdür. Orta əsrlərə aid tarixi qaynaqda adı ehtiramla çəkilmişdir:

"Ölkə alan padşah Cahanşah öldürüldü; yer üzündə dünyanın əfəndisi o idi"

"O, öldürüldü və dünya ölümündən xarab oldu" [62, 449].

Cahanşahın məğlubiyyətindən sonra oğlanları Məhəmmədi Mirzə, Əbuyusif Mirzə, əmirləri, sərkərdələri, yaxınları əsir düşmüşdülər [25, 21].

Şahvəli bəy Baharlı, Pirzad bəy, Rüstəm Alpaut, Lələ Səfərşah, Qurmişi Şəki, Qasım Pərvanəçi, İsgəndər Duxarlı, Qayıtmış Əmiraxur əsir düşmüş əmirlər, sərkərdələr arasında idilər [38, 227]. Uzun Həsən əsir düşmüş Qaraqoyunlu əmirlərini və sərkərdələrini vəhşicəsinə qətlə yetirmişdir [38, 229]. Qətlə yetirilənlər arasında Baharlı tayfasının tanınmış sərkərdəsi Şahvəli bəy də var idi. Məhəmmədi Mirzə edam edilmiş, Əbuyusif Mirzənin gözləri çıxarılmışdır [25, 21; 62, 442].

Əsir düşmüş Əlişəkər bəyin oğlu Pirəli bəy, Əli bəy Cagiri, Rüstəm Tərxanın oğlu Söhrab, Rüstəm Alpaut, Pir Məhəmməd Alpaut Uzun Həsənin vəhşiliklərindən xilas ola bilmişdilər [38, 229; 62, 442].

Cahanşah qətlə yetirildikdən sonra mərkəzi hakimiyyətdə qarışıqlıq yarandığı üçün Qaraqoyunlu dövlətinin varlığı təhlükə qarşısında idi. Cahanşahın ölümü ilə ölkə ərazisində aparılmış mü-



haribələr, feodal çəkişmələri dağıntılar yaratmışdı. Ölkənin hər bir əyalətində mərkəzi hakimiyyətə qarşı narazılıqlar yarandığı üçün dövlətin ərazisi bölünmüş vəziyyətdə Qaraqoyunlu şahzadələrinin idarəsi altında idi. Hakimiyyət uğrunda mübarizədə təkcə Qaraqoyunlu şahzadələri iştirak etmirdi. Adı-sanı olmayan döyüşçülər də taxt-tac iddiası ilə mübarizəyə qoşulmuşdular. Hakimiyyət iddiasında olanlar sırasında xanımlar da var idi. Hakimiyyət iddiası ilə mübarizəyə qoşulmuş xanımlar arasında Arayiş bəyim qətiyyəti, cəsarəti ilə seçilmişdir. Professor Şahin Fərzəliyevin tədqiqatlarına görə, Arayiş bəyim əmisi Cahanşah qətlə yetirilən vaxt bacısı Şahsaray bəyimlə həbsxanada idi.

Arayiş bəyim tərəfdarlarının köməyi ilə həbsxanadan azad edildikdən sonra Təbrizdə xəzinəyə sahib olmuş, mərkəzi hakimiyyəti möhkəmləndirmək məqsədilə bəzi dəyişikliklər etmişdir. O, güclü ordu yaratmaq üçün xəzinəni əsgərlər arasında bölüşdürmüşdür. O dövrün siyasi hadisələrinin canlı şahidi salnaməçi Əbubəkr Tehrani Arayiş bəyimin siyasi fəaliyyətinə bu cür qiymət vermişdir: "Arayiş bəyim qadın bəzəklərini döyüş ləvazimatı ilə əvəz etdi, örpək əvəzinə dəbilqə qoydu, qalxanı niqab kimi üzünə çəkdi, əlindəki güzgünü ikiağızlı qılıncla əvəz edib düşmənin qarşısına tutdu, daim gözəllərin qaşları ilə yarışan kamanından elə bir ox atdı ki, sinəni deşib keçdi, gözəllərin kirpikləri ilə qan tökmək üstündə mübahisə edən gəncləri nizə çubuğunun ucuna keçirtdi. Meydanda kişilərin olmadığını görüb hökmranlıq etməyə başladı."

Arayiş bəyim dövləti öz adından idarə edə bilmədiyi üçün 1467-ci ildə qardaşı Hüseynəli bəyi Təbrizdə taxta çıxartmış, onu hökmdar elan etmişdir. Qaraqoyunlu hökmdarı Hüseynəli bəyin adına xütbələr oxunmuş, sikkələr kəsilmişdir. Din xadimi kimi gününü ibadətdə keçirmiş Hüseynəli bəy dövlət işlərinə maraqlı olmamışdır. Onda dövləti idarə edə biləcək təşkilatçılıq qabiliyyəti olmadığından hakimiyyət faktiki olaraq Arayiş bəyimin əlində idi. Bacısı Şahsaray bəyim onun ən yaxın, etibarlı köməkçisi idi. Arayiş bəyimin istəyi ilə Əmir Şahməhəmməd Qavrudini divan əmiri, Əmir Əlaəddin Siddiq vəzir təyin edilmişdilər. Onun siyasi

addımlarından biri də Teymuri hökmdarı Sultan Əbu Səidin himayəsini qəbul etməsi olmuşdur.

Arayiş bəyimin Təbrizdə hakimiyyəti müstəqil idarə etməsi yaxın qohumlarının, əmisi övladlarının narazılığına səbəb olmuş, ona qarşı hərbi əməliyyatlar hazırlanmışdır. Onun hakimiyyət uğrunda rəqibləri arasında əmisi Cahanşahın arvadı Bəyim və qızları, əmisi oğlu Həsənəli bəy var idi.

Təbrizdəki hadisələrdən xəbər tutanda Bəyim qızları ilə Xoy şəhərində qışlayırmış. Onun şəxsi xəzinəsi Marağada Cövşən qalasında idi. Xəzinənin mühafizəsi Bəyimin qardaşları Həmzə bəyə və Qasım bəyə həvalə olunmuşdur. Marağaya gəlmiş Bəyim Təbrizi Arayiş bəyimdən almaq üçün Həmzə bəyi qızlarından biri ilə paytaxta göndərmişdir.

Cahanşahın övladları arasında Həsənəli bəyi Arayiş bəyimə ən güclü rəqib hesab etmək olar. O, atasının sağlığında qiyam qaldırdığı üçün uzun illər Maku qalasında həbsxana həyatı yaşamışdır. Cahanşahın ölümündən sonra yerli əmirlərin əksəriyyəti Həsənəli bəyin tərəfdarı idi. Qaraqoyunlu qüvvələrini öz hakimiyyəti altında birləşdirmiş Həsənəli bəy Təbrizə yürüş etmişdir. Arayiş bəyim Həsənəli bəyin hücumunun qarşısını ala bilməyəcəyinə əmin olduqdan sonra hakimiyyəti yalnız könüllü olaraq əmisi oğluna verəcəyini vəd etmişdir.

Lakin Arayiş bəyim Həsənəli bəydən əvvəl Təbrizə hücum etmiş Həmzə bəyin ordusu ilə döyüşməli olmuşdur. Təbriz yaxınlığında baş vermiş döyüş məğlub edilmiş Arayiş bəyimin hakimiyyətinin süqutu idi. Bu döyüşdə o, bacısı Şahsaray bəyim, qardaşı Hüseynəli bəylə əsir düşmüşdür. Hüseynəli bəyi Cahanşahın iqamətgahı olan Sahibabad sarayı yaxınlığında qətlə yetirmiş Həmzə bəy Təbrizi vəhşicəsinə talan və qarət etmişdir.

Orta əsrlərə aid mənbələrdə Arayiş bəyimin ictimai-siyasi fəaliyyəti haqqında qısa məlumat verilmişdir. Arayiş bəyimin fəaliyyəti ilə yaxından tanışlıqdan sonra belə qənaətə gəlmək mümkündür ki, o, iradəli, cəsarətli, qorxmaz qadın olmuşdur. Onun təbiətindəki hökmranlıq hissi sələflərindən xələfinə qanla keçmişdir. Arayiş bəyimin hakimiyyəti sona qədər idarə edə bilməməsinin



başlıca səbəbi ölkədə aparılmış taxt-tac uğrunda mübarizə idi. Qaraqoyunlu şahzadələri arasında birlik olmadığından dövlətin ərazisi döyüş meydanına çevrilmişdir. Qısa müddətdə paytaxt Təbrizdə idarəçiliyi əlində saxlamış Arayiş bəyim hakimiyyətini bu üzdən qoruya bilməmişdir.

Professor İsmayıl Haqqı Uzunçarşılının, Faruq Sümərin orta əsrlərə aid mənbələrə istinadən yazdıqlarına görə, Arayiş bəyim və bacısı Şahsaray bəyim şairə olmuşlar. Onlar farsca şeirlərin müəllifi kimi tanınmışlar.

Həsənəli bəyin Təbrizə yaxınlaşması ilə əlaqədar Həmzə bəy əldə etdiyi xeyli qənimətlə şəhərdən qaçmışdır [38, 233]. Təbriz Həsənəli bəy tərəfindən tutulduqdan sonra Qaraqoyunlu əmirlərinin əksəriyyəti onun tərəfinə keçmiş, ordusunun sayı iyirmi minə çatmışdır. Həsənəli bəy Mahmud bəy Ağqoyunlunu divan əmiri, Əmir Seyid Aşur ilə Əmir Əlaəddin Siddiqini, Pirbudaq bəyin vəziri olmuş Əmir Məcdəddin İsmayıl Şirazini özünə vəzir təyin etmişdir. Əlincə qalasının sahibi Yaqub Çöhrə Cahanşahın illərlə topladığı xəzinəsini ona təhvil vermişdir [38, 235]. O, Cahanşahın arvadı Bəyimi, onun qardaşları Qasım bəyi, Həmzə bəyi qətlə yetirmişdir [25, 22].

Cahanşahın ölümündən sonra Əbülqasım bəy anasının istəyi ilə hakimiyyət uğrunda mübarizəyə qoşulmuşdur [38, 240]. Əbülqasım bəyin İsfahanı tutmaq arzusu uğursuz olmuşdur. O, qardaşı Həsənəli bəyin hakimiyyətini tanıdığını desə də qətlə yetirilmişdir [25, 21].

Həsənəli bəyin on dörd yaşlı oğlu Sultanəli bəy babası Cahanşahın öldürülməsindən sonra hakimiyyətə gəlmiş atasının qəzəbindən qorxaraq Teymuri hökmdarı Sultan Əbu Səidin yanına qaçmışdır. Sultan Əbu Səidin vasitəçiliyi ilə Sultanəli bəy Həsənəli bəyin qəzəbindən xilas olmuş, atasının əlini öpərək bağışlanılmışdır [62, 456].

Sultanəli bəy Sultan Əbu Səidin müttəfiqi kimi Ağqoyunlu Uzun Həsənə qarşı hərbi yürüşdə iştirak etmişdir. Əbu Səidin öldürülməsindən sonra Pirəli bəyə qoşularaq Həmədana getmiş, lakin səfərinin iyirminci günü öldürülmüşdür [62, 490].

Həsənəli bəy teymurilərdən ehtiyat etdiyinə görə onlara qarşı döyüşə hazırlaşdığı üçün Uzun Həsənlə münasibətləri qaydaya salmaq istəmişdir. O, ölkəni, xəzinəni ona verəcəyini vəd etməklə Uzun Həsəni arxayın salıb Azərbaycana yürüşünün qarşısını almaq fikrində idi. Lakin Həsənəli bəy Uzun Həsənin Azərbaycana hücumunu eşidib Teymurilərlə döyüş fikrindən əl çəkmişdir [38, 246]. Xoyda Həsənəli bəylə Uzun Həsən arasında baş vermiş savaşda qaraqoyunlular məğlub edilmişdir. Həsənəli bəy Bərdəyə Qaramanlı tayfasından olan Piri bəyin yanına qaçmış, lakin ona sığınacaq verilmədiyi üçün Ərdəbilə getmişdir. Həsənəli bəy 1469-cu ildə Həmədanda Uzun Həsənin oğlu Uğurlu Məhəmməd tərəfindən öldürülmüşdür [25, 22]. Bununla da Qaraqoyunlu dövlətinin varlığına son qoyulmuşdur.

Qaraqoyunlu dövlətinin süqutundan qırx dörd il sonra baharlıların yaratdıqları ikinci qüdrətli dövlət Cənubi Hindistanda Qütbşahlar dövləti idi.

Azərbaycanın Ağqoyunlular və Səfəvilər dövründə yüksək tərəqqiyə çatması məhz Qara Yusifin qurduğu Qaraqoyunlu dövləti zamanında təşəkkül tapmış ənənələrin inkişafının nəticəsidir.



## QARAQOYUNLU DÖVLƏTİNDƏ ELM VƏ MƏDƏNİYYƏT

Qaraqoyunlu dövləti Azərbaycanın dövlətçilik tarixində xüsusi yer tutur. Qara Yusifin qurduğu Qaraqoyunlu dövləti Kür çayından Cənubi Azərbaycandan başqa Ərməniyyə, Qərbi İran, İraq, Kürdüstan, Gürcüstanın bir hissəsi və s. əraziləri də əhatə etdiyi üçün böyük imperiya sayıla bilər. Qaraqoyunlu dövlətində ən yüksək mənsəb sahiblərinin, dövlət başçılarının azərbaycanlılardan (əsasən Baharlı tayfasından) ibarət olması bu dövləti həmin ərazidə yerləşmiş bir sıra əvvəlki dövlətlərdən fərqləndirir. Rəsmi dövlət sənədləri fars dilində yazılsa da, professor Cəfər İbrahimovun qeyd etdiyi kimi, dövlət sarayına daxil olan Azərbaycan şairləri ana dillərində dəyərli əsərlər yaradırdılar. Qaraqoyunlu dövləti aparatında güclü milli əhval-ruhiyyə özünü büruzə verir və bu, sonrakı dövrlərdə daha geniş vüsət alırdı. Akademik Həmid Araslı əsaslı şəkildə XV əsrdə Azərbaycan ədəbi-bədii dilinin möhkəmləndiyini, inkişaf etdiyini göstərmişdir.

Qaraqoyunlu dövlətinin mövcud olduğu müddətdə yaradılmış bir çox ədəbiyyat və incəsənət əsərləri dünya şöhrəti qazanmış, sonrakı illərdə meydana çıxması mədəniyyət nümunələri üçün örnək olmuşdur.

Cahanşahın hakimiyyəti dövründə elmə, mədəniyyətə qayğı ilə yanaşılmış, bir çox ədib və şairlərin iştirakı ilə saray məclisləri təşkil etmişdir. "Həqiqi" təxəllüsü ilə Azərbaycan və fars dillərində şeirlər yazmış Cahanşah divan müəllifidir. Onun divanının iki əlyazması məlumdur. Bu əlyazmalardan biri Londonda Britaniya kitabxanasında, digəri isə İrəvan Əlyazmaları İnstitutunda (Matenadaran) saxlanılır. Britaniya nüsxəsi haqqında ilk dəfə görkəmli şərqşünas V.F.Minorski, Matenadaran nüsxəsi barəsində isə Lətif Hüseynzadə məlumat vermişlər.

Lətif Hüseynzadə Matenadaran nüsxəsi əsasında Cahanşahın divanının bir hissəsini 1966-cı ildə çap etdirə bilmişdir. Cahanşahın ölümünün 500 illiyi münasibəti ilə çap edilmiş "Şeirlər" adlı kitaba 61 qəzəl, 22 rübai daxil edilmişdir.

Cahanşah Həqiqinin yaradıcılığı ikinci dəfə 20 ildən sonra Əbülfəz Rəhimovun, Lətif Hüseynovun, Mail Əliyevin tərtibatı ilə işıq üzü görmüşdür. Onun 1986-cı ildə Bakıda nəşr olunmuş "Seçilmiş əsərləri" adlı kitabına 95 qəzəl, 34 rübai salınmışdır.

Lətif Hüseynzadənin "Qaraqoyunlu Cahanşah Həqiqi" (Bakı, 2000) kitabına şairin farsca divanından qəzəlləri və azərbaycanca rübailəri verilmişdir. Şairin farsca şeirləri Lətif Hüseynzadə tərəfindən tərcümə edilmişdir.

Cahanşah Həqiqinin "Seçilmiş əsərləri" (Tərtib, müqəddimə və lüğətin müəllifləri: Əbülfəz Rəhimov, Lətif Hüseynzadə, Mail Əliyev) (Bakı, 1986) adlı kitabında yazılır: "Həqiqi təxəllüsü ilə şeirlər yazan Cahanşahın divanının Britaniya nüsxəsi daha mükəmməldir. Onu Qənbərəli Xosrov oğlu İsfahani adlı bir xəttat 1488-ci ildə nəstəliq xətti ilə köçürmüşdür. Əlyazmasında Cahanşah Həqiqinin farsca 116 qəzəli, bir müstəzadı, azərbaycanca isə 91 qəzəli və 33 rübaisi vardır.

Matenadaran əlyazmasının xəttatı məlum deyildir. Güman ki, bu əlyazması hicri-qəməri 879 (1474-1475) –cu ildə köçürülmüşdür.

Tarixi mənbələrdən məlumdur ki, Cahanşah öz divanının mükəmməl bir əlyazması nüsxəsini dövrünün ən görkəmli şairi Əbdürrəhman Camiyə (1414-1492) göndərmişdir. Cami bu əlyazmasının ona çatması, oradakı şeirlər barədə müsbət fikrini 28 beytdən ibarət mənzum məktubunda qeyd etmiş və onu hökmdar şairə göndərmişdir. Ancaq nə Matenadaran, nə də Britaniya kitabxanası nüsxələrinin üzünü köçürən xəttatların əlində şairin divanının belə bir mükəmməl əlyazma nüsxəsi olmamışdır. Çünki Cami öz məktubunda bu divanda məsnəvi də olduğunu yazır, lakin əldə olan hər iki əlyazma nüsxəsində məsnəvi yoxdur. Bu əlyazmalarında Cahanşahın ona tabe olmaq istəməyən – Bağdad hakimi Pirbudaqa farsca yazdığı 12 beytlik nəsihətamiz şeir də yoxdur" [13, 4].

Cahanşahın yaradıcılığına yüksək qiymət verən müəlliflər maraqlı bir faktı da qeyd edirdilər: "Hökmdar şairin elə beyt, fikir və təsvir vasitələri vardır ki, bunları ondan təxminən yarım əsr sonra yazıb yaratmağa başlamış dahi Füzulinin qəzəllərində də rast gə-



lirik. Nəzərə almaq lazımdır ki, qəlb şairi Füzulinin Cahanşahın şeirlərini oxuyub, yaxud eşidib öyrənməsi üçün təbii bir zəmin vardır. Çünki Füzulinin yaşayıb yaratdığı Bağdad, Kərbala müəyyən müddət qaraqoyunlu dövlətinin tərkibində idi və burda çoxlu türkdilli tayfalar yaşayırdı. Ancaq Füzuli Həqiqinin fikirlərini təqlid və təkrar etməmişdir. Əksinə onları daha da cilalamış, qüvvətləndirmiş və saflaşdırmışdır" [13, 7].

Bu kitabda göstərilir ki, Əbdürrəhman Cami və Bədr Şirvani kimi söz sənətkarları Cahanşahın yaradıcılığına yüksək qiymət vermişlər.

Təbrizdə Cahanşahın saray kitabxanasında Moğol (Uyğur) xətti ilə yazılmış "Oğuznamə" nin olması barədə 1447-ci ilə aid məlumat vardır. "Oğuznamə" nin bəzi hissələrinin Təbrizə gəlmiş Osmanlı elçisinə oxunduğunu, burada elçi olaraq iştirak etmiş müverrih Şükrullahdan öyrənirik [67, 372-380].

Cahanşahın yaradıcılığından bəzi nümunələr müxtəlif illərdə çap edilmiş "XIII-XVI əsrlər Azərbaycan şeiri" (tərtib edən: Cahangir Qəhrəmanov, III cild, Bakı, 1984), "Azərbaycan qəzəllər" (tərtibçi və ön sözün müəllifi: filologiya elmləri namizədi Məmməd Nuru oğlu, Bakı, 1991) kitablarda verilmişdir. "XIII-XVI əsrlər Azərbaycan şeiri"nə 31 qəzəl, 33 rübai, "Azərbaycan qəzəllər"nə 5 qəzəl salınmışdır.

Cahanşah Təbrizdə və Azərbaycanın başqa şəhərlərində imarətlər, saraylar, körpülər, məscid və mədrəsələr tikdirmişdir. Bu abidələrin ən qiymətlisi Təbrizdə tikilmiş "Göy məscid"dir.

Görkəmli Azərbaycan alimi Məhəmmədəli Tərbiyət öz tədqiqatında məscidin tarixi və görünüşü haqqında yazmışdır: "Müzəfəriyyə binasının (Göy məscidin) gözəl kaşıları və xoşrəng mərmər daşları var idi. Bu bina dəhşətli zəlzələ nəticəsində uçulub xarab olmuş, indi də divarları və fasadı durur. Ondakı bəzi kaşılar, mərmər daşlar Quran ayələri Məhəmməd Peyğəmbər hədisləri ilə bəzənmiş və olduqca baxımlı idi. Bu yazıların hamısını o dövrdə məşhur xəttat Nemətulla Bəvvab yazmış, ya da onun yazısını kaşı və mərmər üstündə qazmışdır. Binanın tikilməsinin bitmə tarixi giriş qapısının üstündə qeyd edilmişdir. Qazı Hüseyn Meybudi yazır:

"Bu yüksək səqfli binanın tikilməsi və bu gözəl evin möhkəmlənməsi böyük Sultan, ədalətli, hörmətli, istedadlı, camaatın rifahı qayğısını çəkən, hər kimin haqqını özünə verən, işıqlı şəriətin bayrağını qaldıran, nurlu təriqətin binasını yüksəldən, rəhmli Allaha təvəkkül edən (bel bağlayan) Əbülmüzəffər Yəqub Bahadırxan (Allah onun hökmdarlığını əbədi etsin, gəmisinin müvəffəqiyyətlə dənizdə üzdürsün) zamanında təməli qoyulmuşdur və bu, ancaq əzəmətli, vüqarlı, məsum və tükənməz səxavəti olan qadın, cəsarətli sərkərdə, hər cəhətdən üstün və hökm sahibi olan Xaqan Sultan, Cahanşahın xeyirxah qızının gördüyü ən yaxşı işlərdən biridir"".

Qaraqoyunlu şahzadəsi Pirbudaq Azərbaycan və fars dillərində şeirlər yazmışdır. Qara İsgəndərin qızları Arayiş bəyim, Erduk Sultan incə ruhlu şairələr olaraq tanınmışlar.

Qaraqoyunlu dövlətinin süqutundan sonra Cahanşahın nəslinin övladları Salim Təbrizi, Nişa Mirzə Əbdülbaqi Təbrizi ədəbiyyat tariximizdə öz sözlərini demiş şəxsiyyətdirlər.

Salim Təbrizinin əsl adı Mahmud bəy Əbülfət bəy oğludur. Salim Təbrizinin şeirlər məcmuəsinə 8000-dək şeir daxildir. Onun bir neçə məsnəvisi vardır. "Mehr və vəfa", "Yusif və Züleyxa", "Leyli və Məcnun", "Şahnaməyi – Şah Təhmasib" adlı poemalarının müəllifidir [39, 294].

Nişa Mirzə Əbdülbaqi Təbrizi XVIII əsrdə yaşamışdır. Mazandaran dövlət torpaqlarının maliyyə işlərinə baxan müavini vəzifəsində çalışmışdır. İki minə yaxın beytdən ibarət türk və fars dillərində yazdığı şeir divanının müəllifidir. O, "Xosrov və Şirin" mövzusunda özünün "Yekdəst" (Bir əl) adlı poemasını yazmışdır. Nişa Mirzə Əbdülbaqi Təbrizi 1745-ci ildə vəfat etmişdir [39, 264].

Qaraqoyunlu dövləti zamanında Azərbaycanın, o cümlədən şərqin elm, mədəniyyət tarixinin inkişafında əvəzsiz xidmətlər göstərmiş görkəmli şəxsiyyətlərin, alimlərin, şairlərin həyatı və fəaliyyətləri öyrənildikcə zamanla layiqli qiymətini alacaqdır.



## BAHARLILAR

Qaraqoyunlu dövlətinin qurucularının baharlılar olub olmaması barədə tədqiqatçılar arasında fikir ayrılığı olsa da, Azərbaycanın, Türkiyənin, Rusiyanın görkəmli tarixçilərinin bəziləri öz tədqiqat əsərlərində bu dövləti baharlılara aid hesab etmişlər.

XV əsrdə Baharlı soyadını Əlişəkər bəy daşımışdır. XVI əsrə aid naməlum müəllif tərəfindən yazılmış "Qızılbaşlar tarixi" (Tərcümə və şərhlər M.Ə.Məhəmmədi, Bakı, 1993), Əbubəkr Tehraninin "Kitabi-Diyarbəkriyyə" (Fars dilindən tərcümə edən, ön söz, şərhlər və göstəricilərin müəllifi Rahilə Şükürova, Bakı, 1998), Hasan-ı Rumlunun "Ahsenüt-Tevarih" (Çeviren: Mürsel Öztüürk, Ankara-2006), Zahiruddin Muhammed Baburun "Baburname" (Doğu Türkcesinden çeviren: prof. Reşit Rahmeti Arat, İstanbul, 2006) və Gülbedenin "Hümayunname" (farscadan çeviren Abdürrab Yelgar, Ankara, 1987) adlı orta əsrlərə aid tarixi mənbələrdə Baharlı tayfasının ən böyük əmiri hesab edilmiş Əlişəkər bəy qüdrətli, ürəkli, bacarıqlı sərkərdə kimi göstərilmişdir.

Professor Faruq Sümərin fikrincə, təsdiqini tapmamış bir mülahizəyə əsasən Əlişəkər bəyin əsl adı Qaraqoyunlu tayfasından Məhəmmədir. O, Əmir Teymurun oğlu Şahruxun müasiri olub, Cahanşahın adından Şahruxla sülh və razılaşmaya aid danışıqlar aparmalı imiş. Lakin Herata çatmamış Şahruxun ölüm xəbərini eşitdiyi üçün Həmədana qayıtmışdır. Onun nəsil şəcərisini Faruq Sümər belə göstərmişdir: Əlişəkər bəy Baharlı → Bayram Qara bəy → Əlif Qara bəy → Qara xan → Qazan → Qara Misri → Qara Məhəmməd.

O, Əlişəkər bəy Baharlı haqqında bu məlumatı Measir-i Rahimiden naklen Müderris Rezavi, Mucmel ut-tevarih (Tehran, 1320) istinadən yazmışdır.

Əlişəkər bəy Baharlı Qaraqoyunlu hökmdarı Cahanşahın hakimiyyəti dövründə onun yaxın qohumu kimi uzun illər Həmədan, Vorucerd və Nəhavənd hakimi olmuşdur. O, 1457-ci ildə Mardin döyüşündə Ağqoyunlu Uzun Həsənə əsir düşmüş, bir müddət həbsxana həyatı yaşamışdır. Lakin Əlişəkər bəy Baharlı yaxın

qohumu Qaraqoyunlu dövlətinin hökmdarı Cahanşahın köməyi ilə əsirlikdən azad edilmiş, yenidən Həmədan hakimi olmuşdur.

Əlişəkər bəy Baharlı Cahanşahın inandığı, etibar etdiyi qüdrətli dövlət xadimi, istedadlı sərkərdə olmuş, Qaraqoyunlu şahzadəsi Pirbudaq bəyin Şirazda (1460), Bağdadda (1466) qiyamlarını yatırmışdır.

Cahanşahın Ağqoyunlu Uzun Həsənlə 1467-ci ildə Muş düzündə baş vermiş döyüşdə öldürülməsindən sonra Əlişəkər bəy Baharlı övladları, həmtayfaları ilə birlikdə Mavəraünnəhr hakimi Əbu Səid Mirzənin yanına getmişdir. Əbu Səid Mirzənin Uzun Həsənlə döyüşdə məğlubiyyətindən, öldürülməsindən sonra da o ailəsi ilə teymurilərin yanında qalmış, Sultan Mahmud Mirzənin, Əbu Bəkr Mirzənin, Hüseyn Baykaranın müttəfiq olmuşdur.

Əlişəkər bəy Baharlının Məhəmməd bəy, Bayram bəy, Yarəli bəy, Pirəli bəy adlı dörd oğlu, üz qızı olmuşdur. Qızının birinin adı Paşa bəyim idi.

Əbubəkr Tehraninin, Həsən bəy Şamlunun tarixi salnamələrinə görə, Məhəmməd bəy Baharlı Cahanşahın oğlu Pirbudaq bəyin əmiri olmuşdur. Pirbudaq bəy Şirazda atasına qarşı qiyam qaldıranda o, 1500 nəfərlik döyüşçü ilə Ucanda düşərgə salmış Cahanşaha hücum etmişdir. Lakin Əlişəkər bəy Baharlının 5000 nəfərlik ordusu qarşısında məğlub olaraq, əsir düşmüşdür. Cahanşaha qarşı döyüşdüyü üçün edam olunmalı idi. Əlişəkər bəy Baharlının övladı olduğu üçün Cahanşah onu bağışlamış, 1460-cı ildə ona Bağdadda yaşamağa icazə vermişdir.

Məhəmməd bəy Baharlı Pirbudaq bəyin Bağdadda qiyamı yatırılarkən təsadüf nəticəsində 1466-cı ildə öldürülmüşdür.

"Qızılbaşlar tarixi"nə, Əbubəkr Tehraninin, Həsən bəy Rumlunun tarixi salnamələrinə istinadən Bayram bəy, Yarəli bəy, Pirəli bəy Qaraqoyunlu hökmdarı Cahanşahın adlı-sanlı əmirləri olmuş, ağqoyunlulara qarşı döyüşlərdə iştirak etmiş, ölkədə baş vermiş qiyamların yatırılmasında əsas rol oynamışlar.

Pirəli bəy Baharlı (...-1480) Qaraqoyunlu şahzadələri Həsənəli bəyin, Pirbudaq bəyin qiyamlarının yatırılmasında iştirak etmişdir. Ağqoyunlu Uzun Həsənə qarşı bir neçə dəfə döyüşmüş, 1467-ci ildə Muş düzündə əsir düşmüş, lakin xilas ola bilmişdir.



Pirəli bəy Baharlı Cahanşahdan sonra onun kor edilmiş oğlu Yusif Mirzəni taxta çıxartmış, bir neçə döyüşə rəhbərlik etmişdir. Lur-i kuçek hakiminə qələbə çala bilsə də Uzun Həsənin oğlu Uğurlu Məhəmməd tərəfindən məğlub edilmişdir.

Qaraqoyunlu dövlətinin süqutundan sonra Əlişəkər bəy Baharlının başçılığı altında ailəsi, həmtayfaları Mavəraünnəhr hakimi Əbu Səid Mirzənin yanına getmişdir. Pirəli bəy, Bayram bəy, Yarəli bəy, Paşa bəyim, onun Cahanşahın oğlu Məhəmmədi Mirzə ilə nigahından dünyaya gəlmiş övladı İbrahim bəy bu səfərdə onu müşayət etmişlər.

Əbu Səid Mirzənin Uzun Həsənə məğlubiyyətindən, öldürülməsindən sonra da Əlişəkər bəyin övladları teymurilərin yanında qalmış, Sultan Mahmud Mirzənin, Əbu Bəkr Mirzənin, Hüseyn Baykaranın müttəfiqi olmuşlar. Xorasanda teymurilər arasındakı daxili çəkişmələrdən istifadə edərək Baharlı tayfasının möhkəmlənməsinə çalışmışlar. Uzun Həsən baharlıların qüvvətlənməsindən ehtiyat etdiyi üçün Xorasan hakimi Hüseyn Baykaradan Əlişəkər bəy Baharlınının oğlanlarını ona verilməsini tələb etsə də rədd cavabı almışdır.

Uzün Həsənin vəfatından sonra Qaraqoyunlu dövlətini bərpa etmək istəmiş qardaşlar Teymuri Əbubəkr Mirzə ilə birlikdə 1479-cu ildə Sistan və Bəm yolu ilə Ağqoyunluların hakimiyyəti altında olmuş Kirmanı tutmuş, lakin məğlub olmuşlar.

Pirəli bəy, Bayram bəy, Yarəli bəy, İbrahim bəy 1480-cı ildə Cürcana hərbi səfərində Hüseyn Baykaraya əsir düşmüşlər. Bayram bəy öldürülmüş, Pirəli bəyin gözləri çıxarılmışdır.

Pirəli bəy Baharlı Qaraqoyunlu hökmdarı Qara İsgəndərin qızı ilə evlənmiş, Canəli bəy və Əsəd bəy adlı iki oğlu olmuşdur.

Canəli bəy Baharlı Babur imperatorluğunun qurucusu Zahirəddin Məhəmməd Baburun əmiri olmuş, Qunduz bölgəsini əhatə edən Bədəxşanda yaşamışdır.

Canəli bəy Baharlının Seyfəli bəy adlı oğlu olmuşdur.

Seyfəli bəy Baharlı Babur imperatorluğunun qurucusu Zahirəddin Məhəmməd Baburun hakimiyyəti dövründə Qəznə şəhərinin hakimi olmuşdur.

Seyfəli bəy Baharlı Nagina xanımla evlənmiş, Bayram bəy adlı oğlu dünyaya gəlmişdir.

Bayram xan Baharlı (1504-1561) Bəlxdə anadan olmuşdur. O, Babur imperatorluğunun qurucusu Zahirəddin Məhəmməd Baburun, Humayun şahın, Əkbər şahın hakimiyyətləri dövründə bu sülaləyə göstərdiyi sədaqətli xidməti müqabilində ali mənsəblərə yüksəlmiş, qeyri-adi istedadı, qüdrətli sərkərdə olması sayəsində Humayun şah tərəfindən Xanlar xanı rütbəsinə qədər yüksəlmiş, Əkbər şahın atabəyi olmuşdur. Teymurilərin Hindistanda ikinci dəfə öz dövlətlərini qurması Baharlı tayfasının bu müdrik dövlət xadiminin, qüdrətli sərkərdəsinin adı ilə bağlıdır.

Humayun şah taxt-tac iddiasında olan qardaşlarının xəyanəti ilə üzləşəndə, bir neçə döyüşdə Əfqan hökmdarı Şir xana məğlub olanda, Hindistanı geri ala biləcəyinə ümidini itirəndə onun arxalana biləcəyi insan Bayram xan Baharlı idi.

Bayram xan Baharlının şiə məzhəbindən olması Humayun şahı Səfəvi hökmdarı Şah Təhmasibə yaxınlaşdırmış, onun köməyinə sığınmışdır.

Bayram xan Baharlının müdrik dövlət xadimi, qüdrətli sərkərdə olması sayəsində Humayun şah rəqiblərinə qalib gələrək Hindistanda hakimiyyətini yenidən bərpa edə bilmişdir.

Bayram xan Baharlı Əkbər şahın hakimiyyəti dövründə əleyhidarları tərəfindən böhtana salınaraq xəyanətdə günahlandırılmışdır. Əkbər şah Babur imperatorluğunun varlığını sona qədər qorumuş Baharlı tayfasının bu sədaqətli övladının tarixi xidmətlərini unudaraq, danos aparanlara inanmış, onu saraydan uzaqlaşdırmışdır. O, Babur imperatorluğunun nankor hökmdarının gözündən düşdükdən sonra vəziyyəti ilə barışmalı olmuş, həccə yollanmışdır. Lakin 1561-ci ildə Quceratda xəyanət nəticəsində öldürülmüşdür.

Bayram xan Baharlı Şeyx Hüsaməddin türbəsi yaxınlığında dəfn edilmişdir. On yeddi ildən sonra 1578-ci ildə o, qohumları tərəfindən Məşhəddə İmam Rza türbəsi yaxınlığında torpağa tapşırılmışdır.



Bayram xan Baharlı türk və fars dillərində divan müəllifidir.

Bayram xan Baharlı Səlimə Sultanla (1536-1612) evlənmiş, Əbdürrəhim bəy adlı yeganə oğlanları dünyaya gəlmişdir.

Bayram xan Baharlının ulu babası Pirəli bəylə Səlimə Sultanın ulu nənəsi Paşa Bəyim doğma bacı-qardaş olmuş, Əlişəkər bəy Baharlının övladları idilər.

Səlimə Sultan Babur imperatorluğunda ictimaiyyətçi, təşkilatçı qadın kimi tanınmış, xüsusi kurslar açmaqla saray qadınlarının savadlanmasına çalışmışdır. "Məxfi" təxəllüsü ilə şeirlər yazmış, sarayda istedadlı şairə kimi tanınmışdır.

Bayram xanın xəyanət nəticəsində öldürülməsindən sonra Səlimə Sultan Babur imperatorluğunun hökmdarı Əkbər şahla evlənmişdir. O, Əkbər şahın yanında hörməti, etibarı sayəsində bir çox insanları şahın qəzəbindən xilas edə bilmişdir. Şahzadə Səlim Cahangir onun xahişi ilə atasının qəzəbindən xilas olmuşdur.

Mirzə Əbdürrəhim xan Baharlı (1556-1627) Lahorda anadan olmuşdur. Dörd yaşı olanda atasını itirmiş, anasının dayısı oğlu Əkbər şahın sarayında yaşamış, Qazi xan Badakşi, Məhəmməd Əmin Andecani kimi müəllimlərdən dərs almışdır. O, qeyri-adi istedadı, qabiliyyəti sayəsində astronomiya elminə yiyələnmiş, on üç dil bilmişdir.

Mirzə Əbdürrəhim xan Baharlı Babur imperatorluğuna sədaqəti, etibarı sayəsində Xanlar xanı rütbəsinə qədər yüksəlmiş, Əkbər şahın oğlu Cahangirin atabəyi olmuşdur. Əkbər şahın, Cahangir şahın hakimiyyətləri illərində hərbi səfərlərə başçılıq etmişdir.

Mirzə Əbdürrəhim xan Baharlı dövlət xadimi olmaqla yanaşı atası kimi gözəl şeirlərin müəllifi idi. Beveridgenin verdiyi məlumata görə, o, Əkbər şahın sarayında doqquz Navaratnasın arasında biri olmuşdur. Mirzə Əbdürrəhim xan türk dilindən başqa ərəb, fars, sanskrit dillərində də "Rəhimi" təxəllüsü ilə şeirlər yazmışdır. Mirzə Əbdürrəhim xanın yaradıcılığı dörd dildə şeirlər top-

lusundan ibarətdir. O, "Baburnamə"ni cağatay dilindən fars dilinə tərcümə etmişdir.

Hindistan Respublikasının baş naziri Cəvahirləl Nehru (1947–1964) Hindistanın tarixindən yazarkən Mirzə Əbdürrəhim xanın adını qüdrətli dövlət xadimi, sərkərdə kimi ehtiramla çəkmiş, onun şərq ədəbiyyatında xidmətlərini yüksək qiymətləndirmişdir. Cəvahirləl Nehrunun Mirzə Əbdürrəhim xanın fəaliyyəti haqqında yazdığı maraqlı fikirləri görkəmli şərqşünas alim Ə.Səidzadə rus dilindən tərcümə etmişdir:

"Əkbər, ona və onun ideyalarına sadiq olan bir çox məşhur adamları öz ətrafına toplamışdı. Onların içində fəyzi və Əbdül fəzl qardaşları, Bir Bal, raca Man Cinqx və Əbdül Rəhim xan-xanan var idi".

"Moğollar dövründə bir çox hindlilər rəsmi saray dili olan fars dilində kitab yazırdılar. Bu kitablardan bəziləri müəyyən mənada klassik kitablar oldular. O biri tərəfdən müsəlman alimləri sanskrit kitablarını fars dilinə tərcümə edir və hindi dilində yazırdılar. "Padmavatanın" müəllifi olan Məlik Məhəmməd Caysi, Əkbərin sarayında ən birinci əyanlardan olan, Əkbərin qəyyumunun oğlu Əbdül Rəhim-xan-xanan, hindi dilində yazan şöhrətli şairlərdən idilər; xan-xanan ərəb, fars və sanskrit dillərini bilirdi və hindi dilində yazan görkəmli şair idi. Bir zaman o, imperator ordusunun baş komandanı olmasına baxmayaraq daim Əkbərə qarşı mübarizə aparan və axıradək ona tabe olmayan Mevarlı Rana Pratapanı öz əsərlərində tərifləyirdi. Xan-xanan özünün bu mübariz düşməninin vətənpərvərliyinə, onun yüksək cəngavərlik hissiyyatına heyran olub onu son dərəcə tərifləyirdi.

Əkbər öz siyasətini məhz belə cəngavərlik və dostluq münasibətləri üzərində qururdu və onun bir çox məşvərətçiləri, nazirləri də belə siyasət aparırdılar".

Ə.Səidzadə Mirzə Əbdürrəhim xanın ailəsi haqqında maraqlı hadisələri qələmə almışdır. O, Ataga xanın qizi Mah Banu ilə ailə həyatı qurmuş, altı oğlu, üç qızı dünyaya gəlmişdir. Mah Banu gənc yaşlarında 1596-cı ildə Ambelada dünyasını dəyişmişdir. Mirzə Əbdürrəhim xanın Şahbaz xan, Darab, Rəhman, Əmrulla,



Heydərqulu, Qaran adlı altı oğlu olmuşdur. Darab atasının sağlığında ikən məlum olmayan səbəblər üzündən 1625-ci ildə edam edilmişdir. Onun bir qızının adı Canan bəyimdir.

Canan bəyim (...–1659) şahzadə Daniyalla ailə həyatı qurmuşdur. Həyat yoldaşının vəfatından sonra onunla evlənmək istəyən Babur imperatorluğunun hökmdarı Cahangir şaha rədd cavabı vermiş, heç bir zaman ailə qurmamaşdır. Onun tərcümeyi-halı dəfələrlə Hindistanda çap edilən məşhur qadınlara aid kitablara daxil edilmiş, adi ehtiramla xatırlanmışdır. O, şairə olmaqla yanaşı, eyni zamanda Qurana da şərh yazmışdır.

Canan bəyim haqqında Əliəjdər Səidzadənin "Orta əsrlərdə Azərbaycanın Hindistanla mədəni əlaqələri tarixindən" (Bakı, 1958) adlı kitabında qısa məlumat verilmişdir.

Əlişəkər bəy Baharlının nəslindən olan Əmir Məhəmməd bəy Baharlı, Mahmud bəy Baharlı, Xan Vəli bəy Baharlı Səfəvi hökmdarları I Şah İsmayılın, Şah Təhmasibin, II Şah İsmayılın, I Məhəmməd Xudabəndənin hakimiyyətləri illərində ölkənin adlısanlı əmirləri olmuşlar.

Əmir Məhəmməd bəy Baharlı I Şah İsmayılın hakimiyyəti illərində Bəlxin valisi olmuşdur. Osmanlı sultanı Səlimə qarşı 1514-cü ildə Çaldıran döyüşündə iştirak etmişdir.

Mahmud bəy Baharlı Şah Təhmasibin, II Şah İsmayılın, I Məhəmməd Xudabəndənin hakimiyyətləri illərində saray əyanı olmuşdur. II Şah İsmayılın ölüm xəbərini ilk dəfə Herata o çatdırmış, I Məhəmməd Xudabəndənin hakimiyyətə gətirilməsində əsas rol oynamışdır.

Xan Vəli bəy Baharlı I Şah Təhmasibin əmiri olmuşdur. I Şah Təhmasibin vəfatından sonra səfəvi şahzadələri arasında hakimiyyət uğrunda gedən mübarizədə II İsmayılın tərəfdarı olmuş, onun hakimiyyətə gətirilməsində yaxından iştirak etmişdir.

XVI əsrdə yaşamış Həsən bəy Şəkər oğlu Əlişəkər bəy Baharlının kötücəsidir. Məhəmmədəli Tərbiyətin tədqiqatlarına istinadən o, ana tərəfdən Qaraqoyunlu hökmdarı Cahanşahın nəslindəndir. Şair, xəttat, musiqişünas olmuşdur. "Müqimi" təxəllüsü ilə şeirlər yazmışdır. Babur imperatorluğunun hökmdarı Əkbər şahın

hakimiyyəti dövründə Hindistana getmiş (1588), onunla qohum olan Dekan valisi Mirzə Əbdürrəhim xanın sarayında xidmət etmişdir.

Mirzə Vəli bəy Bayramxan bəy oğlu Baharlı (1725-1795) gənclik illərində Qarabağ xanlığının qurucusu Pənahəli xanın sarayında xidmət etmiş, onun etibar etdiyi, güvəndiyi saray əyanlarından biri olmuşdur. Bəzi tarixi faktlara istinadən belə qənaətə gəlmək olar ki, Pənahəli xan Kərim xan Zəndin dəvəti ilə Şiraza gedərkən özü ilə apardığı yaxın adamları sırasında Mirzə Vəli bəy Baharlı da var idi. Sonralar Mirzə Vəli bəy Baharlı Pənahəli xanın yerinə taxta çıxmış oğlu İbrahimxəlil xanın etibarını qazanmış saray əyanlarından biri olmuşdur. O, İbrahimxəlil xanın inandığı, arxalandığı, təcrübəli dövlət adamlarından sayılmış, xanlığın bütün məsələlərinin həllində onun verdiyi ağıllı məsləhətlər də əsas rol oynamışdır. Məhz bu istedadına, etibarına görə Mirzə Vəli bəy Baharlı Qarabağ xanlığının vəziri rütbəsinə qədər yüksəlmiş, bir sıra diplomatik danışıqlarda xanlığı layiqincə təmsil etmişdir.

Mirzə Vəli bəy Baharlı İbrahimxəlil xanın tapşırığı ilə elçi sifəti ilə İrana Ağa Məhəmməd şah Qacarın yanına göndərilmiş, lakin bəzi siyasi səbəblər üzündən İran hökmdarı tərəfindən qətlə yetirilmişdir. Qarabağa aid salnamə müəllifləri Mirzə Camal Cavanşir Qarabağinin, Rzaqulu bəy Vəzirovun, Məhəmmədəli bəy Vəlizadənin yazdıqlarına istinadən Mirzə Vəli bəy Baharlı Tehranda döyüş topunun lüləsinin ağzına bağlanılaraq işgəncə ilə öldürülmüşdür.

Mirzə Vəli bəy Baharlı incə ruhlu şair kimi də tanınmışdır. Rəvayətə görə, Molla Pənah Vaqif saraya Mirzə Vəli bəy Baharlının təklifi ilə dəvət edilmişdir.

Mirzə Vəli bəy Baharlının Mirzə Haşım bəy, İbrahim bəy, İmamverdi bəy, Hacı Həsənəli bəy adlı oğlanları olmuşdur.

Mirzə Haşım bəy, İbrahim bəy mükəmməl mədrəsə təhsili almış, ərəb, fars dillərini bilmiş, Qarabağ xanları İbrahimxəlil xanın, Mehdiqulu xanın hörmət etdiyi, inandığı əsilzadələrdən sayılmışlar.



Mirzə Haşım bəy Baharlıya qeyri-adi istedadına, qabiliyyətinə görə Zərrinqələm adını vermişlər.

İbrahim bəy Baharlı (1763-1836) Çar Rusiyası dövründə də hörmətli şəxslərdən sayılmış, Qarabağın ictimai həyatında aparıcı rol oynamışdır. 1823-cü ilə aid arxiv sənədində İbrahim bəyin ictimai həyatdakı mövqeyi barədə yazılmışdır.

XIX-XX əsrlərdə Azərbaycanın ictimai, elmi-mədəni həyatında yaxından iştirak etmiş çar ordusunun zabiti, bir çox xalq qəhrəmanlarını, günahsız insanları azğınlaşmış rus və erməni xainlərinin əlindən xilas etmiş Mirzə İsmayıl bəy İbrahim bəy oğlu Vəliyev (Baharlı) (1798-1863), ictimai xadim, tərcüməçi Mirzə Məhəmmədhəsən bəy Hacı Həsənəli bəy oğlu Vəliyev (1822-1882/83), şair, tərcüməçi, publisist Məhəmmədəli bəy Məşədi Əsədulla bəy oğlu Vəlizadə (Məxfi) (1831-1891), şair Abdulla bəy Məşədi Əsədulla bəy oğlu Vəlizadə (1841-1912), şair, tərcüməçi, həvəskar aktyor Nəcəfqulu bəy Mirzə Məhəmmədhəsən bəy oğlu Vəliyev (Şeyda) (1858-1937), aktyor, rejissor Əbülfət bəy Mirzə Məhəmmədhəsən bəy oğlu Vəli (1874-1918),, 1937-ci ildə qətlə yetirilmiş görkəmli dövlət xadimi, ensiklopedik alim Məhəmmədhəsən bəy Nəcəfqulu bəy oğlu Vəliyev (Baharlı) (1896-1937), Ağdamın I Baharlı kəndində yeni tipli məktəbin əsasını qoymuş, 1937-ci il repressiya qurbanı Cabbar bəy İsmayıl bəy oğlu Vəlibəyov (Baharlı) (1893-1941), milli fəlsəfi irsimizin əvəzolunmaz tədqiqatçısı, AMEA-nın müxbir üzvü, fəlsəfə elmləri doktoru, professor Zakir Cabbar bəy oğlu Məmmədov (Baharlı) (1936-2003), əməkdar müəllim Vəli Abdulla bəy oğlu Vəlizadə (1911-1983), tarixçi-alim Sulduz Mahmud bəy oğlu Rüstəmov (1912-1969), coğrafiya elmləri doktoru, professor Xostan Kərbəlayi Ələsgər bəy oğlu Vəliyev (1932-2008) və başqaları Əlişəkər bəy Baharlının oğlu Pirəli bəylə Qara İsgəndərin qızının nəslinin layiqli xələflərindəndirlər. Bu nəsildən olan tanınmış yazıçı-jurnalist Məhəmməd Baharlı, coğrafiya elmləri doktoru, professor Zahid Məmmədov, iqtisad elmləri namizədi Çingiz Vəlizadə hazırda Azərbaycanın sayılan ziyalılarındandırlar.

## QARAQOYUNLU DÖVLƏTİNİN ƏSASINI TƏŞKİL ETMİŞ TAYFALAR

**Sədlu tayfası.** Tayfa adını Əmir Sədin adından götürmüşdür. O, Qaraqoyunlu hökmdarları Qara Məhəmmədin və onun oğlu Qara Yusifin adlı sanlı əmirlərindən biri idi. Faruq Sümər Qaraqoyunluların əsas dayaqlarından sayılan Sədlu tayfası haqqında yazırdı: "Bu tayfa öz adını XIV əsrdə (ehtimal ki, həmin əsrin ortalarında və yaxud ikinci yarısının əvvəllərində) tayfa başçısı və əmiri Sədin adından almışdır. Bu bəyin Qaraqoyunlu ailəsi ilə qohum olması bildirilir. Çünki İranlı müəlliflər Sədin övladlarının Qaraqoyunlu hökmdarlarının əmisi oğlanları olmasını yazırlar. Hafiz Əbrunun qeyd etdiyi kimi Naxçıvanın və Sürməlinin ətrafı bu tayfanın qədim məskənlərindən idi. XV əsrdən etibarən tarixi qaynaqlarda adı çəkilən bu tayfanın adı Səfəvilər dövründə İrəvan və üç əyaləti əhatə edən məntəqələrə verilməklə Çuxursəd sözü meydana gəlmişdir."

Pir Məhəmməd bəy Qara Yusifin, Qara İsgəndərin adlı-sanlı əmiri olmuş, Qaraqoyunlu ordusunun tərkibində Teymurilərə qarşı döyüşlərdə iştirak etmişdir.

O, 1410-cu ildə Təbriz yaxınlığında Şənbi-Qazan adlı yerdə Qaraqoyunlu ordusunun tərkibində Cəlairi Sultan Əhmədlə döyüşmüşdür. Qara Yusifin vəfatından sonra Qara İsgəndərin tərəfdarı kimi Teymurilərlə Aləşkərd yaxınlığında baş vermiş döyüşdə iştirak etmişdir. Ağqoyunlularla döyüşlərin birində Qara Yuluk Osmana əsir düşmüş, bir müddət əsir həyatı yaşamışdır [38, 62-68].

Pir Məhəmməd bəyin qardaşı Pir Üveys bəy Qaraqoyunlu əmiri olmuş, döyüşlərin birində Qara Yuluk Osmana əsir düşmüşdür [38, 70].

Pir Məhəmməd bəyin Pir Qayb bəy adlı oğlu olmuşdur. O, Qara İsgəndərin əmiri olmuş, Ağqoyunlularla döyüşlərin birində Əli bəyə əsir düşmüşdür [38, 70].

Pir Hüseyn bəy Qara Yusifin, Qara İsgəndərin, Cahanşahın hakimiyyətləri illərində Qaraqoyunlu əmiri olub, tayfanın başçısı idi. Teymurilərə, Cəlairilərə qarşı hərbi əməliyyatlarda iştirak etmişdir. Cahanşah Astarabadı tutduqdan sonra şəhərin idarəsini ona tapşırmışdır. O, Hüseyn Baykara tərəfindən qətlə yetirilmişdir [25, 24].



Sarı Pirəli bəy Qaraqoyunlu əmiri idi. Cahanşah Bağdadı tutanda, o Dəclədə boğularaq həlak olmuşdur. Onun Mirsübhan bəy və Əmir bəy adlı iki oğlu olmuşdur. Mirsübhan bəy və Əmir bəy Ağqoyunluların hakimiyyəti dövründə Uzun Həsənin adlı-sanlı əmirlərindən sayılmışdılar [25, 24].

Alovxan bəy Pirhüseyn bəyin nəvəsidir. O, Səfəvi hökmdarı Şah Təhmasibin zamanında kiçik əmir idi [25, 24].

Sədlu tayfasının ən böyük əmirlərindən biri Fərhad xandır. Səfəvi hökmdarı I Şah Abbasın hakimiyyəti illərində xanlar xanı idi. Mühüm dövlət məsələlərinin həllində, hakimlərin təyin edilməsində, çıxarılmasında əsas rol oynamışdır.

I Şah Abbasın əmri ilə Fərhad xan 1598-ci ildə Xorasanı tutmuş özbəklərə qarşı yürüş etmiş, lakin bacarıqsızlıq göstərərək döyüşü yarımçıq qoyub qaçmışdır. I Şah Abbas özbəkləri məğlub etdikdən sonra Fərhad xanı bağışlamış, onu Herata hakim təyin etmişdir. O, bu vəzifədən imtina etdiyinə görə şahın qəzəbinə gəlmişdir [25, 24].

Fərhad xanın qardaşı Ərdəbil hakimi Zülfüqar xan da I Şah Abbasın əmirlərindən olmuş, əliaçıq şəxs kimi tanınmışdır [25, 24].

**Qaramanlı tayfası.** Bu tayfa öz adını Əmir Qaraman bəyin adından götürmüşdür. Əmir Qaraman bəy Qaraqoyunlu dövlətinin qurucusu Qara Yusifin hakimiyyəti dövründə Gəncə və Bərdə hakimi olmuş, sonralar onun tərəfindən əmirülümərа təyin edilmişdir. O, Qaraqoyunlu ordusunun tərkibində 1412-ci ildə Şirvanşah I İbrahimə qarşı baş vermiş döyüşdə qəhrəmanlıqlar göstərmişdir [25, 24]. Əsir düşmüş Şirvanşah I İbrahimin və övladlarının azad edilməsini hökmdardan xahiş etmişdir [21, 49].

Qara Yusif vəfat edəndə o, Qaraqoyunlu hökmdarının yanında idi. Əmir Qaraman bəy Qara Yusifdən sonra dağılmaq təhlükəsi qarşısında qalmış Qaraqoyunlu dövlətinin möhkəmlənməsinə çalışsa da gözlənilmədən dünyasını dəyişmişdir [62, 128].

Yarməhəmməd bəy Qaraqoyunlu hökmdarı Qara Yusifin zamanında bu tayfanın tanınmış əmirlərindən idi [25, 24]. O, Gəncə hakimi olmuşdur [21, 49].

Piri Qaraman Qaraqoyunlu hökmdarları Qara İsgəndərin, Cahanşahın hakimiyyətləri illərində tanınmış əmir olmuşdur [25, 24].

Qaramanlı tayfasından olmuş Bəxtiyar bəy, Qasım bəy Cahanşahın hakimiyyəti dövründə onun nüfuzlu əmirlərindən sayılmışlar.

Əvvəllər Uzun Həsənin əmiri olmuş Bəxtiyar bəyin Cahanşahın tərəfinə keçməsi Ağqoyunlu başçısının narazılığına səbəb olmuşdur. Uzun Həsənin əmri ilə Sufi Xəlil Mosullu Bəxtiyar bəy və onun iki yüz nəfər döyüşçüsünü məğlub etmiş, Bəxtiyar bəy öldürülmüşdür [25, 24].

Faruq Sümərin tədqiqatlarına görə, Ağqoyunlulara tabe olmaq istəməyən Qaramanlılar Şeyx Cüneyd və övladlarının tərəfinə keçmiş, Səfəvi hökmdarları dövründə nüfuzlu əmirləri ilə tanınmışdır [63, 27].

Qaramanlı tayfasının tanınmış əmiri Bayram bəy Şah İsmayılın hakimiyyəti illərində Bəlxin valisi idi. O, Səfəvi şahının bacısı ilə ailə həyatı qurmuşdur. Bayram bəy Nəcm-i Sani ilə birlikdə Qicduvanda həlak olmuşdur [25, 24].

Azərbaycanın Yevlax, Göyçay, Salyan rayonlarındakı Qaraman, Qaramanlı kəndlərinin adları Qaramanlı tayfasının adından götürülmüşdür.

**Alpaut tayfası.** Bu tayfa Qaraqoyunluların əsas dayaqlarından biridir. Professor Faruq Sümərin tədqiqatlarına istinadən Alpaut sözünün mənası "təkbaşına düşmənə hücum edən" deməkdir. Qaraqoyunlu dövlətinin qurucusu Qara Yusifin zamanında Həmədan bölgəsi bu tayfanın bəylərinin əlində idi.

Alpaut tayfasının nüfuzlu əmirlərindən Qaraxan bəy və Sərxan bəy qardaşları Qara Yusifin, Qara İsgəndərin hakimiyyətləri dövründə yaşamışlar. Qaraxan bəy Həmədan hakimi idi [25, 24; 38, 63]. Hər iki qardaş Qara İsgəndərin tərəfdarı kimi 1421-ci ildə



Təbriz yaxınlığında Aləşkərt çölündə teymurilərə qarşı döyüşdə iştirak etmişdir [38, 69].

Qaraqoyunlu Qara İsgəndərin hökmranlığı zamanında Alpaut tayfasının tanınmış əmirlərindən biri də Yaqub bəy idi. Yaqub bəy Cahanşah hakimiyyətə gəldikdən sonra da Qaraqoyunlu əmiri olmuşdur [25, 24].

Yaqub bəyin övladları Pir Məhəmməd bəy, Rüstəm bəy Təvaçi Qaraqoyunlu hökmdarı Cahanşahın hakimiyyəti illərində nüfuzlu əmirlərdən sayılmışlar [25, 24].

Qaraqoyunlu şahzadələri Pirbudağın, Həsənəlinin ataları Cahanşaha qarşı qiyamlarının yatırılmasında Pir Məhəmməd bəy də iştirak etmişdir [62, 389; 38, 192-195].

Pir Məhəmməd bəy, Rüstəm bəy Ağqoyunlularla döyüşdə Uzun Həsənə əsir düşmüş, lakin bir müddətdən sonra azad ola bilmişlər [38, 227-229].

Cahanşah Pirbudağın ölümündən sonra Bağdadın idarəsini ona tapşırmış, Ağqoyunlu Uzun Həsənlə döyüşdə iştirak etmişdir. O, 1467-ci ildə dünyasını dəyişmişdir [25, 22].

Rüstəm bəy Təvaçi 1467-ci ildə Muş düzündə baş vermiş döyüşdə Uzun Həsənə əsir düşmüşdür [25, 24].

Qaraqoyunlu dövlətinin süqutundan sonra Alpaut tayfasının bəyləri Ağqoyunlu hökmdarlarının zamanında tanınmış əmirlər olmuşlar.

Pir Məhəmməd bəy Sani Uzun Həsənin hakimiyyəti illərində Ağqoyunlu əmiri idi. O, 1473-cü ildə Ağqoyunlularla Osmanlılar arasında Tərcan yaxınlığında uğursuz döyüşdə iştirak etmiş, hökmdarın həyatını xilas etmək üçün özünü Uzun Həsən kimi tanıtmışdır. Osmanlı sultanı II Məhəmməd Fatehin əmri ilə Pir Məhəmməd bəy Sanı Tokat qalasında həbs edilmişdir [25, 22].

Məhmad bəy Ağqoyunlu hökmdarı Sultan Xəlilin zamanında əmir olmuşdur.

Alpaut tayfasının tanınmış əmiri Hacı bəy Ağqoyunlu Əlvən Mirzənin dövründə Fars valisi idi.

Səfəvi hökmdarlarının hakimiyyətləri dövründə Alpaut tayfası Çuxursəd və Şirvan ətraflarında yaşamışlar [63, 28].

Azərbaycanın Bərdə, Qazax, Goranboy, Göyçay, Laçın, Ucar rayonlarında Alpaut tayfasının adını daşıyan kəndlər vardır.

**Hacılı tayfası.** Bu tayfa Kərkük-Ərbil tərəflərdə yaşamışdır [63, 30].

Hacılı tayfasının XV əsrdə yaşamış ən böyük əmiri İlyas Hacılıdır. Əmir İlyas Hacılı Qaraqoyunlu dövlətinin qurucusu Qara Yusifin nüfuzlu əmirlərindən olmuşdur. Qara Yusif Əmir İlyas Hacılını Ağqoyunlu Qara Yuluq Osmanın hücumu ilə əlaqədar Ərzincan hakimi Pir Ömər bəyin köməyinə göndərmiş, iyirmi gün davam etmiş döyüş Qaraqoyunluların qələbəsi ilə başa çatmışdır [62, 120; 38, 63].

XVI əsrdə yaşamış Şahəli bəy, Kor Seyid Hacılı tayfasının tanınmış əmirlərindəndir [25, 22].

**Duxarlı tayfası.** Bu tayfanın bəyləri Ərzurum-Bayburt ətrafında yaşamış, Qaraqoyunlu dövlətinin siyasi fəaliyyətində əsas rol oynamışlar [63, 26].

Qaraqoyunlu dövlətinin qurucusu Qara Yusifin, onun oğlu Qara İsgəndərin hakimiyyətləri dövründə tayfanın nüfuzlu əmiri Pir Əhməd bəy idi [63, 26].

İsgəndər bəy, Şah Məhəmməd bəy Cahanşahın hakimiyyəti illərində tayfanın tanınmış əmirləri sayılmışlar [38, 227-288].

İsgəndər bəy Muş düzündə baş vermiş döyüşdə Ağqoyunlu Uzun Həsənə əsir düşmüş, bir müddət həbsxana həyatı yaşamışdır [38, 227].

Şah Məhəmməd bəy Qaraqoyunlu hökmdarları Cahanşahın, Həsənəlinin tərəfdarı kimi ağqoyunlulara qarşı döyüşlərdə iştirak etmişdir [38, 288].

**Çakırlı tayfası.** Bu tayfanın adı Cəlairi Əmir Çakır bəyin adından götürülmüşdür. Əmir Çakır bəy sonralar Əmir Teymurun himayəsini qəbul etmiş, onun əmirlərindən biri olmuşdur. Əmir Çakırın bəyin Bistam bəy, Mənsur bəy, Məsum bəy adlı oğlanları olmuşdur. Onun vəfatından sonra yerinə oğlu Əmir Bistam bəy keçmişdir [63, 29].

Əmir Bistam bəy uzun illər Əmir Teymurun ordusunda Qara Yusifə qarşı döyüşmüşdür. Qara Yusif Qaraqoyunlu dövlətini



qurduqdan sonra onun əmirəlümərası olmuşdur [25, 22]. Qara Yusif əsir düşmüş Şirvanşah I İbrahimi onun xahişi ilə azad etmişdir [17, 49].

Onun Əmir Bəyazid bəy, Əbülfət bəy adlı iki oğlu olmuşdur [25, 22].

Əmir Bəyazid bəy Qaraqoyunlu hökmdarı Cahanşahın hakimiyyəti dövründə divan əmiri olmuşdur. Əmir Bəyazid bəy vəfat etdikdən sonra qardaşı Əbülfət bəy onun yerinə divan əmiri təyin edilmişdir [25, 22].

Cahanşaha qarşı Həsənəli bəyin qiyamının yatırılmasında Əbülfəth bəy də iştirak etmişdir [62, 389].

Əmir Bəyazid bəyin Ömər bəy, Əli bəy adlı oğlanları olmuş, Cahanşahın hakimiyyəti illərində adlı-sanlı əmirlər sayılmışlar.

Ömər bəy Cahanşahın, onun oğlu Həsənəli bəyin hakimiyyətləri illərində Qaraqoyunlu əmir olmuşdur. O, Qaraqoyunlu dövlətinin süqutundan sonra Əbu Səidin tərəfinə keçmiş, Teymurilərin ordusunda Ağqoyunlulara qarşı döyüşmüş, əsir düşmüşdür.

Əli bəy 1467-ci ildə Muş düzündə baş vermiş döyüşdə ağqoyunlulara əsir düşmüş, öldürülmüşdür [25, 22; 38, 229-279].

Çakırlı tayfası Ağqoyunlular, Səfəvilər dövründə öz varlıqlarını qoruyub saxlaya bilmişdir. Səfəvilər dövlətinin qurucusu Şah İsmayılın hakimiyyəti illərində Əli bəy bu tayfanın tanınmış əmiri idi [62, 29].

**Ayınlı tayfası.** Bu tayfa Şərqi Anadoluda yaşamışdır [63, 29].

Ayınlı tayfasının əmiri Bəyazid bəy Qaraqoyunlu dövlətinin qurucusu Qara Yusifin, onun oğlu Qara İsgəndərin hakimiyyətləri illərində tanınmış əmir olmuşdur. Ağqoyunlu Qara Yuluq Osman Ərzincana basqın edəndə Qara Yusif onu şəhərin hakimi Pir Ömər bəyin köməyinə göndərmişdir [62, 120; 38, 63].

Əmir Ərəbşah Cahanşahın hakimiyyəti dövründə divan əmiri olmuş, Ağqoyunlu Uzun Həsənlə döyüşlərdə iştirak etmişdir [62, 267].

## QARAQOYUNLU DÖVLƏTİNİN VARİSİ

Baharlıların Qaraqoyunlu dövlətindən sonra yaratdıqları ikinci qüdrətli dövlət Cənubi Hindistanda Qütbşahlar dövlətidir. Bu dövlətin qurucusu görkəmli dövlət xadimi, şair Sultan Quludur. Sultan Qulu Qaraqoyunlu hökmdarı Qara İsgəndərin kötücəsi, Əlvəndin nəticəsi, Pir Qulunun nəvəsi, Üveys Qulunun oğludur. O, 1444-cü ildə anadan olmuşdur. Görkəmli rus şərqşünası V.F.Minorskinin (1877-1966) tədqiqatına görə, Sultan Qulu Qaraqoyunlu dövlətinin hökmdarı Qara İsgəndərin nəslindəndir.

Görkəmli ingilis şərqşünası, professor K.E.Bosvortun tədqiqatına əsasən, Sultan Qulu Bəhmənli hökmdarı Sultan Mahmudun Telenqanda valisi idi. Telenqanın mərkəzi şəhəri Varanqal idi. Sultan Mahmudun hakimiyyətinin son illərində daxili çəkişmələr Bəhmənli dövlətini zəiflətmiş, Dekanda beş müstəqil dövlət yaranmışdır. Bu beş dövlətdən biri 1512-ci ildə Sultan Qulu Qütbşahın yaratdığı Qütbşahlar dövləti idi.

Orta əsrlərə aid tarixi qaynaqlara istinadən Sultan Qulu islamın şiə məzhəbindən olduğu üçün islam dini dövlət dini olmuş, ölkədə şiəlik geniş yayılmışdır. O, Səfəvilər dövlətinin qurucusu I Şah İsmayılın yaxın tərəfdarı idi. Sultan Qulunun göstərişi ilə şiə imamlarının adına xütbələr oxunduqdan sonra I Şah İsmayılın adına öz adından əvvəl dualar oxunmuşdur. Sultan Qulunun varisləri zamanında da Qütbşah hökmdarları Səfəvilərə münasibətdə eyni mövqedə dayanmışdılar.

Rus, hind şərqşünaslarının tədqiqatlarına görə, Sultan Qulunun hakimiyyətinin ilk illərində yaratdığı dövlətin paytaxtı Varanqal idi. Sonralar yeni paytaxt Qolkonda olmuşdur. Sultan Qulu Qolkondanın inkişafında və möhkəmlənməsində çox işlər görmüşdür. O, ölkədə abadlıq və quruculuq işləri aparmışdır. Sultan Qulu köhnə palçıq istehkamının bünövrəsində 120 metr yüksəklikdə qranit bir təpənin üstündə böyük, alınmaz qala tikdirmişdir. Qolkonda Teluqu dilində "Qolla Konda" sözündən olub "Çoban Təpə" mənasını ifadə edir. Bir müddət Məhəmmədnagar adlandırılmış bu şəhər



sürətlə böyümüş, Şərqin aparıcı şəhərlərindən biri kimi şöhrət qazanmışdır.

I Məhəmməd Qulu Qütbşahın hakimiyyəti dövründə 1591-ci ildə Musi Rivə çayının sahilində Heydərabad şəhəri salınmışdır. Qütbşahlar dövlətinin paytaxtı Heydərabad şəhərinə köçürülmüşdür.

Qütbşahlar dövlətinə səkkiz hökmdar başçılıq etmişdir. Sultan Qulu Qütbşah (1512-1543), Cəmşid Qulu Qütbşah (1543-1550), Sübhan Qulu Qütbşah (1550), İbrahim Qulu Qütbşah (1550-1580), I Məhəmməd Qulu Qütbşah (1580-1612), Sultan II Məhəmməd Qulu Qütbşah (1612-1625), Abdulla Qulu Qütbşah (1625-1672), Əbülhəsən Qütbşah (1672-1687) Qütbşahlar dövlətinin hökmdarları olmuşlar. I Məhəmməd Qulu Qütbşahın hakimiyyəti illəri Qütbşahlar dövlətinin qızıl dövrü hesab olunur. Bir neçə ay hakimiyyətdə olmuş yeddi yaşlı Sübhan Qulu Qütbşahı çıxmaq şərtilə Qütbşahlar dövlətinin hökmdarlarının zamanında elm, mədəniyyət, incəsənət sürətlə inkişaf etmişdir. Qütbşahlar dövründə elmin müxtəlif sahələrinə aid qiymətli əsərlər yazılmış, müxtəlif dillərdə şeir nümunələri yaranmış, tarixi şəxsiyyətlərin portretlərindən ibarət rəsm əsərləri meydana gəlmişdir. Hazırda Qütbşahlar dövrünə aid rəsm əsərləri dünya muzeylərində saxlanılır. Həmin illərdə ibtidai məktəblər açılmışdır. Təbəqədən asılı olmayaraq tələbələr üçün sarayda məktəblərin şəbəkəsi yaradılmışdır.

Heydərabadda 1595-ci ildə "Tibb məktəbi" ("مدرسة دار الشفاء") açılmışdır. Şahzadələr və sadə adamlar üçün tədris planı fərqli olmuşdur. Kollecdə Səfəvi müəlliflərinin yazdıqları kitablar dərs vəsaiti kimi istifadə edilmişdir. Kollecdə dərs deyənlərin əksəriyyəti əsasən Səfəvilər dövlətindən gəlmiş müəllimlər idi. "Tibb məktəbi" eyni zamanda xəstəxana idi. Xəstəxanada 400 xəstə pulsuz müalicə olunmuşdur. Xəstələrin müalicəsi və müayinəsi üçün Yunanıstandan, İtaliyadan, İran Körfəzindən həkimlər dəvət edilmişdir [76].

Sultan Qulu Qütbşah, Cəmşid Qulu Qütbşah, İbrahim Qulu Qütbşah, I Məhəmməd Qulu Qütbşah, Sultan II Məhəmməd Qulu Qütbşah, Abdulla Qulu Qütbşah, Əbülhəsən Qütbşah eyni zamanda

zəmanələrinin istedadlı şairlərindən sayılmış, müxtəlif dillərdə şeir nümunələri yazmışlar.

I Məhəmməd Qulu Qütbşah ərəb, fars, teluqu, dekani urdu dillərini mükəmməl bilmiş, fars, teluqu, dakani urdu dillərində isə şeirlər yazmışdır. O, fars və hind dillərini birləşdirib pəncab, ərəb və yerli dekani dialektində olan söz və ifadələrdən istifadə etdiyi üçün Dekani urdu dilinin memarı sayılır. Holi, Divali, Eid, Basant kimi hindlilərin qədim bayramlarına aid əsərlər yaratdığı üçün hind xalqının şairi kimi də tanınır. Hökmdar-şairin Allaha, Peyğəmbərə sitayiş olunmuş şeirləri ilə yanaşı, təbiətə, sevgiyə, sosial həyata aid şeirləri də vardır. Onun dakani urdu dilində yazdığı 1800 səhifəlik "Qütbşahın külliyyatı" ("كلیات قطب شاه") divanı bu günümüzə qədər gəlib çatmışdır. Bu qəzəllərdən, nəzmdən, məsnəvidən, qəsidələrdən, rübailərdən və qitələrdən ibarət 50 000 beytlik bir divandır [76]. Səlma Bənlinin yazdığı kimi urdu dilində ilk divan müəllifi I Məhəmməd Qulu Qütbşahdır.

Abdulla Qulu Qütbşah fars və urdu dillərində şeirlər yazmışdır [69, 96]. Onun külliyyatı əldə edilməmişdir. Onun 97 qəzəli və mərsiyəsi mövcuddur [74].

Qütbşahlar dövlətinin tarixində hökmdar olaraq babası I Məhəmməd Qulu Qütbşahdan sonra o, mərsiyə yazmış, 54 beytdən ibarət 4 mərsiyənin müəllifi idi [75].

Baharlıların Cənubi Hindistanda yaratdıqları Qütbşahlar dövlətinin hökmdarları yerli sakinlərin tarixinə, ədəbiyyatına, incəsənətinə qayğı ilə yanaşmış, hind şairlərinin, rəssamlarının öz xalqları qarşısındakı xidmətləri Baharlı tayfasının hökmdarları tərəfindən mükafatlandırılmışdır.

Qütbşahlar dövrünə aid tarixi abidələr Qütbşah qəbirləri kompleksindən, orta əsrlərə aid əhəmiyyətli 70 tikilidən ibarətdir. Qütbşah hökmdarlarının yüz yetmiş beş illik hakimiyyətləri dövründə 40 məqbərə, 23 məscid tikilmiş, bağlar salınmışdır. Qolkondada və Heydərabadda tikilmiş Cami məscidi, İbrahim məscidi, Çarminar məscidi, Çarkaman məscidi, Camay məscidi, Həzrəti Zeynalabdin məscidi, Məkkə məscidi, Həyat Baxşı Bəyim məscidi Qütbşahlar dövrünün tarixi abidələr sırasındadır. Sultan II Məhəmməd Qütbşahın hakimiyyəti illərində 1617-ci ildə inşasına başlanılmış Məkkə məscidi 77 ilə tikilmişdir. Bu gün Hindistanın ən böyük məscidlərindən biri sayılan Məkkə məscidinin tikintisi 1693-cü ildə Babur imperatorluğunun hökmdarı Aləmgirin hakimiyyəti dövründə başa çatmışdır. Rayas Nagar məscidi Abdulla Qulu Qütbşah dövrünə aid tarixi memarlıq abidələrindən biridir.



Heydərabad şəhərinin 12 km şərqində yerləşmiş Hayatnagar sarayında uşaq ikən Abdulla Qulunun on iki gün davam etmiş kiçik toy məclisi keçirilmişdir [73, 99].

Hindistanın orta əsrlərə aid tarixi abidələr sırasına Qolkonda qalasında Məkkə Darvaza, Fateh Darvaza, Moti Darvaza, Naya Gilə Darvaza, Patançetu Darvaza, Brahmi Darvaza adlarında nəhəng iri qapılar daxildir. Qütbşah hökmdarlarının Qolkonda qalası yaxınlığındakı İbrahim bağı adlı geniş bağçada inşa edilmiş məqbərələri orijinallığı və əzəməti ilə diqqəti cəlb edir. Məqbərələr şərq və türk memarlıq üslubuna uyğun tikilmişdir.

Qütbşahların hakimiyyəti dövründə demək olar ki, hər məqbərənin yaxınlığında məscid tikilmişdir. Onların arasında ən böyük və əzəmətli məscid Həyat Baxşı Bəyim məscididir. Qolkondanın bu tarixi abidəsi 1666-cı ildə tikilmişdir. On beş gümbəzli məscidin ibadət yeri iki hündür minarənin arasındadır [73, 99].

XVI-XVII əsrlərdə Qütbşahlar dövləti dünyanın ən əhəmiyyətli almaz istehsalçısı ölkələrindən biri kimi tanınmışdır. İlk almaz XVI əsrin əvvəllərində Qütbşahların idarəsi altında olmuş Krişna vadisində aşkar edilmişdir. XVII əsrdə Qolkonda bir müddət dünya almaz bazarının mərkəzi sayılmışdır.

Türk dünyasının qüdrətli dövlətlərindən sayılmış yüz yetmiş beş illik tarixə malik Qütbşahlar dövləti 1687-ci ilə kimi öz varlığını qoruyub saxlaya bilmişdir. Baharlıların Cənubi Hindistanda yaratdıqları Qütbşahlar dövlətinin tarixi zamanla öyrənildikcə qüdrətli dövlət kimi türk dünyasında layiqli qiymətini alacaqdır.

## QARAQOYUNLULARIN ADLARI İLƏ BAĞLI KƏNDLƏR

Azərbaycan Respublikasında Qaraqoyunluların adı ilə bağlı on iki kənd vardır. Qərbi Azərbaycan ərazisində də Qaraqoyunlulara aid bir neçə kənd yerləşir. Soy-kök etibarı ilə bu kəndlərin yerli əhalisi qaraqoyunlulara gedib çıxır.

XX əsrin əvvəllərində Azərbaycanda Baharlı adında 4 kənd, Qaraqoyunlu adı ilə bağlı 15 kənd qeydə alınmışdır.

Çar Rusiyası dövründə Cavanşir qəzasında Qaraqoyunlu (2), Qaraqoyunlu Salvar, Qarayusifli, Qaraovçular, Yusifli, Mirzəxan Qaraqoyunlu, Xan Qaraqoyunlu, Göyçay qəzasında Qaraqoyunlu, Gəncə qəzasında Qaraqoyunlu, Toqqalar Qaraqoyunlu, Tap Qaraqoyunlu, Zəngəzur qəzasında Qaraqoyunlu, Nuxa qəzasında Çay Qaraqoyunlu adlı kəndlər mövcud olmuşdur. Şuşa və Lənkəran qəzalarında Dilağarda kəndlərinin əhalisi qaraqoyunluların bir ailəsidir. Dilağarda sözü Qaraqoyunlu hökmdarı Cahanşah tərəfindən adlandırılmışdır [42, 52-53].

Azərbaycan Respublikası Dövlət Tarixi Arxivində saxlanılan 1823-cü ilə aid Qarabağ əyalətinin siyahıya alınmasına istinadən Xan ailəsinə mənsub Qaraqoyunlu (I Qaraqoyunlu-O.Z.B) kəndi 7 tüstüdən ibarət olmuş, vergi ödəyənlərin, ödəməyənlərin sayı göstərilmişdir. Kəndin 4 vergi ödəyəni ilə yanaşı, 2 vergi ödəməyəni də olmuşdur. Məmmədəli Qacarın, onun iki rəncbərinin adı vergi ödəməyənlərin siyahısında idi.

Azərbaycan Respublikası Dövlət Tarixi Arxivində saxlanılan əhalinin 1842, 1848, 1863 illərin siyahıya alınması sənədlərinə əsasən Çar Rusiyası dövründə I Qaraqoyunlu Yelizavetpol quberniyasının, Şuşa qəzasının kəndi kimi qeydə alınmışdır. 1848-ci ilin siyahıya alınmasında I Qaraqoyunlu kəndinin əhalisi Məmmədqasım ağanın oğlanları Paşa ağa, Kərim ağa və Qasım ağanın rəiyyətləri kimi siyahıya alınmışdır. 1873-cü ilin siyahıya alınmasına görə, I Qaraqoyunlu Gəncə qəzasının tərkibində göstərilmişdir. 1886-cı ilə aid siyahıya alınmada I Qaraqoyunlu Cavanşir qəzasının kəndi kimi qeydə alınmışdır.



I Qaraqoyunlu 1842-ci ildə 6 tüstüdən ibarət olmuşdur. Əhalisinin ümumi sayı 22 nəfərdən ibarət I Qaraqoyunluda 12 kişi, 10 qadın yaşamışdır. 1848-ci ildə isə yalnız kişilərin siyahıya alınması aparılmışdır. Aparılmış siyahıya alınmaya görə, 50 nəfər kişi sakini olmuş I Qaraqoyunlu 15 tüstüdən ibarət idi. 1863, 1873, 1886 illərdə kişilərin adı ardıcıllıqla siyahıya alınmış, qadınların yalnız sayı göstərilmişdir.

1863-cü ildə aparılmış siyahıya alınmaya əsasən I Qaraqoyunlu 16 tüstüdən ibarət olmuşdur. I Qaraqoyunluda əhalinin ümumi sayı təxminən 91 nəfər olmaqla 57 kişi, 34 qadın yaşamışdır. 1873-cü ilin siyahıya alınmasında 24 tüstüdən ibarət I Qaraqoyunlunun 83 sakini olmuşdur. 51 kişi siyahıya alınmış, 32 qadının sayı göstərilmişdir. 1886-cı ilin siyahıya alınmasına görə, I Qaraqoyunlu kəndi 22 tüstüdən ibarət olmuşdur. 110 nəfər əhalisi olmaqla 62 kişi, 38 qadın yaşamışdır. XIX əsrin ortalarında I Qaraqoyunlu kəndinin yüzbaşısı Baba Kəlbəli oğlu (1813-...) idi. Onun Əli adlı oğlu olmuşdur.

Azərbaycan Respublikası Dövlət Tarixi Arxivində saxlanılan 1823-cü ilə aid Qarabağ əyalətinin siyahıya alınmasına istinadən Əsəd bəyin rəiyyətləri olan Qaraqoyunlu (II Qaraqoyunlu-O.Z.B) kəndinin kəndxudası Rəhim ağa olmuşdur. Bu tarixi sənəddə Qaraqoyunlu kəndinin 29 tüstüdən ibarət olması yazılmış, vergi ödəyənlərin, ödəməyənlərin sayı göstərilmişdir. Kəndin 15 vergi ödəyəni ilə yanaşı, 14 vergi ödəməyəni də olmuşdur. Kəndxuda Rəhim ağanın, onun iki rəncbərinin, Kəndxuda Rəhim ağanın yaxın qohumu Mənsur ağanın, onun iki rəncbərinin, bir mollanın, üç maafin, 1 çayçının, üç yoxsul və dul adamın adı vergi ödəməyənlərin siyahısında idi.

Azərbaycan Respublikası Dövlət Tarixi Arxivində saxlanılan 1823-cü ildə Əsəd bəyin rəiyyətləri kimi yazılmış Qaraqoyunlu kəndinə aid başqa bir məlumatı olduğu kimi kitaba daxil edirik:

**Кочевые дают помещику 300 руб, ханскими деньгами и с них куллухи 7 руб 50 копеек, 2 батмана масла, 5 баранов, что составляло.................................................................**

**Сверх сего обязаны, по требованию, требованию давать подводы; а больше никаких повинностей не отбывали.**

Azərbaycan Respublikası Dövlət Tarixi Arxivində saxlanılan əhalinin, o cümlədən bəylərin 1842, 1848, 1863 illərin siyahıya alınması sənədlərinə əsasən Çar Rusiyası zamanında II Qaraqoyunlu Yelizavetpol quberniyasının, Şuşa qəzasının kəndi kimi qeydə alınmışdır. 1848-ci ilin siyahıya alınmasında II Qaraqoyunlu kəndinin əhalisi Əsəd bəy mayor Rüstəm bəy oğlunun rəiyyətləri kimi siyahıya alınmışdır. 1873-cü ilə aid siyahıya alınmada II Qaraqoyunlu Gəncə qəzasının kəndi kimi qeydə alınmışdır. Bu siyahıya alınmada kənd Qaraqoyunlu Salvar kimi göstərilmişdir. Qaraqoyunlu Salvar Starşina Məmməd Sarvar oğlunun (1788-1848) adı ilə bağlıdır. O, II Qaraqoyunlu kəndinin yüzbaşısı olmuşdur. Starşina Məmməd Sarvar oğlunun arvadının adı Xədicə, oğlanlarının adları Əziz, Süleyman, qardaşının adı Məmmədkazımdır. Məmmədkazımın (1793-1848) həyat yoldaşının adı Əminədir. Allahverdi, Bayram adlı iki oğlu olmuşdur.

II Qaraqoyunlu 1842-ci ildə 27 tüstüdən ibarət olmuşdur. Əhalisinin ümumi sayı 111 nəfərdən ibarət II Qaraqoyunluda 59 kişi, 42 qadın yaşamışdır. 1848-ci ildə isə yalnız kişilərin siyahıya alınması aparılmışdır. Aparılmış siyahıya alınmaya görə, 59 nəfər kişi sakini olmuş II Qaraqoyunlu 27 tüstüdən ibarət idi. 1863, 1873 illərdə kişilərin adı ardıcıllıqla siyahıya alınmış, qadınların yalnız sayı göstərilmişdir.

1863-cü ildə aparılmış siyahıya alınmaya əsasən II Qaraqoyunlu 17 tüstüdən ibarət olmuşdur. II Qaraqoyunluda əhalinin ümumi sayı təxminən 91 nəfər olmaqla 61 kişi, 40 qadın yaşamışdır. 1873-cü ilə aid siyahıya alınmada 16 tüstüdən ibarət II Qaraqoyunlunun 99 sakini olmuşdur. 71 kişi siyahıya alınmış, 28 qadının sayı göstərilmişdir.

Əbdürrəhim bəy Təhməzqulu bəy oğlu (1833-1863), qardaşı Hacı Kərim bəy (1838-...), Aslan bəy Rəhim bəy oğlu (1831-...), Məmməd bəy Qurban bəy oğlu (1823-1848), qardaşı Əli bəy (1833-1848) II Qaraqoyunlu kəndinin bəyləri olmuş, onların ailəsi,



övladları bu kənddə yaşamışlar. Mənsur bəyin oğlanları Nəbi bəy (1802-...), Mustafa bəy (1823-1848) II Qaraqoyunlu kəndinin bəylərindən sayılmışlar. Nəbi bəy Tükəzban xanımla evlənmiş, Qəhrəman bəy adlı oğlu, Aişə xanım adlı qızı dünyaya gəlmişdir. Mustafa bəy Yetər xanımla ailə həyatı qurmuşdur. Əmiraslan bəy Şahxanımla evlənmiş, Rüstəm bəy, Şahzeynəb xanım adlı iki övladı anadan olmuşdur. Rüstəm bəy 20 yaşında dünyasını dəyişmişdir.

Molla Yusif Molla İsmayıl oğlu (1803-1863), Molla Əli Məmməd oğlu (1833-...) bu kəndin din xadimlərindən olmuşlar.

Yuxarıda adları qeyd olunan bəy və din xadimlərinin siyahısı ayrıca deyil, əhalinin ümumi siyahıya alınmasında aparılmışdır.

Azərbaycan Respublikası Dövlət Tarixi Arxivində saxlanılan 1823-cü ilə aid polkovnik Cəfərqulu ağanın rəiyyətləri olan Qaraqoyunlu (III Qaraqoyunlu-O.Z.B) kəndin kəndxudası Həsən olmuşdur. Bu tarixi sənəddə Qaraqoyunlu kəndinin 17 tüstüdən ibarət olması yazılmış, vergi ödəyənlərin, ödəməyənlərin sayı göstərilmişdir. Kəndin 14 vergi ödəyəni ilə yanaşı, 3 vergi ödəməyəni də olmuşdur. Həsən Kəndxudanın, bir yetimin, bir dul adamın adı vergi ödəməyənlərin siyahısında idi.

Azərbaycan Respublikası Dövlət Tarixi Arxivində saxlanılan əhalinin 1842, 1848, 1863 illərin siyahıya alınması sənədlərinə istinadən Çar Rusiyası dövründə III Qaraqoyunlu Yelizavetpol quberniyasının, Şuşa qəzasının kəndi kimi qeydə alınmışdır. 1848-ci ilə aid siyahıya alınmada III Qaraqoyunlu kəndinin əhalisi Əsəd bəy Rüstəm bəy oğlunun rəiyyətləri kimi siyahıya alınmışlar. III Qaraqoyunlu 1873-cü ilin siyahıya alınmasında Gəncə qəzasının, 1886-cı ilin siyahıya alınmasında Cavanşir qəzasının kəndi kimi qeydə alınmışdır. 1886-cı ilə aid siyahıya alınmada bu kəndin əhalisi III Qaraqoyunlu yaxud Qaraqoyunlu Əsəd bəyin kəndinin rəiyyətləri adı ilə siyahıya alınmışlar.

III Qaraqoyunlu 1842-ci ildə 30 tüstüdən ibarət olmuşdur. Əhalisinin ümumi sayı 123 nəfərdən ibarət III Qaraqoyunluda 71 kişi, 52 qadın yaşamışdır. 1848-ci ildə isə yalnız kişilərin siyahıya alınması aparılmışdır. Aparılmış siyahıya alınmaya görə, 65 nəfər

kişi sakini olmuş III Qaraqoyunlu 21 tüstüdən ibarət idi. 1863, 1873, 1886 illərdə kişilərin adı ardıcıllıqla siyahıya alınmış, qadınların yalnız sayı göstərilmişdir.

1863-cü ildə aparılmış siyahıya alınmaya əsasən III Qaraqoyunlu 20 tüstüdən ibarət olmuşdur. III Qaraqoyunluda əhalinin ümumi sayı təxminən 119 nəfər olmaqla 64 kişi, 65 qadın yaşamışdır. 1873-cü ilə aid siyahıya alınmada 21 tüstüdən ibarət III Qaraqoyunlunun 114 sakini olmuşdur. 82 kişi siyahıya alınmış, 32 qadının sayı göstərilmişdir. 1886-cı ilin siyahıya alınmasına görə, III Qaraqoyunlu kəndi 20 tüstüdən ibarət olmuşdur. 70 nəfər əhalisi olmaqla 41 kişi, 29 qadın yaşamışdır.

XIX əsrin ortalarında Əsədulla Allahverən oğlu (1813-...) III Qaraqoyunlu kəndinin yüzbaşısı idi. Əsədulla Yüzbaşı Banu xanımla evlənmiş, Mustafa, İsmayıl, Gülbahar adlı övladları dünyaya gəlmişdir. Mustafa 7 yaşında yaşında vəfat etmişdir. Əsədulla Yüzbaşının Mehdi adlı qardaşı olmuşdur.

Nəsrulla bəyin oğlanları Xanlar bəy (1853-...), Adil bəy (1862-...), nəvələri Teymur bəy (1884-...), Şahmar bəy (1884-...), Molla İsmayıl, Molla Məhəmmədəli (1838-...) III Qaraqoyunlu kəndinin XIX əsrdə yaşamış bəylərindən, din xadimlərindən sayılmışlar.

Azərbaycan Respublikası Dövlət Tarixi Arxivində saxlanılan 1823-cü ilə aid Qarabağ əyalətinin siyahıya alınmasına istinadən Qarabağ xanı Mehdiqulu xanın rəiyyətləri olan Qaraqoyunlu (Xanqaraqoyunlu-O.Z.B) kəndinin yüzbaşısı Fətəli Yüzbaşı olmuşdur. Bu tarixi sənəddə Qaraqoyunlu kəndinin 53 tüstüdən ibarət olması yazılmış, vergi ödəyənlərin, ödəməyənlərin sayı göstərilmişdir. Kəndin 39 vergi ödəyəni ilə yanaşı, 14 vergi ödəməyəni də olmuşdur. Fətəli Yüzbaşının, onun iki yaxın qohumunun, iki mollanın, iki xidmətçinin, üç yoxsulun, üç dul adamın adı vergi ödəməyənlərin siyahısında idi. Hər il üç ay müddətinə xanın at ilxısına baxmaq üçün kənddən bir nəfər mehtər təyin edilmişdir.

Azərbaycan Respublikası Dövlət Tarixi Arxivində saxlanılan 1823-cü ildə Qarabağ xanı Mehdiqulu xanın rəiyyətləri kimi



yazılmış Qaraqoyunlu kəndinə aid başqa bir məlumatı olduğu kimi kitaba daxil edirik:

**Хану платили 30 червонцев, масла 5 батмана тилани, баранов 10, полстей 4, сыру 2 мешка. Шерсти 2 батмана тилани, подпруг 10. Обратив же все это на деньги полагая по средним ценам: масло батман – в 15 руб, х.д баран – в 7 руб, х.д , каждую полсть в 8 руб х.д, каждую мешок сыру в 8 руб х.д, шерсти батман в 10 руб х.д, и каждую подпругу в 2 руб х.д, и присоедини к сему куллуху и тагвилани : с каждого червонца в дань следующего, куллухи 50 копеек, и тагвилани 50 копеек, по столько же с каждого батмана масла, с барана одной куллухи 15 копеек, с каждой полсти по 50 копеек. одной куллухи, с каждого мешка сыра 50 копеек, и тагвилани 50 копеек, с каждого батмана шерсти одной куллухи по 50 копеек, составит всего на деньги.**

Azərbaycan Respublikası Dövlət Tarixi Arxivində saxlanılan əhalinin 1842, 1848 illərin siyahıya alınması sənədlərinə əsasən Çar Rusiyası zamanında Xanqaraqoyunlu Yelizavetpol quberniyasının, Şuşa qəzasının Qaraqoyunlu kəndi kimi qeydə alınmışdır. 1848-ci ilin siyahıya alınmasında Xanqaraqoyunlu kəndinin əhalisi General-mayor Mehdiqulu xanın qızı Xurşidbanu Natəvanın rəiyyətləri kimi siyahıya alınmışlar. 1863-cü ilin siyahıya alınmasında Xanqaraqoyunlu kəndi Cavanşir qəzasının Qaraqoyunlu kəndi adı ilə yazılmışdır. 1873-cü ilə aid siyahıya alınmada bu kənd Gəncə qəzasının tərkibində Xanqaraqoyunlu kimi göstərilmişdir. 1886-cı ilin siyahıya alınmasında Xanqaraqoyunlu Cavanşir qəzasının kəndi kimi qeydə alınmışdır. Həmin ildə aparılmış siyahıya alınmada bu kəndin əhalisi Xanqaraqoyunlu kəndinin əhalisi adı ilə siyahıya alınmışdır.

Xanqaraqoyunlu 1842-ci ildə 100 tüstüdən ibarət olmuşdur. Əhalisinin ümumi sayı 396 nəfərdən ibarət Xanqaraqoyunluda 245 kişi, 151 qadın yaşamışdır. 1848-ci ildə isə yalnız kişilərin siyahıya alınması aparılmışdır. Aparılmış siyahıya alınmaya görə, 310 nəfər kişi sakini olmuş Xanqaraqoyunlu 109 tüstüdən ibarət idi. 1863,

1873, 1886 illərdə kişilərin adı ardıcıllıqla siyahıya alınmış, qadınların yalnız sayı göstərilmişdir.

1863-cü ildə aparılmış siyahıya alınmaya əsasən Xanqaraqoyunlu 111 tüstüdən ibarət olmuşdur. Xanqaraqoyunluda əhalinin ümumi sayı təxminən 527 nəfər olmaqla 304 kişi, 223 qadın yaşamışdır. 1873-cü ilə aid siyahıya alınmada 179 tüstüdən ibarət Xanqaraqoyunlunun 946 sakini olmuşdur. 544 kişi siyahıya alınmış, 402 qadının sayı göstərilmişdir. 1886-cı ilin siyahıya alınmasına görə, Xanqaraqoyunlu kəndi 222 tüstüdən ibarət olmuşdur. 1112 nəfər əhalisi olmaqla 633 kişi, 379 qadın yaşamışdır. XIX əsrin ortalarında Xanqaraqoyunlu kəndinin starşinası Allahverdi Yahnəli oğlu (1810-...) idi. O, Tükəzbanla evlənmiş, Mahmud, Əslixan adlı övladlarıdünyaya gəlmişdir. Qardaşının adı Hacıdır.

Əhməd Əfəndi Məmməd oğlu, oğlu Molla Səməd, Səməd Əfəndi Mustafa oğlu, qardaşı Molla Mahmud, Molla Məhəmməd Nəsib Əfəndi oğlu, qardaşı Molla Həmid, Molla Allahverən Hacı Məmməd oğlu, Molla Tağı, Molla Əli, Molla Səid, Molla Məhəmməd, Molla Mustafa Xanqaraqoyunlu kəndinin XVIII-XIX əsrlərdə yaşamış din xadimlərindən sayılmışlar.

Azərbaycan Respublikası Dövlət Tarixi Arxivində saxlanılan 1823-cü ilə aid Qarabağ əyalətinin siyahıya alınmasına istinadən Qaraqoyunlu Mirzəxanlı kəndinin kəndxudası Mustafa ağa (1788-1848) olmuşdur. Mirzəxanlı adı Qaraqoyunlu sakini Mirzəxan ağanın adı ilə bağlıdır. Mustafa ağa Mirzəxan ağanın oğludur.

Bu tarixi sənəddə Qaraqoyunlu Mirzəxanlı kəndinin 15 tüstüdən ibarət olması yazılmış, vergi ödəyənlərin, ödəməyənlərin sayı göstərilmişdir. Kəndin 10 vergi ödəyəni ilə yanaşı, 5 vergi ödəməyəni də olmuşdur. Kəndxuda Mustafa ağanın, iki rəncbərin, bir yoxsulun, bir dul adamın adı vergi ödəməyənlərin siyahısında idi.

Azərbaycan Respublikası Dövlət Tarixi Arxivində saxlanılan 1823-cü ildə Qaraqoyunlu Mirzəxanlı kəndinin əhalisi kimi yazılmış bu kəndə aid başqa bir məlumatı olduğu kimi kitaba daxil edirik:



**В число 8 т. дани – 13 червонцев; отах-харджи – 5 червонцев. Что с присоединением куллухи и тагвилани составит всего ..........................................................................**

Azərbaycan Respublikası Dövlət Tarixi Arxivində saxlanılan əhalinin 1842, 1848 illərin siyahıya alınması sənədlərinə əsasən Çar Rusiyası dövründə Qaraqoyunlu Mirzəxanlı Yelizavetpol quberniyasının, Şuşa qəzasının kəndi kimi qeydə alınmışdır. Mirzəxanlı adı Qaraqoyunlu sakini Mirzəxan ağanın adı ilə bağlıdır. Qaraqoyunlu Mirzəxanlıda 1848-ci ildə ayrıca aparılmış bəylərin siyahıya alınmasına istinadən bu kənddə Əhməd ağa (1783-1848), Mustafa ağa (1788-1848), Əli ağa (1798-1848), İsmayıl ağa (1808-1848), Vəli ağa (1813-1848) adlı beş qardaş yaşamışdır. Bu beş qardaş Mirzəxan ağanın oğludur. Əhməd ağanın 5, Mustafa ağanın 4, Əli ağanın 2, İsmayıl ağanın 1, Vəli ağanın 1 oğlu olmuşdur.

Mirzəxan ağanın ikinci oğlu Mustafa ağanın kəndxudası olduğu II Qaraqoyunlu kəndində 1842-ci ildə aparılmış siyahıya alınmada 62 kişi, 57 qadın yaşamışdır. Həmin ildə bu kənddə 119 nəfər əhalidən ibarət 30 tüstü olmuşdur.

1886-cı ildə Qaraqoyunlu Mirzəxanlıda aparılmış bəylərin siyahıya alınmasına istinadən bu kənddə beş bəy ailəsi yaşamışdır. Abdulla ağa Əhməd ağa oğlu (1826-...), oğlu Şükür bəy (1861-...), Muradxan bəy Əli ağa oğlu (1848-...), oğlu Adil bəy (1880-...), Süleyman ağa Əli ağa oğlu (1836-...), oğlanları Əhməd ağa (1868-...), Əlipaşa ağa (Ələşrəf ağa) (1870-...), Ziyad bəy Vəli ağa oğlu (1849-...), oğlu Misir bəy (1871-...), Mehdi bəy İsmayıl ağa oğlu (1841-...), oğlu İsmayıl bəy (1866-...), qardaşı Məmməd bəy (1856-...), onun oğlu Dadaş bəy (1878-...), Səfər ağa (Teymur ağa) İbrahim ağa oğlu (1858-...) Qaraqoyunlu Mirzəxanlı kəndinin bəylərindən olmuş, Mirzəxan ağanın nəslinin övladlarıdırlar.

XVIII-XIX əsrlərdə Qaraqoyunlu Mirzəxanlıda Hacı Musa Əfəndi Mirzə Məmməd oğlu (1803-1848), Molla Allahverdi Hacı Məmməd Əfəndi oğlu (1800-1848), Səməd Əfəndi Molla Mustafa oğlu (1811-...), qardaşları Molla Mahmud (1808-1848), Molla Əbdürrəhim (1831-1848), Əhməd Əfəndi Məmməd Əfəndi oğlu (1788-1848) adlı din xadimləri və onların ailə üzvləri yaşamışlar.

1848-ci ilin siyahıya alınmasında Qaraqoyunlu Mirzəxanlı kəndinin əhalisi Məmməd ağanın rəiyyətləri kimi siyahıya alınmışlar. Qaraqoyunlu Mirzəxanlı 1863-cü ilin siyahıya alınmasında Cavanşir qəzasının, 1873-cü ilin siyahıya alınmasında Gəncə qəzasının, 1886-cı ilin siyahıya alınmasında Cavanşir qəzasının kəndi kimi göstərilmişdir.

Qaraqoyunlu Mirzəxanlı 1842-ci ildə 83 tüstüdən ibarət olmuşdur. Əhalisinin ümumi sayı 377 nəfərdən ibarət Qaraqoyunlu Mirzəxanlıda 222 kişi, 155 qadın yaşamışdır. 1848-ci ildə isə yalnız kişilərin siyahıya alınması aparılmışdır. Aparılmış siyahıya alınmaya görə, 339 nəfər kişi sakini olmuş Qaraqoyunlu Mirzəxanlı 136 tüstüdən ibarət idi. 1863, 1873, 1886 illərdə kişilərin adı ardıcıllıqla siyahıya alınmış, qadınların yalnız sayı göstərilmişdir.

1863-cü ildə aparılmış siyahıya alınmaya əsasən Qaraqoyunlu Mirzəxanlı 129 tüstüdən ibarət olmuşdur. Qaraqoyunlu Mirzəxanlıda əhalinin ümumi sayı təxminən 580 nəfər olmaqla 314 kişi, 266 qadın yaşamışdır. 1873-cü ilin siyahıya alınmasında 160 tüstüdən ibarət Qaraqoyunlu Mirzəxanlının 648 sakini olmuşdur. 391 kişi siyahıya alınmış, 257 qadının sayı göstərilmişdir. 1886-cı ilə aid siyahıya alınmaya görə, Qaraqoyunlu Mirzəxanlı kəndi 204 tüstüdən ibarət olmuşdur. 1038 nəfər əhalisi olmaqla 599 kişi, 429 qadın yaşamışdır.

Azərbaycan Respublikası Dövlət Tarixi Arxivində saxlanılan əhalinin 1863-cü ildə aparılmış siyahıya alınmasına əsasən Qarayusifli kəndi Yelizavetpol quberniyasının, Cavanşir qəzasının, 1873-cü il siyahıya alınmasına görə, Gəncə qəzasının kəndi kimi qeydə alınmışdır. Qarayusifli kəndi 1863-cü ildə 8 tüstüdən ibarət olmuşdur. Əhalisinin ümumi sayı 55 nəfərdən ibarət Qarayusiflidə 34 kişi, 21 qadın yaşamışdır. 1873-cü ildə aparılmış siyahıya alınmaya əsasən 12 tüstüdən ibarət Qarayusiflinin əhalisinin ümumi sayı 78 nəfər olmuşdur. Həmin ildə aparılmış siyahıya alınmaya istinadən Qarayusiflinin 43 kişi, 35 qadın sakini olmuşdur.

XIX əsrin ortalarında Qarayusifli kəndinin yüzbaşısı Kərbəlayi Alməmməd Əhməd oğlu (1833-...) idi. Onun Gülməmməd (1825-...), Şahməmməd (1843-...) adlı qardaşları olmuşdur.



Azərbaycan Respublikası Dövlət Tarixi Arxivində saxlanılan 1823-cü ilə aid Qarabağ əyalətinin siyahıya alınmasına istinadən Dilağarda kəndi 20 tüstüdən ibarət olmuş, pul vergisi və başqa mükəlləfiyyətlər daşımışlar. 1823-cü ilə aid Dilağarda kəndi ilə bağlı başqa bir məlumatı olduğu kimi kitaba daxil edirik:

**В число 8 т. дани – 13 червонцев; отах-харджи – 5 червонцев; сальяна – 4 четверти пшеницы; ат арпаси – 2 чувала ячменя; масла 33 ½ стиля; баран 1, вместо быка 11 руб х.д., шерсти ягнячей 14 стилей; дров – 9 вьюков; Что с присоединением куллухи и тагвилани составит всего .......**

Azərbaycan Respublikası Dövlət Tarixi Arxivində saxlanılan müxtəlif illərdə aparılmış əhalinin, o cümlədən bəylərin, din xadimlərinin siyahıya alınması sənədlərinə istinadən Çar Rusiyası dövründə Dilağarda kəndi Yelizavetpol quberniyasının, Şuşa qəzasının kəndi kimi qeydə alınmışdır.

Dilağarda da 1842, 1849, 1863, 1873, 1886 illərdə əhalinin siyahıya alınması aparılmışdır. Dilağarda da aparılmış 1842-ci il siyahıya alınması istisna olmaqla kişilərin adı ardıcıllıqla qeydə alınmış, qadınların yalnız sayı göstərilmişdir.

Dilağarda 1842-ci ildə 50 tüstüdən ibarət olmuşdur. Əhalisinin ümumi sayı 165 nəfərdən ibarət Dilağarda da 96 kişi, 69 qadın yaşamışdır. 1849-cu ildə isə yalnız kişilərin siyahıya alınması aparılmışdır. Aparılmış siyahıya alınmaya görə, 142 nəfər sakini olmuş Dilağarda 54 tüstüdən ibarət idi. 1863-cü ilin siyahıya alınma sənədinə istinadən əhalisinin ümumi sayı 354 nəfər olmaqla 79 tüstüdən ibarət Dilağarda da 181 kişi, 173 qadın yaşamışdır. 1873-cü ildə Dilağarda 89 tüstüdən ibarət olmuşdur. Dilağarda da əhalinin ümumi sayı 673 nəfər olmaqla 328 kişi, 345 qadın yaşamışdır. 1886-cı ilə aid əhalinin siyahıya alınmasına görə, 710 sakini olmuş Dilağarda 107 tüstüdən ibarət idi. Həmin ildə Dilağarda da 380 kişi, 330 qadın sakin yaşamışdır.

Dilağarda da müxtəlif illərdə bəylərin və din xadimlərinin, onların ailə üzvlərinin siyahıya alınması aparılmış, illərə görə yaşları göstərilmişdir. 1849-cu ildə Dilağarda da aparılmış bəylərin siyahıya alınmasına əsasən kənd 3 bəy ailəsi olmaqla 9 kişidən ibarət

olmuşdur. 1863-cü ilə aid siyahıya alınmaya istinadən Dilağarda da 1 bəy ailəsi və onların ailə üzvləri yaşamışdır. 1886-cı ilin bəylərin siyahıya alınmasına görə, Dilağarda da 2 bəy, 1 din xadimi və 7 ailə üzvü yaşamışdır.

XVIII-XIX əsrlərdə Dilağarda kəndində Kazım bəy Ağahəsən bəy oğlu (1811-1880), oğlanları Muradxan bəy (1836-...), Ağahəsən bəy (1851-...), nəvələri Murtuza bəy (1866-...), Hacıağa bəy (1871-...), Ağa bəy (1876-...), Kazım bəy (1881-...), Kamran bəy (1874-...), qardaşı proporşik Hacıağa bəy (1824-1848), Lütfəli bəy Məhəmmədhəsən bəy oğlu (1812-....), qardaşı Abdulla bəy (1819-...) adlı bəylər yaşamışlar. Əmirxan bəy Novruzxan bəy oğlu (1789-...) Ağabəyim xanımla (1797-...) ailə həyatı qurmuşdur. Onun Əbdülhüseyn bəy (1819-...), Mirzəhüseyn bəy (1820-...) adlı iki oğlu, Hüsnü xanım (1836-...), Sənəm xanım (1836-...) adlı iki qızı dünyaya gəlmişdir.

Molla Məmmədbağır Molla Musa (1813-...), Molla Rza Əmirxan oğlu (1824-...) Dilağarda kəndinin din xadimlərindən sayılmışlar.

Azərbaycan Respublikası Dövlət Tarixi Arxivində saxlanılan əhalinin, eləcə də bəylərin, din xadimlərinin, maafların siyahıya alınması sənədinə əsasən Çar Rusiyası zamanında Qaraqoyunlu kəndi Yelizavetpol quberniyasının, Şamaxı qəzasının, Xançoban mahalının kəndi kimi qeydə alınmışdır. Çar hökuməti tərəfindən müxtəlif illərdə Azərbaycanda əhalinin, eləcə də bəylərin, din xadimlərinin, maafların siyahıya alınması aparılmışdır. Qaraqoyunlu 1832-ci ildə 112 ailədən ibarət olmuşdur. Əhalisinin ümumi sayı 722 nəfərdən ibarət Qaraqoyunluda 366 kişi, 356 qadın yaşamışdır. 1849-cu ildə isə yalnız kişilərin siyahıya alınması aparılmışdır. Aparılmış siyahıya alınmaya görə, 167 nəfər sakini olmuş Qaraqoyunlu 152 tüstüdən ibarət idi. 1864-cü ildə aparılmış siyahıya alınmaya əsasən Qaraqoyunlu 144 tüstüdən ibarət olmuşdur. Qaraqoyunluda əhalinin ümumi sayı təxminən 535 nəfər olmaqla 316 kişi, 319 qadın yaşamışdır.

Qaraqoyunluda müxtəlif illərdə bəylərin, din xadimlərinin, maafların və ayrıca onların ailə üzvlərinin siyahıya alınması aparılmış, illərə görə yaşları göstərilmişdir. 1849-cu ildə Qaraqoyunluda aparılmış bəylərin siyahıya alınmasına əsasən kənd 1 bəy ailəsi olmaqla 5 kişidən, 1 din xadimi ailəsi olmaqda 2 kişidən, 4 maaf ailəsi olmaqda 16 kişidən ibarət olmuşdur. 1863-cü ilə aid siyahıya alınmada Qaraqoyunluda 1 bəy, 4 din xadimi və onların ailə üzvləri yaşamışdır. 1863-cü ilin siyahıya alınmasına görə, maaflar 5 tüstüdən ibarət olmuşdur. 27 nəfər olmaqla 15 kişinin, 12 qadının sayı göstərilmişdir.

Hacı Süleyman bəyin oğlanları Qəhrəman bəy (1804-...), Nurməmməd bəy (1818-...), nəvələri Ağa bəy (1834-...), İsmayıl bəy (1837-...), Hidayət bəy (1840-...), Molla Rüstəm, Molla Musa Əfəndi Molla Məmməd oğlu (1799-...), Molla Ağakişi Molla Tahir oğlu (1804-...), Molla Məmməd Molla Mustafa oğlu (1819-...), Molla Rəhim Molla Cəbrayıl oğlu (1831-...), Molla Qədim Manaf oğlu (1840-...) XIX əsrdə yaşamış Qaraqoyunlu kəndinin bəylərindən və din xadimlərindən sayılmışlar.

Azərbaycan Respublikası Dövlət Tarixi Arxivində saxlanılan əhalinin siyahıya alınması sənədinə əsasən Çar Rusiyası zamanında Qaraqoyunlu kəndi Yelizavetpol quberniyasının, Şəki qəzasının kəndi kimi qeydə alınmışdır. Çar hökuməti tərəfindən müxtəlif illərdə Azərbaycanda əhalinin, eləcə də din xadimlərinin siyahıya alınması aparılmışdır. Qaraqoyunlu 1863-cü ildə 104 tüstüdən ibarət olmuşdur. Əhalisinin ümumi sayı 583 nəfərdən ibarət Qaraqoyunluda 332 kişi, 251 qadın yaşamışdır. 1873-cü ilə aid siyahıya alınmaya əsasən 115 tüstüdən ibarət Qaraqoyunlunun əhalisinin ümumi sayı 556 nəfər olmuşdur. Həmin ildə aparılmış siyahıya alınmaya istinadən Qaraqoyunluda 327 kişi, 229 qadın yaşamışdır. 1864-cü ildə aparılmış siyahıya alınmaya görə, Qaraqoyunluda 3 din xadimi və ailə üzvü yaşamışdır.

XIX əsrin II rübündə Qaraqoyunlu kəndinin yüzbaşısı Xəlil Molla oğlu (1833-...) idi. Xəlil Yüzbaşının İsa adlı oğlu, Məmməd, Qurban adlı qardaşları olmuşdur.

Molla Əsədulla, Mustafa əfəndi Sultanəli oğlu (1796-...), Molla Məmməd Yusif oğlu (1823-...), Molla Namaz Mehrəli oğlu

(1839-...) XIX əsrdə yaşamış Qaraqoyunlu kəndinin din xadimlərindən olmuşlar.

Azərbaycan Respublikası Dövlət Tarixi Arxivində saxlanılan əhalinin siyahıya alınması sənədinə əsasən Çar Rusiyası zamanında Durnalı Qaraqoyunlu kəndi Yelizavetpol quberniyasının, Gəncə qəzasının kəndi kimi qeydə alınmışdır. Durnalı Qaraqoyunlu 1873-cü ildə 24 tüstüdən ibarət olmuşdur. Əhalisinin ümumi sayı 108 nəfərdən ibarət Durnalı Qaraqoyunluda 62 kişi, 46 qadın yaşamışdır.

Molla İsmayıl, Molla Əhməd İsaq oğlu (1817-...), Molla Yolçu Kərbəlayi Əli oğlu (1842-...), XIX əsrdə Durnalı Qaraqoyunlu kəndinin din xadimlərindən olmuşlar.

Azərbaycan SSR-in inzibati-ərazi bölgüsü haqqında 1977-ci il yanvarın 1-nə olan vəziyyətə görə, Bərdənin Qaraqoyunlu kəndi Güloğlular kənd sovetinə, Qarayusifli kəndi Alpout kənd sovetinə, Mirzəxan Qaraqoyunlu kəndi Qaradəmirçi kənd sovetinə, Qubadlının Qaraqoyunlu kəndi Xocahan kənd sovetinə, Ağsunun Qaraqoyunlu kəndi Qaraqoyunlu kənd sovetinə, Qasım İsmayılovun (indiki Goranboy) Tap Qarqoyunlu, Qaşaltı Qaraqoyunlu kəndləri Tap Qarqoyunlu kənd sovetinə, Şəkinin Çay Qaraqoyunlu kəndi Suçma kənd sovetinə, Füzulinin Dilağarda, Qobu Dilağarda kəndləri Dilağarda kənd sovetinə, Araz Dilağarda kəndi Əhmədbəyli kənd sovetinə daxil idi.

**Qaraqoyunlu** Azərbaycan Respublikasının **Qubadlı rayonunun** Xocahan inzibati ərazi vahidində kənddir. Dağətəyi ərazidədir. XVIII əsrdə Xanqaraqoyunlu kəndindən (indiki Bərdə rayonunun Qaraqoyunlu kəndi) ayrılmış ailələr əvvəlcə Sayıflı kəndinin (Zəngilan rayonunu) yaxınlığında, Xanyeri deyilən yerdə məskunlaşmış, sonra isə indiki yerə köçərək Qaraqoyunlu kəndini salmışlar [7, 30].

Qaraqoyunlu kəndi Qubadlı rayon mərkəzindən 25 km cənubda, dəniz səviyyəsindən 1500 metr hündürlükdə səfalı bir yerdə yerləşir. Akara – Qubadlı magistiral yolundan 3 km, Bakı-Zəngilan dəmir yolu xəttindən isə 9 km aralıda yerləşir. Qaraqoyunlu kəndi Zəngilan rayonu İsgəndərbəyli və Muğanlı kəndləri ilə



həmsərhəddir. Kənddə bir məktəb, bir feldşer mama məntəqəsi, bir kitabxana fəaliyyət göstərirdi. Qaraqoyunlu kəndi ərazisində qədim ərazilər, Ağalı düzü, Qanqallı dərəsi, Kum dərəsi, İstiotlu dərəsi, Sultan qaya, Taya oddanan dərəsi, var idi. Kənd əhalisinin əsas məşğuliyyəti əkinçilik və maldarlıq olmuşdur. Qaraqoyunlu kəndi 1993-cü ildə Ermənistan Respublikası Silahlı qüvvələrinin işğalı altındadır.

**Dilağarda** Azərbaycan Respublikasının **Füzuli rayonunun** inzibati ərazi vahidində kənddir. Rayon mərkəzindən 13 km şimalda, Füzuli-Martuni şose yolundan 2 km Köndələnçayın (Arazın qolu) sol sahilindən 6 km aralı, Qarabağ silsiləsinin ətəyindədir. Oykonim qaraqoyunlu tayfa ittifaqına daxil olan dilağarda tirəsinin adı ilə bağlıdır. Etnotoponimdir. Əsasən maldarlıqla məşğul olan dilağardalılar əvvəllər Cənubi Azərbaycan və Talış zonasında yaşayırdılar. Sonralar onların bir hissəsi Azərbaycanın şimalında məskunlaşmışdır. Yayı Talış silsiləsində, qışı isə Muğanda keçirən dilağardalılar Araz Dilağarda, Qobu Dilağarda kəndlərinin də bünövrəsini qoymuşlar [6, 166; 2, 452].

Dilağarda, Qobu Dilağarda, Araz Dilağarda kəndləri 1993-cü ildə Ermənistan Respublikası Silahlı qüvvələrinin işğalı altındadır. İşğala qədər bu kəndlərdə orta məktəb, klub, kitabxana, tibb məntəqəsi fəaliyyət göstərmişdir. Üzümçülük, taxılçılıq və heyvandarlıq kəndin iqtisadiyyatının əsasını təşkil edirdi [2, 452].

**Dilağardatəpə** Füzuli rayonu ərazisində dağdır. Hündürlüyü. 162 metrdir. Bəzən səhv olaraq Dəliqarlıtəpə variantında da qeydə alınır. Dilağarda kəndi ərazisində olduğu üçün təpə kəndin adı ilə adlandırılmışdır [6, 166].

**Xanqaraqoyunlu** Azərbaycan Respublikasının Bərdə rayonunun Otuzikilər inzibati ərazi vahidində kənddir. Qarabağ düzündədir. Keçmiş adı Xanqaraqoyunlu olan bu kənd uzun müddət Qaraqoyunlu adlanmışdır. Kənddə tam orta məktəb vardır.

**Qarayusifli** Azərbaycan Respublikasının Bərdə rayonunun Alpout inzibati ərazi vahidində kənddir. Qarabağ düzündədir. Kəndi adı Qaraqoyunlu hökmdarı Qara Yusifin adı ilə bağlıdır. Kənddə tam orta məktəb, klub vardır.

**Mirzəxan** Azərbaycan Respublikasının Bərdə rayonunun Mirzəxan-Qaraqoyunlu inzibati ərazi vahidində kənddir. Qarabağ düzündədir. Kitabın əvvəlində qeyd edildiyi kimi bu kəndin adı XVIII-XIX əsrlərdə yaşamış Qaraqoyunlu Mirzəxan ağanın adı ilə bağlıdır.

Mənbələrin məlumatına görə, Şərqi Gürcüstanın tərkibində Rusiyaya birləşdirildikdən (1783) sonra Qazax mahalından Cəlilli, Boyəhmədli, Qazaxrəhimlər kəndləri ilə yanaşı bu kəndin əhalisi də 1795-ci ildə Qarabağa köçmüşdür. [7, 112].

Kənddə tam orta məktəb, mədəniyyət evi, uşaq bağçası-körpələr evi vardır.

**Tap Qaraqoyunlu** Azərbaycan Respublikasının Naftalan şəhərinin inzibati ərazi vahidində kənddir.

Yerli məlumata görə, yaşayış məntəqəsini XIX əsrin ortalarında indiki Ermənistan ərazisində mövcud olmuş Darlıq Qaraqoyunlu (indiki Krasnoselo rayonunda) və Pəmbək (indiki Qarqar rayonunda) kəndlərindən gəlmiş ailələr özlərinə məxsus binə yerində salmışlar. Kəndi qaraqoyunlu tayfasına mənsub ailələr Tap deyilən yerdə saldığına görə belə adlandırılmışdır [7, 232].

2010-cu ilin may ayına kimi bu kənd Goranboy rayonunun inzibati ərazi vahidində olmuşdur. "Azərbaycan Respublikasının Goranboy rayonunun və Naftalan şəhərinin inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 31 may 2010-cu il tarixli sərəncamı ilə Goranboy rayonunun Tap Qaraqoyunlu kənd inzibati ərazi dairəsi tərkibindəki Tap Qaraqoyunlu kəndinin ərazisindən bələdiyyə mülkiyyətində olan 133,84 ha torpaq sahəsi Naftalan şəhərinin inzibati ərazisinə verilmişdir.

Kənddə tam orta məktəb, klub fəaliyyət göstərir. Üzümçülük və heyvandarlıq kəndin iqtisadiyyatının əsasını təşkil edir.

**Qaşaltı Qaraqoyunlu** Azərbaycan Respublikasının Naftalan şəhər inzibati ərazi vahidində kənddir. Düzənlikdədir.

Qaşaltı Qaraqoyunlu sözü qaş (dağın təpəsinin bir qədər irəliyə çıxmış üstü, dağın döşü) və alt sözlərindən, həmçinin



Qaraqoyunlu etnotoponimindən ibarətdir. Kəndin adı "dağ qaşının alt tərəfindəki Qaraqoyunlu kəndi" mənasındadır [7, 43].

2010-cu ilin may ayına kimi bu kənd Goranboy rayonunun inzibati ərazi vahidində olmuşdur. "Azərbaycan Respublikasının Goranboy rayonunun və Naftalan şəhərinin inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 31 may 2010-cu il tarixli sərəncamı ilə Qaşaltı Qaraqoyunlu kəndi Naftalan şəhər inzibati ərazi vahidinin tərkibinə daxil edilmişdir.

Kənddə tam orta məktəb, mədəniyyət evi vardır.

**Qaraqoyunlu** Azərbaycan Respublikasının Ağsu rayonunun inzibati ərazi vahidində kənddir. XIX əsirin əvvəllərində 62 evdən ibarət Qaraqoyunlu kəndi Şirvan əyalətinin Xançoban mahalına daxil olmuşdur. Kənd XIX əsrin sonu -XX əsrin əvvəllərində Şirvan nəqşibəndiyyə təriqətinin mərkəzi olmuşdur.

Qaraqoyunlu kəndi Rayon mərkəzindən 10 km cənubi qərbdə, Ağsu-Kürdəmir şose yolundan 3 km aralı, Şirvan düzündədir. Kənddə tam orta məktəb, mədəniyyət evi, kitabxana fəaliyyət göstərir. Pambıqçılıq, taxılçılıq, heyvandarlıq, baramaçılıq və üzümçülük kəndin iqtisadiyyatının əsasını təşkil edir.

**Çayqaraqoyunlu** Azərbaycan Respublikasının **Şəki rayonunun** inzibati ərazi vahidində kənddir. Turan qəsəbəsinin tərkibində yerləşir. Rayon mərkəzindən 45 km cənubda, dağətəyi düzənlikdədir. [4, 299].

Kəndin ərazisində qədim dövrlərə aid olan qala vardır. El arasında bu qalaya Qız qalası da deyirlər. Rəvayətə görə, qədimdə bu qalanın üstündə məşəl yandırıb təhlükə barədə qonşu kəndləri xəbərdar edirmişlər. Kəndin qədim abidələrindən biridə kənd məscididir. Qədim dövrlərə aid olan abidələrdən biri də kəndin su dəyirmanıdır. Dəyirman təxminən 1873-cü ildə ildə fəaliyyətə başlamışdır.

Kənddə tam orta məktəb, klub, kitabxana fəaliyyət göstərir. Əkinçilik və maldarlıq kəndin iqtisadiyyatının əsasını təşkil edir. Kəndin ümumi sahəsi 2250 hektardır.

**Qaraqoyunlu** Azərbaycan Respublikasının Şəmkir rayonunun inzibati ərazi vahidində kənddir. Dağətəyi ərazidədir. Keçmiş adı Ağkənd olmuşdur. Yerli əhali arasında daha çox bu adla tanınır. Kəndi həmin rayondakı Dağ Cəyir kəndindən gəlmiş ailələr onlara məxsus binə yerində salmışlar. Yaşayış məntəqəsinə salındığı ərazidə torpağın üst qatının ağ rəngdə olduğuna görə Ağkənd adı verilmişdir. Köçüb gəlmə erməni ailələri burada yerləşdirildikdən sonra kənd Spitakşen adlandırılmışdır. Bu da Ağkənd adının erməni dilinə hərfi tərcüməsidir. 1990-cı ildən kəndin adı yenidən dəyişdirilərək Qaraqoyunlu adlandırılmışdır. Kənd sakinlərinin əksəriyyəti indiki Ermənistanın Qaraqoyunlu mahalından zorla köçürülmüşdür [7, 30-31].

Kənddə ümumi orta məktəb, klub fəaliyyət göstərir.

**Qərbi Azərbaycan** (indiki Ermənistan Respublikası) ərazisində Qaraqoyunlu adı ilə əlaqəli bir neçə kənd vardır. Qərbi Azərbaycan ərazisində Qaraqoyunlu adlı ilə bağlı kəndlər haqqında bütün məlumatlar mərhum filosof-alim Sabir Əsədovun tədqiqatlarına istinadən qələmə alınmışdır.

**Gölkənd** (Qaraqoyunlu) Krasnoselo (Qırmızıkənd) rayonunun (ilk adı Çəmbərək, XI Qırmızı Ordunun şərəfinə Qırmızı kənd adlandırılmışdır) kəndidir. Rayon mərkəzindən 16 km cənub-qərbdə, Tərsa (Gedik) çayının sağ sahilində yerləşir. Meyvə bağları, mülayim iqlimi var. Kənddən şimalda 7 nohur (gölməçə) olduğu üçün kənd Gölkənd adlandırılmışdır. Kəndin 1831-ci ildə 357 nəfər, 1873-cü ildə 1567 nəfər, 1886-cı ildə 2157 nəfər, 1908-ci ildə 1555 nəfər, 1914-cü ildə 1866 nəfər, 1916-cı ildə 1486 nəfər, 1919-cu ildə 1376 nəfər azərbaycanlı əhalisi olmuşdur.1919-cu ilin yazında Andranikin quldur dəstəsi kəndə hücum etmiş, dinc əhalini qılıncdan keçirmişdir. Sağ qalanlar Azərbaycanın yaxın rayonlarına qaçmışlar. Yalnız indiki Ermənistan adlı ərazidə Sovet hakimiyyəti qurulduqdan sonra əhali tarixi yurdlarına qayıda bilmişdir. Kənddə 1922-ci ildə 1015 nəfər, 1926-cı ildə 1055 nəfər, 1931-ci ildə 1279 nəfər, 1959-cu ildə 1123 nəfər, 1970-ci ildə 1880 nəfər, 1979-cu ildə 2002 nəfər, 1987-ci ildə 2700 nəfər azərbaycanlı əhali yaşamışdır [15, 89].



Əhalinin əsas məşğuliyyəti əkinçilik, bağçılıq, heyvandarlıq olmuşdur. Kəndin orta məktəbi, klubu, kitabxanası, rabitə şöbəsi, tibb məntəqəsi var idi. 1988-ci ilin noyabr ayının sonlarında bir neçə gün müddətinə kəndin yerli əhalisi yerli hökumətin vəhşiliyi nəticəsində tarixi torpaqlarından qovulmuşdur [15, 89].

**Qaraqoyunlu** Qəmərli rayonunun kəndidir. İrəvan quberniyasının İrəvan qəzasının azərbaycanlı kəndi olmuşdur. 1918-ci ilə qədər ancaq azərbaycanlılar yaşamış, İran və Türkiyədən gələn erməni mühacirləri kənddə məskunlaşdırıldıqdan sonra qarışıq kənd olmuş, sonra isə erməni kəndinə çevrilmişdir. 1831-ci ildə 72 nəfər, 1873-cü ildə 355 nəfər, 1886-cı ildə 474 nəfər, 1897-ci ildə 456 nəfər, 1916-cı ildə 509 nəfər azərbaycanlı yaşamışdır. 1918-ci azərbaycanlılar soyqırıma məruz qalaraq deportasiya olunmuşdur. Kənddə xaricdən köçürülən ermənilər yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan kənd sakinləri öz evlərinə dönə bilmişdir. Kənddə ermənilərlə yanaşı 1922-ci ildə 178 nəfər, 1931-ci ildə 246 nəfər azərbaycanlı yaşamışdır. SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə 1948-1953 illərdə azərbaycanlılar Azərbaycana köçürülərək tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Hazırda Qaraqoyunlu kəndi erməni işğalı altındadır [15, 196].

**Qaraqoyunlu** (Cğın Qaraqoyunlu) Vedi rayonunun kəndidir. Dəniz səviyyəsindən 1856 m. hündürlükdə yerləşir. Kənddə 1873-cü ildə 376 nəfər, 1886-cı ildə 464 nəfər, 1897-ci ildə 389 nəfər, 1904-cü ildə 551 nəfər, 1914-cü ildə 606 nəfər azərbaycanlı əhali yaşamışdır. 1918-1920 illərdə kənd erməni vəhşiliyinin qurbanı olmuş, azərbaycanlı əhali tarixi torpaqlarından qovulmuşdur.

Sonralar kənd əhalisinin 10 faizi (60 nəfər) öz kəndinə qayıda bilmişdir. Əhali dağıdılmış kəndi bərpa etmiş, özləri üçün güzəran yaratmışlar. Kənddə 1926-cı ildə 101 nəfər, 1931-ci ildə 139 nəfər, 1939-cu ildə 321 nəfər azərbaycanlı yaşamışdır.1930-cu ildə kənddə kolxoz qurulmuşdur. 1949-cu ildə azərbaycanlıların öz tarixi torpaqlarından qovulması nəticəsində bütün əhali Azərbaycana köçürülmüşdür [15, 223].

Beləliklə, Azərbaycan Respublikasında, o cümlədən Qərbi Azərbaycan ərazisindəki qaraqoyunluların adıyla bağlı kəndlərin tarixi öyrənildikcə, zamanla layiqli qiymətini alacaqdır.



## SON SÖZ

Azərbaycanın, o cümlədən Şərqin ictimai-siyasi, mədəni həyatında əhəmiyyətli rol oynamış Qaraqoyunlu hökmdarları, onların varisləri hər zaman nəslin adını, şərəfini uca tutmuşlar. Sələflərindən xələflərinə qanla keçən vətən, torpaq sevgisi, dostluqda sədaqət, etibarlılıq, duz-çörəyin dəyəri hər zaman Baharlı soyundan olan qaraqoyunlular üçün müqəddəs məna daşımışdır.

Qaraqoyunluların yaratdığı dövlətin ərazisi Kür çayından Cənubi Azərbaycandan başqa Ərməniyyə, Qərbi İran, İraq, Kürdüstan, Gürcüstanın bir hissəsi və s. əraziləri də əhatə etdiyi üçün böyük imperiya sayıla bilər. Qaraqoyunlu dövlətində ən yüksək mənsəb sahiblərinin, dövlət başçılarının azərbaycanlı (əsasən Baharlı tayfasından) olması bu dövləti həmin ərazidə yerləşmiş bir sıra əvvəlki dövlətlərdən fərqləndirir. Azərbaycanın Ağqoyunlular və Səfəvilər dövründə yüksək tərəqqiyə çatması məhz Qara Yusifin qurduğu Qaraqoyunlu dövləti zamanında təşəkkül tapmış ənənələrin inkişafının nəticəsidir.

Qaraqoyunluların sonralar Cənubi Hindistanda yaratdıqları Qütbşahlar dövlətinin hökmdarları sələflərinin adət-ənənələrinə sadiq qalaraq yerli sakinlərin tarixinə, ədəbiyyatına, incəsənətinə qayğı ilə yanaşmış, türk mədəniyyəti ilə yanaşı hind mədəniyyəti də inkişaf etmişdir. Hind şairlərinin, rəssamlarının öz xalqları qarşısındakı xidmətləri Baharlı tayfasının hökmdarları tərəfindən mükafatlandırılmışdır.

Azərbaycanın, o cümlədən Qərbi Azərbaycanın müxtəlif rayonlarında qaraqoyunluların adıyla bağlı kəndlərin yerli sakinləri Baharlı soyundan olan bu tayfanın övladlarıdırlar.

Beləliklə, Baharlı soyundan olan qaraqoyunlular tarixin müxtəlif dövrlərində olduğu kimi bu gün də özlərinin görkəmli övladları ilə tanınırlar. Neçə-neçə tarixi şəxsiyyətlər bu nəslin layiqli övladlarıdır. Qaraqoyunlular sələflərinin layiqli xələfləri olaraq bu gün də doğma vətənimizin ictimai, elmi-mədəni həyatında öz sözlərini deyən gələcəyin tarixi şəxsiyyətləridir.

## Mənbələr və tədqiqatlar

Azərbaycan dilində


1 Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə, II cild. Bakı, 1960
2 Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə, III cild. Bakı, 1979
3 Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə, IX cild. Bakı, 1986
4 Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə, X cild. Bakı, 1987
5 Azərbaycan tarixi. I cild. (müştərək əsər). Bakı, 1994
6 Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. Tərtibçilər: Rübabə Əliyeva, Qara Məşədiyev, Etibar İnanc, Tünzalə Baxşıyeva, Şəms Qocayeva. I cild. Bakı, 2007
7 Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. Tərtibçilər: Rübabə Əliyeva, Roza Eyvazova, Gülşən Axundova, Tünzalə Baxşıyeva, Şəms Qocayeva. II cild. Bakı, 2007
8 Bakıxanov A. Gülüstani-İrəm. tərcümə edəni: M.Əsgərli, Bakı, 1951
9 Baharlı. Əhvalati-Qarabağ ("Qarabağnamələr" II kitab). Ön söz və transliterasiya edəni Nazim Axundov. Bakı, 1991
10 Baharlı Bayram xan. Əsərləri. Tərtibçi və ön sözün müəllifi: Ənvər Çingizoğlu. Bakı, 2013
11 Baharlı Məhəmməd. Azərbaycan tarixi: BAHARLILAR. Bakı, 2010
12 Baharlı Məhəmməd. Seçilmiş əsərləri. I cild. Bakı, 2012
13 Cahanşah Həqiqi. Seçilmiş əsərləri. Tərtib, müqəddimə və lüğətin müəllifləri: Əbülfəz Rəhimov, Lətif Hüseynzadə, Mail Əliyev. Bakı, 1986
14 Çingizoğlu Ənvər. Baharlılar. Bakı, 2012
15 Ermənistan Azərbaycanlılarının tarixi coğrafiyası. Tərtib edəni: Sabir Əsədov. Bakı, 1995
16 Əmir Teymurun vəsiyyətləri. Özbəkcədən çevirəni Məti Osmanoğlu. Bakı, 1991





17 Fərzəlibəyli Şahin Fazil. XV əsr Azərbaycan dövlətlərinin quruluşu. Bakı, 2003
18 Fərzəliyev Şahin. Azərbaycan XV-XVI əsrlərdə. Elm, 1983
19 Hüseynzadə Lətif. Qaraqoyunlu Cahanşah Həqiqi. Bakı, 2000
20 İbrahimov Cəfər. Azərbaycanın XV əsr tarixinə dair oçerklər. Bakı, 1958
21 İbrahimov Cəfər. Qaraqoyunlu dövləti. Bakı, 1948
22 İbrahimov (Şahin) T.Ə. Qaşqaylar. Bakı, 1988
23 Qarabaği Mirzə Camal Cavanşir. Qarabağ tarixi. Farscadan tərcümə, müqəddimə, qeydlər və adlar göstəricisi: F.Babayev. Bakı, 1959
24 Qəzvini Zeynəddin bin Həmdullah. Zeyl-e tarix-e qozide ("Seçilmiş tarix"ə əlavə). Fars dilindən tərcümə, müqəddimə, qeydlər və göstəricilər M.D.Kazımov və V.Z.Piriyevindir. Bakı, 1990
25 Qızılbaşlar tarixi. Tərcümə və şərhlər: M.Ə.Məhəmmədi. Bakı, 1993
26 Quliyeva Xatirə. XX əsrin Böyük Azərbaycan filosofu Zakir Məmmədov (Baharlı). Bakı, 2003
27 Məmmədov Zakir. Azərbaycan fəlsəfəsi tarixi. Bakı, 1994
28 Məmmədov Zakir (Baharlı), Zakiroğlu Orxan (Baharlı). Məhəmmədhəsən bəy Vəliyev (Baharlı) (soykökü, həyatı, yaradıcılığı). Bakı, 2015
29 Musəvi T.M. Orta əsr Azərbaycan tarixinə dair farsdilli sənədlər (XVI –XVIII əsrlər). Bakı, 1977
30 Münşi İsgəndər bəy. Dünyanı bəzəyən Abbasın tarixi. Fars dilindən çevirən: tarix elmləri doktoru, professor Şahin Fərzəliyev. Bakı, 2010
31 Müznib Əli Abbas. Azərbaycan intibahatı. Ərəb əlifbasından transliterasiya edəni: AMEA-nın müxbir üzvü, professor Zakir Məmmədov. "Bütöv Azərbaycan" qəzeti, 2-8 may, 2012-ci il, № 15 (147)
32 Nəcəfli Tofiq. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında. Bakı, 2000

33 Petruşevski İ.P. XV əsrdə Azərbaycan dövlətləri. Azərbaycan SSR Elmlər Akademiyası Tarix İnstitutunun Əsərləri, cild I, Bakı, 1951
34 Rəşidəddinin Fəzlullah. Oğuz-namə. Fars dilindən tərcümə, ön söz və şərhlər R.M.Şükürova. Bakı, 1992
35 Sümər Faruq. Oğuzlar. Türk dilindən tərcümə edəni: Ramiz Əsgər. Bakı, 1992
36 Şami Nizaməddin. Zəfərnamə (Azərbaycan və qonşu ölkələrin tarixinə dair iqtibaslar). Türk dilindən tərcümə edəni akademik Z.M.Bünyadov. Bakı, 1992
37 MDTA, fond 10; MDTA, fond 24; MDTA, fond 29; MDTA, fond 37; MDTA, fond 43
38 Tehrani Əbubəkr. Kitabi-Diyarbəkriyyə. Fars dilindən tərcümə edən, ön söz, şərhlər və göstəricilərin müəllifi Rahilə Şükürova. Bakı, 1998
39 Tərbiyət Məhəmmədəli. Danişməndani – Azərbaycan. Tərcümə edənlər: İsmayıl Şəms, Qafar Kəndli. Azərnəşr, 1987
40 Yəzdi Şərəfəddin Əli. Zəfərnamə (Azərbaycan tarixinə dair seçmələr). Bakı, 1996
41 Vamberi German. Əmir Teymur. Ruscadan tərcümə edəni: S.İbrahimov; transliterasiya edəni: Fərqanə İsmayılova. Bakı, 1991
42 Vəlili Məhəmmədhəsən (Baharlı). Azərbaycan (coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat). Əski əlifbadan çevirənlər: Ağanəcəf Həmidov, Əbülfət Rəhimli. Bakı, 1993
43 Vəliyev Məhəmmədhəsən (Baharlı). Azərbaycan (Fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerk). Ruscadan tərcümə edəni Vasif Quliyev. Bakı, 1993
44 Zakir Cabbar bəy oğlu Məmmədov (Biblioqrafik göstərici). Tərtibçilər: Aytək Zakirqızı, Ülkər Zakirqızı. Bakı, 2010
45 Zakirqızı Ülkər (Məmmədova). Yazaraq yaşayan alim (AMEA-nın müxbir üzvü, fəlsəfə elmləri doktoru, professor Zakir Məmmədovun həyat və yaradıcılığı). Elm, 2012
46 Zakiroğlu Orxan (Baharlı). Ağdamın adlı-sanlı pedaqoqları, alimləri. Bakı, 2001



47 Zakiroğlu Orxan (Baharlı). Cabbar bəy Vəlibəyov və davamçıları. Bakı, 2014
48 Zakiroğlu Orxan (Baharlı). Cabbar bəy Vəlibəyov adına I Baharlı kənd tam orta məktəbi. Bakı, 2015
49 Zakiroğlu Orxan (Baharlı). Xanlar xanı Bayram xan (sələfləri, xələfləri). Bakı, 2015
50 Zakiroğlu Orxan (Baharlı). Mirzə Vəli bəy ocağı (sələfləri, xələfləri). Bakı, 2015
51 Zakiroğlu Orxan (Baharlı). Şərq tarixi: Baharlılar. I kitab, Bakı, 2013,
52 Zakiroğlu Orxan (Baharlı). Şərq tarixi: Baharlılar (Ensiklopedik məlumat kitabı). II kitab, Bakı, 2013,
53 Zeynaloğlu Cahangir. Müxtəsər Azərbaycan Tarixi. Transliterasiya edən: Maarif Teymur. Bakı, 1992
54 www.qaraqoyunlu.com

Türk dilində

55 Aka İsmail. Timur ve devleti. Ankara, 1991
56 Babur Zahiruddin Muhammed. Baburname. (Vekayi). Doğu Türkcesinden çeviren: prof. Reşit Rahmeti Arat; Önsöz ve Tarihi Özet: Y.Hikmet Baydur. İstanbul, 2006
57 Beveridge.H. Bayram han. İslam ansiklopedisi. III cilt İstanbul, 1979
58 Cay A. Anadolu türk damğası. Ankara, 1984
59 Gülbeden. Hümayunname. Farscadan çeviren: Abdürrab Yelgar. Annette S. Beveridge tarafından Babur, Gülbeden və Haydarda adı geçen kadınların tercemei halleri hakkında yazılan kısmı ingilisceden çevirenler: Abdürrab Yelgar və Eymen Manyas. Ankara, 1987
60 Gürün Kamuran. Türkler ve türk devletleri tarihi. c. I, Ankara, 1984
61 Köprülü Fuad. Osmanlı devletinin kuruluşu. Ankara, 1991
62 Rumlu Hasan-ı. Ahsenüt-Tevarih. Çeviren: Mürsel Öztürk, Ankara, 2006

63 Sümer Faruk. Kara-Koyunlular (Başlanğıcdan Cihan-Şaha kadar). c. I,. Ankara, 1984
64 Sümer Faruk. Oğuzlar (Türkmenler). İstanbul, 1999
65 Sümer Faruk. Yıva oğuz boyuna dair. Türkiyat Mecmuası. X, 1951
66 Tekcan Münevver. Bayram Hanın Türkce Divanı. İstanbul, 2007
67 Toğan Z.V. Umumi Türk Tarihine giriş. c. I, İstanbul, 1970
68 Uzunçarşılı İ.H. Anadolu beylikleri ve Akkoyunlu, Karakoyunlu devletleri. Ankara, 1969
69 Benli Selma. İlk dönem urdu edebiyyatına genel bir baxış. Nüsha, Yıl: IV, sayı:13, BAHAR 2004

### Rus dilində

70 Босворт К.Э. Мусульманские династии. Москва, 1971
71 Мамедов Закир (Бахарлы). Мухаммедгасан Велили Бахарлы и его книга "Азербайджан". "Günay" qəzeti, 17 декабря 1996
72 Мамедов С.А. Азербайджан по источникам XV- первой половины XVIII вв. Баку, 1993

### İngilis dilində

73 Bilgrami Syed Ali Asgar. Landmarks of the Deccan. New Delhi, 1992
74 Luther Narendra. Prince, Poet, Lover, Builder. www.narendralutherarchives.blogsport.com
75 Naqvi Sadiq. Muharram during the Qutb Shahi Period. www.imamreza.net
76 Zabeth Hyder Reza. The Role of Iranian Migrant Scholars in the Advancement of Sciences during the Qutb Shahi Periodin Dakan. www.imamreza.net



## MÜNDƏRİCAT

| | |
|---|---|
| Ön söz | 3 |
| Qaraqoyunluların etimologiyası | 4 |
| Qaraqoyunlu dövləti | 14 |
| Qaraqoyunlu dövlətində elm və mədəniyyət | 47 |
| Baharlılar | 51 |
| Qaraqoyunlu dövlətinin əsasını təşkil etmiş tayfalar | 60 |
| Qaraqoyunlu dövlətinin varisi | 66 |
| Qaraqoyunluların adları ilə bağlı kəndlər | 70 |
| Son söz | 89 |
| Mənbələr və tədqiqatlar | 90 |

**ORXAN ZAKİROĞLU (BAHARLI)**
**(Orxan Zakir oğlu Məmmədov)**

# QARAQOYUNLULAR

**I KİTAB**

Rəy və təkliflərinizi Orxan-Baharlu@rambler.ru
ünvanına göndərmənizi xahiş edirik

Naşir: Afər Fəttahova
Texniki redaktorlar: Ülvi Arif, Asim Səfərov
Dizayner: İradə Əhmədova
Operatorlar: Zərifə Bağırova,
Tərlan Quliyeva, Kifayət Əliyeva

Yığılmağa verilib: 10.10.2015
Çapa imzalanıb: 28.10.2015
Kağız formatı: 84\108
Ofset çap üsulu ilə
Tiraj 500, şərti çap vərəqi 6
"MBM" nəşriyyatının mətbəəsində
çap olunmuşdur
Bakı, Mətbuat pr., 529
Tel.: (99412) 539-75-06